www.musavat.com

YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 7-9 sentyabr 2019-cu il Şənbə № 185 (7355) Qiymәti 60 qəpik

**Xəbər**

**Sosial şəbəkələrin yaratdığı yuxusuzluq sindromu - psixoloqdan xəbərdarlıq**

yazısı səh.12-də

**Gündəm**

**Rusiyalı sahibkarlar Azərbaycana axışır - səbəb**




Ekspert investisiya mühitindəki pozitiv çalarlardan və əngəllərdən danışdı

yazısı səh.3-də

# YAP RƏHBƏRLİYİNDƏN KEÇMİŞ NAZİRLƏRƏ ŞOK İTTİHAMLAR

**Hakim partiyanın icra katibinin müavini Siyavuş Novruzov sabiq nazirlərlə bağlı dosyenin masası üzərində olduğunu söylədi:** "Hamınızın siyahısı var, xaricdə kimə nə verirsiniz..."; Deputat vaxtilə yüksək post tutanlara mətbuat vasitəsilə xəbərdarlıq etdi; "Ya mövqeyini bildir, ya da... vəziyyətin çox ağır olacaq!" xəbərdarlığı kimə ünvanlanıb?




yazısı səh.5-də

**Rusiyalı tarixçidən Qarabağla bağlı məkrli mövqe**

yazısı səh.9-da

**Azərbaycan nefti bahalaşdı, davamlı olacaqmı...**

yazısı səh.3-də

**Sabiq nazirlərin bu günü - kim harada, nə edir?**

yazısı səh.5-də

**Hüquq müdafiəçisindən 119 nəfərlik "siyasi məhbus siyahısı"na dair sərt açıqlamalar**

yazısı səh.10-da

**Gələn ay bələdiyyə seçkilərinə start veriləcək**

yazısı səh.6-da

**"Şimal-2" elektrik stansiyasının Bakı üçün strateji əhəmiyyəti**

yazısı səh.7-də

**Binəqədidəki qanqstersayağı qətllə bağlı yeni xəbər**

yazısı səh.14-də

**Müğənnilərin "hacı" spekulyasiyası - cəmiyyətdən etiraz**

yazısı səh.4-də

**Narkotik vasitələrin qanuni dövriyyəsinə dair maraqlı faktlar**

yazısı səh.11-də

**Sürücü qəzalı maşını yolun ortasında saxlamalıdırmı - tıxacın daha bir səbəbi...**

yazısı səh.13-də

## Erməni nazir Məmmədyarovla görüşün anonsunu verdi-Bakıdan "getmə!" çağırışları

Ekspertlər deyirlər ki, Paşinyan Xankəndindəki bəyanatından imtina etməsə, Azərbaycan danışıqlara qatılmamalıdır

yazısı səh.8-də



*Əli Əliyev:*

**"Rusiyanın demokratik qüvvələri ilə münasibətlərin qurulması zəruridir"**

yazısı səh.10-da




**İstefa verən AXCP üzvündən Əli Kərimliyə yeni ittihamlar**

yazısı səh.4-də



*Ağasəlim Mircavadov:*

**"Əvvəlki futbolçular "peraşki" ilə hazırlaşırdılar, amma yaxşı oynayırdılar"**

yazısı səh.11-də



## Prezident türkdilli dövlətlərin xüsusi xidmət orqanları rəhbərlərini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 6-da türkdilli dövlətlərin xüsusi xidmət orqanlarının rəhbərlərini qəbul edib. APA xəbər verir ki, dövlətimizin başçısı Türkdilli Dövlətlərin Xüsusi Xidmət Orqanları Konfransının növbəti iclasının Bakıda keçirilməsindən məmnunluğunu ifadə edib.**

İclasın ikitərəfli və çoxtərəfli əməkdaşlığımızla bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını deyən Prezident İlham Əliyev ölkələrimiz arasında etimada əsaslanan çox sıx qardaşlıq münasibətlərinin mövcud olduğunu deyib. Dövlətimizin başçısı ölkələrimizin xüsusi xidmət orqanları arasında əməkdaşlığın mühüm əhəmiyyət kəsb etdiyini qeyd edərək, bu təmasların təhlükəsizliyin və regional sabitliyin təmin olunmasındakı rolunu vurğulayıb. Azərbaycanın regional əməkdaşlıq proseslərində fəal iştirak etdiyini deyən Prezident İlham Əliyev əlaqələrimizin möhkəmləndirilməsi üçün səylərin bundan sonra da davam etdiriləcəyini bildirib. Dövlətimizin başçısı iclasda müzakirə edilən məsələlərin ölkələrimizin təhlükəsizliyinin möhkəmləndirilməsi işinə xidmət edəcəyinə əminliyini ifadə edib.

Görüşdə çıxış edən qonaqlar Türkdilli Dövlətlərin Xüsusi Xidmət Orqanları Konfransının növbəti iclasının yüksək səviyyədə təşkilinə görə minnətdarlığını bildiriblər və bu tədbirin ölkələrimizin müvafiq qurumları arasında əlaqələrin və sıx əməkdaşlığın daha da genişləndirilməsi işinə töhfə verəcəyini vurğulayıblar.

## Rusiyadan İranla birlikdə ABŞ-ı dəli edəcək təklif




**Rusiya İranın neft sektoruna daha çox sərmayə qoymaq istəyir. Publika.az xəbər verir ki, bunu Rusiyanın neft naziri Aleksandr Novak deyib. Nazirin sözlərinə görə, ölkəsi tərəfindən sərmayə layihələrinin imkanları araşdırılır. Layihələrin başında neft istehsalı dayanır.**

Qeyd edək ki, Novak bir neçə gün əvvəl iranlı həmkarı Rza Erdekaniyan ilə görüşmüşdü.

## Şagirdlər məktəbə mobil telefon apara bilər, amma...

**Tədris ilinin başlama ərəfəsində bəzi məsələlər yenidən müzakirə olunmağa başlayıb. Oxu.Az xəbər verir ki, bunlardan biri şagirdlərin məktəbə telefon aparması məsələsidir.**

Bəzi valideynlər övladlarından istədikləri vaxt xəbər ala bilmək üçün onların məktəbə telefon aparmalı olduğunu düşünür. Lakin telefonların uşaqların diqqətini yayındırdığını nəzərə alsaq, mübahisəli məsələ yaranır.

*Məktəblərdə şagirdlərin mobil telefonlardan istifadəsinə icazə verilirmi?*

Təhsil Nazirliyindən Oxu.Az-ın sorğusuna cavab olaraq bildirilib ki, ümumtəhsil məktəblərində mobil telefondan istifadə ilə bağlı rəsmi qadağa yoxdur:

"Lakin tədris prosesi zamanı istifadəyə yol verilmir".

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

# Müddətli müqavilə ilə müəllimlərin işə qəbulunda fənlər üzrə keçid balı açıqlanıb

**2019-2020-ci tədris ili üçün müddətli müqavilə əsasında müəllimlərin işə qəbulu zamanı fənlər üzrə ümumtəhsil müəssisələrinə keçid balı məlum olub.**

Təhsil Nazirliyindən APA-ya verilən xəbərə görə, Azərbaycan bölməsində alman dili, Azərbaycan dili və ədəbiyyat, fransız dili, ibtidai sinif müəllimliyi, ingilis dili, riyaziyyat, tarix, coğrafiya fənləri üçün həvəsləndirmə tədbirləri tətbiq olunan ümumi təhsil müəssisələri üçün keçid balı 36, həvəsləndirmə tədbirləri tətbiq olunmayan ümumi təhsil müəssisələri üçün keçid balı isə 48 baldır.




İnformatika, Texnologiya fənləri üçün həvəsləndirmə tədbirləri tətbiq olunan ümumi təhsil müəssisələri üçün keçid balı 36, həvəsləndirmə tədbirləri tətbiq olunmayan ümumi təhsil müəssisələri üçün keçid balı isə 42 baldır.

Biologiya, fizika kimya fənləri üçün həvəsləndirmə tədbirləri tətbiq olunan ümumi təhsil müəssisələri üçün keçid balı 30, həvəsləndirmə tədbirləri tətbiq olunmayan ümumi təhsil müəssisələri üçün keçid balı isə 42 baldır.

Fiziki tərbiyə fənni üzrə həvəsləndirmə tədbirləri tətbiq olunan ümumi təhsil müəssisələri üçün keçid balı 30, həvəsləndirmə tədbirləri tətbiq olunmayan ümumi təhsil müəssisələri üçün keçid balı isə 36 baldır.

Musiqi, rus dili və təsviri incəsənət fənləri üzrə həvəsləndirmə tədbirləri tətbiq olunan ümumi təhsil müəssisələri üçün keçid balı 24, həvəsləndirmə tədbirləri tətbiq olunmayan ümumi təhsil müəssisələri üçün keçid balı isə 30 baldır.

Rus bölməsi üzrə rus dili və ədəbiyyat fənləri üzrə həvəsləndirmə tədbirləri tətbiq olunan ümumi təhsil müəssisələri üçün keçid balı 36, həvəsləndirmə tədbirləri tətbiq olunmayan ümumi təhsil müəssisələri üçün keçid balı isə 42 baldır.

İngilis dili fənni üzrə həvəsləndirmə tədbirləri tətbiq olunan ümumi təhsil müəssisələri üçün keçid balı 30, həvəsləndirmə tədbirləri tətbiq olunmayan ümumi təhsil müəssisələri üçün keçid balı isə 42 baldır.

Bilogiya, ibtidai sinif müəllimliyi, riyaziyyat, tarix fənləri üzrə həvəsləndirmə tədbirləri tətbiq olunan ümumi təhsil müəssisələri üçün keçid balı 30, həvəsləndirmə tədbirləri tətbiq olunmayan ümumi təhsil müəssisələri üçün keçid balı isə 36 baldır.

Fransız dili fənni üzrə həvəsləndirmə tədbirləri tətbiq olunan ümumi təhsil müəssisələri üçün keçid balı 24, həvəsləndirmə tədbirləri tətbiq olunmayan ümumi təhsil müəssisələri üçün keçid balı isə 36 baldır.

Alman dili, Azərbaycan dili, coğrafiya, fizika, fiziki tərbiyə, informatika, kimya, fransız dili, ibtidai sinif müəllimliyi, ingilis dili, riyaziyyat, musiqi, texnologiya və təsviri incəsənət fənləri üzrə həvəsləndirmə tədbirləri tətbiq olunan ümumi təhsil müəssisələri üçün keçid balı 24, həvəsləndirmə tədbirləri tətbiq olunmayan ümumi təhsil müəssisələri üçün keçid balı isə 30 baldır.

# Xalq Hərəkatında kimlər qalıb - Əhməd Oruc adları saydı

**Əhməd Oruc:** "Bu, kimlərinsə sadəcə röyası ola bilər"

**İki hissəyə parçalanan Azərbaycan Xalq Hərəkatında (AXH) sular durulmur. Hər iki qanadda istefalar ard-arda gəlir, narazılıqlar getdikcə güclənir. AĞ Partiya başqanı Tural Abbaslının ardınca VİP sədri Əli Əliyev də hərəkatın İdarə Heyətindən istefa verdi.**



Vahid Azərbaycan Milli Birlik Partiyasının sədri Hacıbaba Əzimovun da AXH-dən çıxdığı yönündə fikirlər meydana çıxıb. Onun hərəkatın İdarə Heyətinin demək olar ki, iclaslarına qatılmaması bu fikirlərin həqiqət olduğunu dolayısı ilə təsdiqləyir. Artıq AXH-nin bu qanadının fəaliyyətini dayandırdığı yönündə fikirlər də səslənir.

**Ə.Oruc deyilən fikirlərlə razılaşmır:** "Hacıbaba Əzimov uzun müddətdir ki, İdarə Heyətinin iclaslarına qatılmır. O əvvəllər də qatılmırdı. Sadəcə dönəm sədri olduğu vaxtlarda iclaslara gəldi. Onun mövqeyi bəlli deyil. İstədiyi vaxt iclaslara qatıla bilər. Ağsaqqal adamdır, çox hörmətli bir şəxsiyyətdir. Onun qarşısında heç vaxt yığıncaqlara gəlmək üçün şərt qoyula bilməz. Əli Əliyev fəaliyyətini müvəqqəti dayandırıb. Hazırda İdarə Heyətində Rəhim Qazıyev, Mirmahmud Mirəlioğlu, Hacı Tahir, Qurban Məmmədov, Aydın Zeynalov və bir də mənəm. Aydın bəy bizim Qaradağ şöbəsini yaradan insandır. Zona üzrə səlahiyyətli nümayəndə idi. Polkovnik-leytenantdır. Böyük təcrübəsi var. Mirmahmud bəy İdarə Heyətinin son iki iclasına qatılıb. AXH son iclasda dönəm sədrliyi müddətini üç ay etdi. İlk dönəm sədri məni seçdilər. Fəaliyyətimizi dayandırmaq barədə deyilənlər yalandır. Bu kimlərinsə sadəcə röyası ola bilər. Biz fəaliyyət göstəririk. Daha intensiv şəkildə çalışacağıq. Payız aylarında bütün ölkə boyu Allahın köməyi ilə təşkilatlanacağıq. İdarə Heyətinə yeni şəxslərin cəlb edilməsi yönündə planlarımız var. Biz razılaşmışıq ki, zona üzrə əlaqələndiricilər də İdarə Heyətinin üzvü olsunlar. Artıq iki şəxslə danışıqlar gedir. Bu məsələlər yəqin ki, müsbət həllini tapacaq".

❑ **Cavanşir ABBASLI**
**"Yeni Müsavat"**

## İranla Azərbaycan xərçəng xəstəliyinin müalicəsində əməkdaşlıq edəcək

**İran və Azərbaycan xərçəng xəstəliyinin müalicəsində əməkdaşlıq edəcək.**

APA-nın Tehran bürosunun məlumatına görə, İranın Radioterapiya Mərkəzi Azərbaycan Tibb Universiteti ilə İranda azərbaycanlı xərçəng xəstələrinin müalicəsi prosesini asanlaşdırmaq məqsədi ilə müqavilə imzalayıb.

Xərçəng Xəstəliklərinin Müalicəsi Mərkəzinin Rəyasət Heyətinin sədri Həmidrza Dehqan İraq Səhiyyə Nazirliyinin nümayəndələri ilə görüşdə APA-a açıqlamasında deyib ki, Azərbaycan Tibb Universiteti ilə imzanan müqaviləyə əsasən bu ölkənin xərçəng xəstələrinii daha təşkilatlanmış və yaxşı şərtlərlə İranda müalicəsini təmin edəcəklər. Dediyinə görə, hazırda mərkəzdə MRT texnologiyasından istifadə etməklə xərçəng xəstələri müalicə olunur: "Ölkəmizə gətirilən modern texnologiya Avropa ölkələrinə müalicə üçün gedən xərçəng xəstələrinə İranda daha az xərclə müalicə olunma imkanı yardır. Biz hazırda azərbaycanlı xəstələrin müalicəsi üçün müqavilə imzalamağı planlaşdırırıq".

H.Dehqan onu da bildirib ki, əməkdaşlıq memorandumu azərbaycanlı xərçəng xəstələrinin müalicəsinin effektiv olmasına zəmin yaradacaq.

## Goranboyda ana doğuş zamanı ölüb

**Goranboyda ana doğuş zamanı ölüb. APA-nın yerli bürosunun məlumatına görə, hadisə Goranboy Rayon Mərkəzi Xəstəxanasının doğum şöbəsində baş verib.**

1997-ci il təvəllüdlü, rayon sakini Quliyeva Əfsanə Əfqan qızı doğuş zamanı həyatını itirib. Doğuş zamanı Ə. Quliyevanın qız övladı dünyaya gəlib.

Ana ölümünün səbəbləri məlum deyil.

**Faktla bağlı araşdırma aparılır.**

YENİ MÜSAVAT
N 185 (7355) 7 sentyabr 2019

**Azərbaycanla Rusiya arasında iqtisadi münasibətlərdə ciddi canlanma hiss olunmaqdadır. Xüsusilə də son 2 ildə qarşılıqlı ticarət dövriyyəmiz əsasən Rusiyadan idxalın hesabına xeyli artıb. Azərbaycanın xarici ticarət əlaqələrində Rusiyanın payı təxminən 10 faizə yaxındır. Qeyri-neft məhsullarımızın ixracında Rusiyanın payı 35 faiz, kənd təsərrüfatı məhsullarının ixracında isə təxminən 90 faizə bərabərdir.**

# Rusiyalı sahibkarlar Azərbaycana axışır - səbəb

## Ekspert investisiya mühitindəki pozitiv çalarlardan və əngəllərdən danışdı; **Rəşad Həsənov:** "Azərbaycan bu məqamları mütləq nəzərə almalıdır"

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2018-ci ildə Azərbaycanla Rusiya arasında ticarət dövriyyəsi əvvəlki illə müqayisədə 20 faiz artaraq 2,55 milyard dollardan çox olub. Bu zaman Rusiyaya ixracımız 665 milyon 741.42 min dollar, idxalımız isə 1 milyard 885 milyon 164.65 min dollar olub. İxracda bu ölkənin payı 3,42 faiz, idxalda isə 16,44 faiz təşkil edib.


Rəşad Həsənov

Dövlət Gömrük Komitəsinin açıqladığı məlumata görə isə bu ilin 7 ayında Rusiyaya-ya 423 milyon 234.91 min dollarlıq məhsul ixrac etmişik. Bu, ümumi ixracımızın 3,45 faizi deməkdir. Şimal qonşudan idxalımız isə 1 milyard 183 milyon 761.94 min dollar olmaqla, ümumi idxalımızın 14,04 faizinə bərabər olub. İdxalda xüsusi çəkisinə görə Rusiya birinci yerdədir. Bu ölkəyə ixracımız idxalımızdan 3 dəfəyə yaxın aşağı məbləği əhatə edir.

İqtisadiyyat Nazirliyinin açıqladığı məlumata görə, hazırda Azərbaycanda sənaye, tikinti, ticarət, xidmət, bank, sığorta, İKT, nəqliyyat, kənd təsərrüfatı və s. sahələrdə 700-ə yaxın Rusiya kapitallı müəssisə fəaliyyət göstərir. Bunun 100-ə yaxını sırf Rusiya kapitallı müəssisələrdir. İndiyədək Rusiya tərəfi Azərbaycan iqtisadiyyatına 4,4 milyard dollar investisiya qoyub. Bunun əhəmiyyətli hissəsi negt-qaz layihələri çərçivəsində həyata keçirilib. Azərbaycanın Rusiyaya yatırdığı investisiyaların həcmi isə 1,2 mlrd dollardan çoxdur. Bunun 1 milyard dollar yaxını Dövlət Neft Fondunun sərmayələri təşkil edir.

Eyni zamanda Rusiyanın müxtəlif regionlarından istehsalçı şirkətlərin nümayəndələri ardıcıl olaraq Azərnaycana səfər edirlər. Elə bu günlərdə Rusiya Federasiyasının Kirov, Kostroma, Saratov, Ryazan, Vladimir, Moskva, Bryansk bölgələrindən 30-dan çox şirkətin nümayəndələri Azərbaycana gəlib. Səfər Kiçik və Orta İxracatçılar Birliyi və Rusiya İxrac Mərkəzi tərəfindən təşkil olunur.

Avqust ayında isə Rusiyanın Bryansk vilayətinin sahibkarları Azərbaycana gəliblər. Onların əsas məqsədi öz məhsullarını satmaq üçün əlverişli bazarları müəyyənləşdirmək olub.

Biznes missiya üzvləri Azərbaycanın biznes nümayəndələri ilə görüşüb. Görüşlərdə 16 müxtəlif sahəni təmsil edən 150-dən artıq Azərbaycan şirkətinin nümayəndələri iştirak edib. Bu sırada böyük ticarət şəbəkələri olan "Bazarstore", "Bizim Market", "Bravo" və "Araz"ın da nümayəndələri olub.

Rusiya ilə iqtisadi əlaqələrin sürətlə genişləndirilməsi, bu genişlənmənin daha çox oradan idxalın hesabına baş verməsi Azərbaycan üçün hansı perspektivlər vəd edir?

Sualları cavablandıran **iqtisadçı-ekspert Rəşad Həsənov** hesab edir ki, Şimal qonşumuzla iqtisadi münasibətlərimizi bir neçə aspektdən qiymətləndirmək lazımdır: "Birincisi, Rusiya Azərbaycanın ən böyük qonşularından biridir, kifayət qədər böyük bazara malik ölkədir. Azərbaycan bu potenialdan sonrakı dövrlərdə, xüsusilə də qeyri-neft sektorunun inkişafı baxımından yararlana bilər. İqtisadi münasibətlərin inkişafı əslində fürsətlərə çevrilməlidir. Təəssüf ki, hazırda Azərbaycanda yerli istehsal bu fürsətləri dəyərləndirə bilmir, çünki yerli istehsal o qədər də rəqabətli deyil. Digər tərəfdən, 2015-ci ildən etibarən Azərbaycanda, o cümlədən MDB-nin bir sıra resusrs ölkələrində alıcılıq imkanları əhəmiyyətli şəkildə məhdudlaşdı. Neftdən gələn gəlirlərin azalması bütövlükdə əhalinin gəlirlərini, buna paralel olaraq alıcılıq qabiliyyətini azaltdı. Nəticədə əhalinin istehlak vərdişləri dəyişdi: keyfiyyətli və bahalı məhsulların əvəzinə daha ucuz və aşağı keyfiyyətli məhsulları almağa başladı. Bu isə idxalçıların ucuz məhsulların istehsal olunduğu ölkələrə meyllənməsinə gətirib çıxardı. Rusiya istehsalçıları bu prosesdə nisbətən aktiv iştirak edirlər - bu ölkədə qeyri-neft ixracatının genişləndirilməsi üçün dövlət tərəfindən ciddi stimullaşdırıcı tədbirlər həyata keçirilir. Eyni zamanda Azərbaycanda 2016-cı ildən başlayaraq gömrük prosedurları şəffaflaşdırılıb, bu isə idxal xərclərini artırıb. MDB daxilində idxal isə Əlavə Dəyər Vergisindən azaddır. Bütün bunlar istər-istəməz Rusiyadan idxalı stimullaşdırır. Nəticədə isə bu ölkə ilə ticarət əlaqələrində idxal daha yüksək sürətlə artır".

**Ekspert bildirir ki, Rusiya qeyri-neft sektoruna investisiyaları cəlb etmək üçün bir sıra stimullaşdırıcı tədbirlər həyata keçirir:** "Bu, investorlar üçün imkanlar açır: Rusiya bazarı ciddi rəqabətin olmadığı bazarlardan biridir. Azərbaycan investorları üçün bu bazarda iş qurmaq daha asandır, nəinki Avropa və ya digər yüksək rəqabətli inkişaf etmiş bazarlarda. Buna görə də son vaxtlar Azərbaycandan Rusiyaya investisiya qoyanların sayı artır. Azərbaycan da öz iqtisadiyyatına investisiya cəlb etməyə çalışır. Ümumiyyətlə götürsək, istənilən ölkədən Azərbaycana investisiyanın gəlməsi müsbət haldır. Bu, ölkənin tədiyə balansına müsbət təsir göstərir, istehsalı canlandırır. Amma investisiyanın keyfiyyətini qiymətləndirsək, Körfəz ölkələri və Rusiyadan gələn investisiyalar Qərbdən, Yaponiya və Cənubi Koreyadan gələnlərlə müqayisədə daha aşağı keyfiyyətlidir. Xüsusilə təcrübənin, modern texnologiyaların idxalı baxımından birincilər çox geridə qalırlar".

**Strateji nöqteyi-nəzərdən yanaşdıqda isə Rusiya kimi ölkələrlə iqtisadi əməkdaşlıq kifayət qədər riskli hesab olunur**: "Yaxın keçmişə nəzər salsaq, 2008-ci ildə Gürcüstanla, 2015-ci ildə Türkiyə ilə, bir neçə ay əvvəl yenə Gürcüstanla yaranmış böhranlar göstərir ki, Rusiya iqtisadi əməkdaşlığa sırf siyasi maraqlar kontekstindən yanaşır. Bu əlaqələr siyasi münasibətlərdəki ən xırda bir gərginlik dərhal Rusiyaya ixrac olunan məhsullarımızı ciddi risklərə məruz qoya bilər. Yəni Rusiya etibarlı tərəfdaş sayılmır. Ümumilikdə Rusiya kimi tək əllə idarə olunan ölkələr iqtisadi əməkdaşlıq baxımından sərfəli hesab olunmurlar. Bu gün Azərbaycanın kənd təsərrüfatı məhsullarının 90 faizdən çoxu Rusiyaya ixrac olunur. Kənd təsərrüfatının qeyri-neft sektorunun inkişafı baxımından strateji sahə olduğunu nəzərə alsaq, bunun ölkəmiz üçün xeyli risklər yaratdığını söyləyə bilərik. Müasir iqtisadiyyatların əsas prinsiplərindən biri də yalnız istehsalın deyil, idxal və ixracın da diversifikasiyasıdır. Buna görə də bu gün Avropa ölkələri enerji bazarını, buğda bazarını diversifikasiya etməyə çalışır, bu istiqamətə külli miqdarda vəsaitlər yönəldirlər. Azərbaycan da Rusiya kimi risk səviyyəsi yüksək olan ölkə ilə əməkdaşlıq edirsə, bütün bu məqamları nəzərə almalıdır".

**❑ Dünya SAKİT, "Yeni Müsavat"**

# Azərbaycan nefti bahalaşdı, davamlı olacaqmı...

## **İlham Şaban:** "Hazırkı qiymət neft şirkətlərinin kifayət qədər mənfəətlə işləməsi, o cümlədən həm hasilatçı, həm də istehlakçı ölkələr üçün komfortlu bir qiymətdir"


İlham Şaban

**Azərbaycanın dünya bazarına çıxararaq satdığı "Azeri LT CIF" markalı xam neftin qiyməti 3,1 ABŞ dolları və yaxud 5,1% artıb. "Azeri Light" markalı neftin bir barelinin qiyməti 63,95 dollar təşkil edib. Artım təkcə, "Azeri Light" markalı neftlə bağlı qeydə alınmayıb. Brent markalı neftin qiymətində də artım var. ICE London qitələrarası birjasında keçirilən ticarət əməliyyatlarının gedişində Brent neftinin bir barelin dəyəri 0,04% artaraq 1 barelə görə 60,99 dollar təşkil edib. Nyu-Yorkun NYMEX əmtəə birjasında WTI markalı neftin 1 barelinin dəyəri 0,05% artaraq 56,35 dollar təşkil edib. Bu artımın iqtisadi səbəblərlə deyil, dünya iqtisadiyyatının lider dövlətləri arasındakı ticarət müharibələri ilə bağlı olduğu bildirilir".**

**Neft Araşdırmalar Mərkəzinin rəhbəri İlham Şaban** da "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, neftin bahalaşması birjaya daxil olan xəbər axını ilə əlaqədardır: "Azeri Light" markalı neftimizin qiyməti 3 dollar artıb, bundan öncə də, 2,5 dollar ucuzlaşmışdı. Burada təəccüblü heç nə yoxdur. Neftin qiymətinin düşməsinə olan ABŞ-a Çin arasındakı iqtisadi gərginlik, ticari müharibələr səbəb olmuşdu. İndi isə neftin bahalaşmasına ABŞ Enerji Adminstrasiyasının açıqladığı hesabat səbəb oldu. Bunun nəticəsində neftin qiyməti 62 dolları keçdi. Avqust ayının 2-dən buyana dünya birjalarında bu cür yüksək qiymət qeydə alınmamışdı. Bir sözlə, qiymət dəyişmələri birjalara daxil olan xəbərlərdən qaynaqlanır. Bu artımın davamlı olması, yenə də birjalarda bazarla bağlı nə qədər müsbət informasiyaların yayılmasından asılı olacaq. İndi sentyabr ayı olduğundan yeni informasiyalar gözləmək əbəsdir. Ancaq növbəti ayda ilin üçüncü rübünün yekunları ilə bağlı hesabatlar açıqlanacaq. Söhbət dünya iqtisadiyyatının vəziyyətinə dair məlumatlardan gedir. İstər ABŞ-da, istər Avropada, istərsə də Çində iqtisadiyyatın artım templəri, ÜDM-in artım templəri, idxal-ixrac əməliyyatları ilə bağlı məlumatların açıqlanması təbii ki, bazara öz təsirini göstərəcək. Ona qədər olan dövrdə isə OPEK+ çərçivəsində məsləhətləşmələr olacaq. Bazarda noyabr ayının sonu, dekabrın əvvəlində OPEK+ ölkələri arasında ilin yekun konfransı olmalıdır. Burada neft icraxın edən ölkələrin, neftin ədalətli qiymətinin saxlanılması istiqamətində qərarlar qəbul etməsi, çağırışlar və bəyanatlar səsləndirməsi gözlənilir ki, bütün bunlar bazara təsir edəcək.

Rusiyanın energetika naziri Səudiyyə Ərəbistanına səfərə hazırlaşır, bu danışıqlar da bazara müəyyən təsir göstərəcək. Hər şey iqtisadi faktorlardan və bazara yönələn müsbət və ya neqativ informasiyaların bolluğundan asılıdır".

**İlin son ayları üçün neft qiymətlərini proqnozlaşdıran İ.Şaban bunun 63-64 dollar ətrafında olacağını vurğuladı:** "Artıq 8 ayın nəticələri açıqlanıb. Bu rəqəmlərə görə, neftin orta qiyməti 65 dollar ətrafındadır. Bu həm dünya miqyasında, həm də Azərbaycan üçün kifayət qədər normal qiymətdir. OPEK ölkələri də 65 dolları özləri üçün məqbul qiymət kimi götürürlər. 70 dollar məqbuldan yuxarı səviyyə, 60 dollar isə aşağı səviyyəsidir. Yəni, bu dəhlizin orta hissəsində qərarlaşır. Bundan öncəki dövrə nəzər salsaq, biz neftin orta qiymətinin son 4 ayda 60 dollardan bir qədər aşağı, yeni 59 dollar ətrafında olduğunu nəzərə alsaq, ilin orta qiymət 63 dollardan aşağı düşməyəcək".

**Ekspert bildirdi ki, bu ötənilki rəqəmlə müqayisədə xeyli aşağıdır:** "Ötən il "Brent" markalı neftin orta qiyməti 70 dollar olmuşdu, Azərbaycan nefti isə 71 dollar idi. Bu il üçün isə neftin orta illik qiyməti 64-65 dollar proqnoz edilmişdi. Bir ara neft bahalaşanda, bəziləri bu proqnozu korrektə etdi, 67 dollara qaldırdılar. Ancaq hazırki qiymətlər iki il öncəsindən daha yaxşıdır, 2016-cı ildə olduğu kimi 44 dollar deyil. Hazırki qiymət neft şirkətlərinin kifayət qədər mənfəətlə işləməsi, o cümlədən həm hasilatçı, həm də istehlakçı ölkələr üçün komfortlu bir qiymətdir".

**❑ Nərgiz LİFTİYEVA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 185 (7355) 7 sentyabr 2019

# İstefa verən AXCP üzvündən Əli Kərimliyə yeni ittihamlar

## Namiq Sadıqlı: "Şər-böhtan, qarayaxma, rəqiblərini gözdən salmaq üçün iyrənc addımları əslində 1 ilə yaxın idi görürdüm"

**AXCP üzvü Namiq Sadıqlı partiyadan istefa verib. Bu barədə facebook profilində status paylaşan N.Sadıqlı AXCP sədri Əli Kərimlinin ünvanına ağır ittihamlar səsləndirib.**

İstefası barədə "Yeni Müsavat"a danışan Namiq Sadıqlı Ə.Kərimlini "top atəşi"nə tutmağa davam etdi: "Hərəkat dövründən cəbhəçiyəm. Elçibəyçi olmuşam. Elçibəydən sonra partiyada parçalanma getdi. Mən KXCP-də qaldım. Haradasa 2010-cu ildə İctimai Palata yaradılanda KXCP-də sədrimizin ora getmədiyi üçün müəyyən insidentlər yaşandı. Aramızda olan narazılıqlar başqaları kimi məni də oradan uzaqlaşdırdı. Sonralar şəxsən Əli bəyin də istəyi və təklifi ilə AXCP-nin Binəqədi təşkilatına üzv oldum. AXCP-də mübarizəyə qatılan insanlara qarşı qısqanclıq, şər-böhtan, qarayaxma, rəqiblərini gözdən salmaq üçün iyrənc addımları əslində 1 ilə yaxın idi görürdüm. Dedim düzələrlər, amma daha da o tərəfə gedib, özümə qarşı da söyüş və şər kampaniyası aparmaqdan çəkinmədilər. Hər şey Əli Kərimliyə qarşı tənqidi fikirlər yazdıqdan sonra başladı. Əslində bu addımı çoxdan atmaq istəyirdim. Hər şey göz qabağındadır. Həm şər atırlar, həm də təhqirlər yazırlar. Şər və təhqir yazan istifadəçiləri bacardığım qədər bloklayıram. Mənfi


Namiq Sadıqlı

və müsbət fikirli istifadəçiləri saxlayıram".

**N.Sadıqlı AXCP-də olduğu 9 ili bu cür dəyərləndirir**: "Müsbət mənada desək, əqidəli dostlar qazandım. İtirdiklərim isə polis bölmələrində saxlandığım saatlarım oldu. Partiyada kifayət qədər məni sevənlər də var. Sadəcə olaraq onlar susmağı üstün tutublar. Zaman hər şeyi göstərəcək. Məhz avtoritar qaydalar ucbatından AXCP-ni tərk etdim. Orada tənqidi sevmirlər. "Burdasansa, yalnız bizim dediklərimizi etməlisən" kimi mühit yaradıblar. Ən böyük dərdləri vəkil Qurban Məmmədov olub. Hər kəsi təbliğatlandırıb, ona qarşı yersiz hücumlara start verirlər. Hər şey birbaşa Kərimlinin təlimatı əsasında edilir. Bu Qurban kimdirsə, ondan yaman qorxurlar. Nəyin bahasına olursa-olsun onu sıradan çıxarmaq istəyirlər. Məni istədikləri kimi idarə edə bilmədikləri üçün şəxsimə qarşı şər böhtanlar yağdırmağa başlayıblar. Kərimlini facebookda olanlar lider kimi görə bilərlər. Bu isə bütün xalq demək deyil. O hakimiyyətə heç vaxt tək gələ bilməz. Narazı qüvvələrin də sayı onun tərəfdarlarından daha çoxdur. El gözünə Elçibəyi ziyarət edirlər. Amma bu Kərimli sevdalıları Elçibəyi arxa planda qəbul etmirlər. Lider Elçibəy idi. İndi isə əgər hər hansı bir dəyişiklik olacaqsa, lider xalq olacaq. Bunu cəmiyyətə məcburi lider kimi sırımaqla nəyəsə nail olduqlarını düşünürlər. Kərimli heç vaxt imkan verməz ki, partiyada ona alternativ olsun. Kimsə alternativ olacaqsa, deməli onu da digərləri kimi ləkələyəcəklər. Kərimli hakimiyyətə gəlmək istəsəydi, bir dəfə də olsa, seçkilərdə namizədliyini verərdi. Məncə o, ana müxalifət olmaq uğrunda mübarizə aparır və heç kimin ana müxalifət olmağına imkan verməz. Elə ana müxalifət kimi də özünü hiss edir. Dərdi onu tərifləyən virtual kanallara çıxıb, həmişəki kimi eyni mövzuları danışmaqdır, onu da edir. "Çevir tatı vur tatı". Məqsədi sosial şəbəkəni daim öz monopoliyasında saxlamaqdır".

**N.Sadıqlı siyasi fəallığını davam etdirəcəyini söylədi**: "Hazırda Azərbaycan Demokratiya və Rifah Hərəkatındayam. Hələ ki, başqa təşkilata getmək qərarım yoxdur. Ölkədə fəaliyyət göstərən 55-ə yaxın siyasi təşkilatların bir araya gəlib, Azərbaycanın xilas edilməsini istəyirəm. Bu vətən bizə məxsusdur, bunu hər hansı bir digər millətlər deyil, biz xilas etməliyik. Zaman göstərdi ki, çox partiyalılıq sistem və partiya maraqlarından yanaşma bizim uzun zamanımızı əlimizdən aldı və real nəticə əldə edə bilmədik".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Müğənnilərin "hacı" spekulyasiyası - cəmiyyətdən etiraz

## Kənan Rövşənoğlu: "Kimsə hansısa məqsədi üçün ziyarətə gedibsə, ona "hacı" deyə müraciətin edilməsi əslində dinə qarşı olan hörmətsizlikdir"

**Cəmiyyətdə son zamanlar "hacı" titulu ilə bağlı müxtəlif müzakirələrə rast gəlirik. İnsanlar "hacı" sözünün ətrafında müzakirələr aparır, kimin bu ada layiq olub-olmadığını çək-çevir edirlər. Cəmiyyətin qıcıqla, etirazla qarşıladığı xüsusi məqam isə son vaxtlar bəzi müğənnilərin sevgililərinin hacı olmasına dair piar aparmalarıdır. Digər həmkarları da onlarla rəqabətə girərək, aşiqlərinin, sevgililərinin, "sponsorlarının" hacı olmasına dair açıqlamalar verirlər, bunun üzərindən reklamlarını qururlar. Nəticədə, bir çox insanlar bir neçə şəxsə görə ümumən hacılar haqqında mənfi fikirlər səsləndirib, bu addan sui-istifadə edənlərin dindən uzaq olduğunu söyləyirlər.**

Bir zamanlar insanlar arasında "həci ürəkdir" kimi zarafat da yayılmışdı ki, o zaman da belə müzakirələr baş qaldırmış, "hacı" sözünün lağ-lağı obyektinə çevrilməsi dindar kəsim tərəfindən qınanılmışdı. Məsələ ilə bağlı Qafqaz Müsəlmanları İdarəsi də 2017-ci ildə bəyanat yayıb. Belə ki, QMİ-nin Fətva və moizə şöbəsinin mütəxəssisi Ağasəid Yaqubov report-a bildirib ki, ziyarətə gedən insanlara "həci" demək könüllüdür: "Müəyyən pillələri keçib müxtəlif adlara layiq görülən insanlar kimi o zamanın ziyarətə gedənləri də bunun üçün əziyyət çəkirdilər. Biri əziyyət çəkir elm öyrənir, professor adını alır, ona deyirlər. Bir insan müəllim, biri alim statusunu alır. Hərbi sahədə əziyyət çəkənlər rütbə alır, general olur və s. Belə adlar ona görə verilir ki, bu insanlar adları almaq üçün əziyyət çəkirlər. Hacı sözü Azərbaycanın rəsmi sənədlərində yazılmır, insanlar arasında hörmət əlaməti olaraq müraciətdə işlədilir. Yalnız Səudiyyə Ərəbistanından bizə kvota verilməndə deyirlər ki, bu qədər sayda hacı gətirə bilərsiniz. Bizdə isə bu müraciət forması şifahi şəkildə işlədilir. Elə insan var ki, Həccə getdiyini gizli saxlayır və heç kim də ona hacı demir. Eləsi var ki, onun getdiyini bilirlər və ona o formada müraciət edirlər. İnsanlara hacı deyilib-deyilməməsinə, adının qarşısında yazılıb-yazılmamasına biz hökm verə bilmərik. Həcc ziyarətinə könüllü şəkildə gedilir və müraciət məsələsi də könüllüdür. Hacı şəklində müraciət edilməsi o baxımdan yaxşıdır ki, ətrafda hamı bu insanın Həcc vacibatını artıq yerinə yetirdiyini bilir".


Kənan Rövşənoğlu

Məsələ ilə bağlı "Yeni Müsavat"ın dini yazarı Kənan Rövşənoğlu hesab edir ki, həqiqətən də son zamanlar Azərbaycan cəmiyyətində "hacı" sözünü fərqli məcralara çəkiblər: "Hacı" adı dində var və bu, islamiyyətdən gələn bir haldır. İldə bir dəfə Zilhiccə ayında gedib Məkkə ətrafındakı ziyarət əməllərini yetirmək, hacı olmaqdır. Buna Həcc əməlləri deyilir. Quranda da bu, belə yazılıb. Ancaq biz görürük ki, bu, gündəlik müraciət formasına çevrilib. Hacı dini baxımdan oradakı ziyarəti yerinə yetirən insanlara deyilən sözdür. Bəli, burası doğrudur. Ancaq burada başqa məqamlar da var. Belə ki, tarixən Məkkəyə getmək uzun, çətin proses olub. İnsanlar günlərlə ayaqla, at belində yol gediblər. Ona görə də insanlar hörmət, ehtiram əlaməti olaraq Həcc ziyarətinə gedənlərə "Hacı" deyə müraciət ediblər. Bu da o mənanı verir ki, həmin şəxsin ayağı müqəddəs torpaqlara dəyib, bu adam kilometrlərlə yolu qət edərək ziyarətə gedib. Eyni zamanda Kərbəlaya gedənə "kərbəlayi", Məşhədə gedənə isə "məşədi" deyirlər. İnsanlar düşünürlər ki, bu adam rahat həyatını buraxıb, əziyyətlə o yerlərə qədər gedibsə, biz də ehtiram olaraq ona "hacı" deyirik. İndi isə vəziyyət başqadır. Belə ki, hazırda pulu olanın Həcc ziyarətinə getməyi sanki bir trendə çevrilib. Ziyarətə gedənlərin sayı çoxalıb. Pulu varsa, ziyarətə gedir. Adamlar var ki, heç namaz qılmır, dinin qaydalarına əməl etmir. Ancaq hesab edir ki, Həcc ziyarətinə getdiyi üçün camaat da ona "hacı" deməlidir. Yaxud da ətraf artıq verdişə çevirib ki, bu adam ziyarətə gedibsə, ona mütləq "hacı" demək lazımdır".

**K.Rövşənoğlu bildirib ki, bütün bunlar indiki dövrdə "hacı" adının nüfuzdan düşməsidir:** "Klassik mənada deyilən "hacı" sözünü indi bir qədər adiləşdirib, ləqəbə çeviriblər. Ona görə də indi din, hacı adından neqativ xəbərlər də görürük. Bir zamanlar Üzeyir Hacıbəyov "O olmasın, bu olsun"u yazdı. Orada Məşədi İbad obrazı, "məşədi" sözü ilə birlikdə lağ obyektinə çevrildi. İndi də "hacı" sözü eyni mənanı verir. Baxırsan ki, adamlar var ki, heç bəlkə də dindar deyillər, sadəcə olaraq hansısa məqsədlə ziyarətə gediblər, ancaq onlara "hacı" deyirlər. İndi də həmin "hacı"ların adları hansısa müğənni, incəsənət adamı ilə hallanır. Bunu da bir növ gətirib dinə bağlayırlar. İnsanlar nəzərə almalıdır ki, kimə və nə üçün "hacı" deyirlər. İslamın yüksək ali dəyərlərinə görə insana "hacı" demək lazımdır. Yoxsa hər təyyarəyə oturub, 5 min dollar verib ziyarət edənə hacı demək olmaz. Əgər biz İslamda olduğu kimi ehtirama görə "hacı" deyiriksə, o yolu davam etdirən islam əxlaqını yaşadan adamlara bunu demək olar. Hansı ki, dədə-babamızda buna görə o insanlara "hacı" deyiblər. Yox, əgər insanda qeyd etdiyimiz hallar yoxdursa və o, sadəcə olaraq hansısa məqsədi üçün ziyarətə gedibsə, o zaman bu şəxsə "hacı" deyə müraciətin edilməsi, əslində dinə qarşı olan hörmətsizlikdir".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# YAP rəhbərliyindən keçmiş nazirlərə şok ittihamlar

**Hakim partiyanın icra katibinin müavini Siyavuş Novruzov sabiq nazirlərlə bağlı dosyenin masası üzərində olduğunu söylədi: "Hamınızın siyahısı var, xaricdə kimə nə verirsiniz..." Deputat vaxtilə yüksək post tutanlara mətbuat vasitəsilə xəbərdarlıq etdi; "Ya mövqeyini bildir, ya da... vəziyyətin çox ağır olacaq!" xəbərdarlığı kimə ünvanlanıb?**

**Son vaxtlar ilginc açıqlamaları ilə diqqət mərkəzində olan Milli Məclisin İctimai birliklər və dini qurumlar Komitəsinin sədri, YAP-ın icra katibinin müavini Siyavuş Novruzov sabiq nazirlərə bağlı şok açıqlamalar verib.**

"Yeni Müsavat"ın əməkdaşı ilə söhbətində hakim partiyanın funksioneri bildirib ki, bir sıra keçmiş nazirlər vəzifələrindən uzaqlaşdıqdan sonra "qeyb"ə çəkiliblər. "Keçmişdə dövlət rəhbərliyində işləmiş nazirlər var. Biri 20 il işləyib, biri 18 il, biri 15 il, digəri 10 il. Bunlar hamısı çəkilib qırağa, mövqeyini bildirmir. Soruşan gərək, atan, baban sənə vəzifə vermişdi?!", S.Novruzov eks-məmurlara sərt ritorika ilə xitab edib.

YAP rəhbərliyində təmsil olunan komitə sədri əməkdaşımızla söhbəti zamanı xatırlatdı ki, vaxtilə həmin eks-məmurların törətdiyi əməllərə, yol verdikləri qanunsuzluqlara görə hakim komanda hədəf olub: "Hələ bəzi problemləri də elə siz, keçmişdə nazir vəzifələrində çalışanlar yaradırsınız, bunu unutmayın! Ya çıxın, ortaya mövqeyinizi qoyun, ya da sizinlə bizim davamız daha gərgin olacaq! Hərəsi milyardı yığıb altına, qaçıb gizləniblər. Ona görə gəl ortaya, rəhmətlik ulu öndər demişkən, "mövqeyini bildir!""

S.Novruzov eks-nazirlərlə bağlı dosyenin masa üzərində olduğunu deyərək şok ittiham irəli sürdü: "Xaricdə oturanları maliyyələşdirmə! Masamın üzərində hamınızın siyahısı var, kimə nə verirsiniz". YAP rəsmisi daha sonra bəyan edib: "Mən onların hər birinə mətbuat vasitəsilə xəbərdarlıq edirəm. Ya mövqeyini bildir, ya da ki, başqa məsələlərə əl atılacaq!"

"Bu xəbərdarlıq və ittihamlar konkret olaraq kimə, yaxud kimlərə ünvanlanıb", sualımıza cavabında isə S.Novruzov yenə də israrla ad çəkmədi: "Mən konkretləşdirmək istəmirəm. Amma keçmişdə nazir vəzifəsində işləyiblər, yerinə yeniləri gəlib, onları nəzərdə tuturam. O insanlar ulu öndərə, cənab prezidentə minnətdar olmalıdır ki, neçə illər ərzində bu dövlətin naziri kürsüsündə oturub. Amma bu gün onlar tamam başqa yol tutublar. Nə səsləri çıxır, nə sorağı. Dövlətin sizə borcu var idi? Sən dövlət yaratmısan?! Dövləti biz yaratmışıq, mübarizə ilə. Xalq hərəkatında olmuşuq, müharibələrdən keçmişik, digər işləri görmüşük. Sən də gəlib oturmusan, dövlətin naziri olmusan. Nazirlikdən çıxandan sonra elə bil ki, küskün bir adam kimi çəkilib qırağa. Atan vermişdi sənə, ya adına yazılmışdı bu vəzifə?!"



S.Novruzovun sözlərindən belə məlum olur ki, eks-nazirlər hakim partiya ilə də əlaqə saxlamırlar: "Onlardan YAP Siyasi Şurasının, hətta İdarə Heyətinin üzvləri də var. Digərləri də, bitərəfidə...var. Mən ona görə də onları xəbərdar edirəm ki, ya çıxın meydana, mövqeyinizi ortaya qoyun, ya da mən mövqeyimi ortaya qoyacağam! Amma söhbət partiyadan getmir. Çıx ortaya, mövqeyini bildir! Sən bütün nəsil-nəcabətini təmin eləmisən. Çıx ortaya! Çıxmasan, biz çıxacağıq. Onda vəziyyətin çox ağır olacaq".

Maraqlıdır, sabiqlərdən konkret olaraq hansı mənada mövqe tələb olunur? Onlar nə etməlidirlər? S.Novruzov: "Dövləti, dövlətçiliyi, milləti, Prezidenti və Birinci vitse-prezidenti, ailə üzvlərini müdafiə ilə bağlı mövqe tələb olunur. Təbii ki, onların müdafiəyə ehtiyacı yoxdur. Amma mən onların mövqeyini öyrənmək istəyirəm. Bilmək istəyirəm ki, siz kimin yanındasınız?!"

Hakim partiyanın icra katibinin müavini sabiq məmurlarla bağlı faktlarının olduğunu bir daha israrla bildirdi: "Mən heç vaxt əsassız yerə danışmamışam, danışmıram da. Mənim konkret məlumatlarım var. O gün prezidentlə bağlı əsassız iddia irəli sürdülər. Mən bu iddianın müəlliflərindən birinə dedim ki, əsassız məlumatdır, səhər cənab prezidentin özü ilə danışmışam, belə iddialar səsləndirmək yaxşı deyil. Amma iddialarını davam etdirdilər, ancaq çox keçmədi ki, saxta məlumat yaydıqları məlum oldu. Yəni mən bilirəm nə deyirəm. Mən bir daha çağırış edirəm, göstərin ki, siz kimin tərəfindəsiniz? Özü də hamısına deyirəm: atan-baban sənə bu vəzifəni verməyib. Bu vəzifəni sənə ulu öndər verib, cənab prezident verib. Bunun hesabına da sən çox şeylər əldə etmisən! Odur ki, onlara müraciət edirəm, çıxsınlar ortaya mövqelərini bildirsinlər!"

Maraqlıdır, eks-nazirlər S.Novruzovun bu xəbərdarlıq-müraciətinə necə reaksiya verəcəklər? Mətbuata telefonlarını qapatmış bir sıra keçmiş nazirlər bundan sonra heç olmasa media mənsublarının suallarına cavab verəcəklərmi? İstənilən halda, S.Novruzovun müraciəti, ittiham və xəbərdarlıqları sıradan bir məsələ deyil...

❑ **E.PAŞASOY,**
**"Yeni Müsavat"**

# Sabiq məmurların bu günü - kim harada, nə edir?

## Yüksək vəzifədən azad edilən şəxslərin bəziləri təhsil sahəsinə yönəlib, bəziləri isə bizneslə məşğuldur


Səlim Müslümov


Heydər Əsədov


Aydın Əliyev


Ziya Məmmədov

**Azərbaycanda vəzifəsindən azad olunan nazirlər, komitə sədrləri və digər yüksək vəzifəli məmurların sonrakı həyatı ictimaiyyəti maraqlandıran məsələlərdən biridir. İnsanlar uzun müddət yüksək vəzifələr tutmuş şəxslərin məmur kürsüsündən getdikdən sonrakı məşğuliyyəti barədə məlumatları həvəslə oxuyurlar.**

Məlumdur ki, ötən ilin aprelində keçirilən prezident seçkilərindən sonra xeyli sayda yüksək vəzifəli məmur işdən azad olundu. Yeni hökumət kabinetində yer almayan bu nazir və komitə sədrləri nə işlə məşğuldurlar?

Qeyd edək ki, dünyada geniş yayılmış praktikaya əsasən sabiq dövlət rəhbərləri, baş nazir, nazir və prezidentlər öz təcrübələrini müxtəlif universitetlərdə tələbələrlə bölüşürlər. Ölkə mətbuatında yer alan, sonradan təsdiqini tapan məlumatlardan aydın olur ki, Azərbaycanda da sabiq məmurların bir çoxu elmi-pedaqoji fəaliyyətə üz tutur. "Aprel sabiqləri"ndən biri - 5 il əmək və əhalinin sosial müdafiəsi naziri olmuş **Səlim Müslümov** Milli Aviasiya Akademiyasının Dünya iqtisadiyyatı kafedrasının müdiri vəzifəsində çalışmaqdadır. Daha biri sabiq kənd təsərrüfatı naziri **Heydər Əsədov** da boş qalmayıb. Belə ki, o, Dövlət Dəniz Akademiyasının rektorudur.

Postundan 2018-ci ilin aprelində uzaqlaşan sabiq ekologiya və təbii sərvətlər naziri **Hüseynqulu Bağırov** da təhsil sahəsindədir - Qərbi Kaspi Universitetinin idarəetməsinin başına keçib.

Sabiq məmurlarımız arasında təhsil sahəsində çalışanlardan biri də Dövlət Gömrük Komitəsinin sədri olmuş **Aydın Əliyev**dir.

Beləliklə, aprel seçkilərindən sonra kreslosunu itirmiş yüksək vəzifəlilərin ən azı 4-ü müxtəlif universitetlərdə çalışmaqdadır. Lakin dünya praktikasından fərqli olaraq, onlar tələbələrə öz təcrübələri barədə mühazirə oxumayıb, konkret istiqamətlər üzrə fənnləri tədris etmək, yaxud müxtəlif yüksək vəzifələri tutmaqdadırlar.

Nəqliyyat naziri **Ziya Məmmədov** isə işsizdir, ibadətlə məşğuldur.

Keçmiş vergilər naziri **Fazil Məmmədov** biznesini idarə edir.

Sabiq məmurların bir qismi də var ki, vəzifədən alınandan sonra adları müxtəlif qalmaqallarda hallanmaqdadır. Onlardan biri baş nazirin sabiq müavini **İsmət Abbasov** gündəmə oğlunun xarici ölkələrdə böyük biznesinin aşkarlanması ilə gəlib. Oğlu barədə ən müxtəlif məlumatlar yayılsa da, İ.Abbasov onların heç birinə münasibət bildirməyib.

Qeyd edək ki, ötən ilin aprelində vəzifədən alınan iki məmurla bağlı ciddi tənqidlər səsləndirilmişdi. Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev miqrasiya orqanları və Diaspora ilə İş üzrə Dövlət Komitəsində korrupsiya hallarına yol verildiyini bildirmişdi. Administrasiya rəhbəri ən kəskin formada Diaspora Komitəsi haqqında danışmışdı: "Diasporla İş üzrə Dövlət Komitəsinin işində narazılıqlar var idi, Komitənin sədri Nazim İbrahimov öz vəzifəsinin öhdəsindən layiqincə gələ bilməyib. Təbii ki, bütün bunlardan Prezident İlham Əliyevin də məlumatı var. Buna görə də Prezident Nazim İbrahimovun işdən azad edilməsi barədə sərəncam verib. Nazim İbrahimovun rəhbərliyi dövründə nə Gürcüstanda, nə Avropa ölkələrində, nə də Orta Asiya ölkələrində yaşayan azərbaycanlılarla heç bir iş görülməyib. Düzdür, Komitədə müəyyən beynəlxalq tədbirlər keçirilib, amma konkret işlər görülməyib. Müəyyən tədbirlərin həyata keçirilməsində dövlət tərəfindən ayrılan maliyyə yardımları da öz ünvanına çatmayıb".

**Nazim İbrahimov** isə R.Meydiyevin dediklərini inkar etməyib və mətbuata açıqlamasında bunları deyib: "Ramiz Mehdiyev bizim ağsaqqalımızdır. Onun fikirləri tərəfimizdən birmənalı olaraq qəbul olunur".

Tənqidləri qəbul edən cənab İbrahimov elə ötən ilin mayında Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin sədri təyin olunub.

R.Mehdiyevin tənqid etdiyi Dövlət Miqrasiya Xidmətinin keçmiş rəisi, II dərəcəli dövlət miqrasiya xidməti müşaviri **Firudin Nəbiyev**in isə adı mətbuatda var-dövlətinə görə hallanmaqdadır. Müxtəlif resurslar ona məxsus olduğu deyilən xeyli sayda biznes obyektinin siyahısını dərc edirlər - bura yanacaqdoldurma məntəqələrindən tutmuş fermer təsərrüfatına, hətta gözəllik salonuna qədər çoxsaxəli biznes obyektləri aiddir. Bu isə cənab Nəbiyevin biznes fəaliyyəti ilə məşğul olmasından xəbər verir.

Daha bir sabiq - 25 il Baş nazirin müavini olmuş **Abid Şərifov**un da adı bu günlərdə mətbuatın gündəminə gəldi. Ondan müsahibə almaq istəyən və yox cavabı alan jurnalist cənab Şərifovun maşınının üstünə çıxmışdı. Xatırladaq ki, A.Şərifov baş nazirin müavini kimi tikinti sənayesi, nəqliyyat, rabitə, şəhər təsərrüfatı sahələrin kurasiya edib. Şərifov əvvəllər Bakı Baş Tikinti Trestində, daha sonra isə "Azərnəqliyyatyoltikinti" Dövlət Şirkətində çalışıb. Onun "Azərnəqliyyatyoltikinti" trestinin 100 nömrəli körpü-tikinti dəstəsinin əsasında formalaşdırılan "Azərkörpü" Açıq Səhmdar Cəmiyyətinin faktiki rəhbəri olduğu deyilirdi. Bu ASC uzun illər boyu Azərbaycanda həyata keçirilən ən böyük tikinti-təmir layihələrinin icrasına cəlb edilib. 2013-cü ildə şirkət adını dəyişərək "Avro-Asiya İnşaat Korporasiyası "EVRASCON" ASC olub. Bu ASC-nin səhmdarları arasında A.Şərifovun xanımı da olub. "EVRASCON" ASC Azərbaycanda siyahısı birbaşa Nazirlər Kabineti tərəfindən tərtib olunan "Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına əsasən mühasibat uçotunu aparmalı və maliyyə hesabatlarını təqdim etməli olan ictimai əhəmiyyətli qurumlar"dan biridir. Şirkət Qazaxıstan, Özbəkistan, Ukrayna kimi ölkələrdə layihələr əldə edir. Lakin son illərdə "Evrascon"un ciddi maliyyə çətinlikləri yaşadığına dair məlumatlar yayılmaqdadır. Son olaraq ötən ay şirkətin Ukraynadakı fəhlələrinin əmək haqlarının gecikdirilməsi səbəbilə tətil etdiklərinə dair məlumat verilib.

Cənab Şərifovun "Evrascon"dan əlavə tibb və turizm sahəsində də biznesinin olduğu deyilir...

Aprel seçkilərində Bakı Şəhər İcra Hakimiyyəti başçısı postunu itirən Hacıbala Abutalıbov isə baş nazirin müavini təyin olunub - A.Şərifovun kurasiya etdiyi sahələrə indi o baxır...

❑ **TURQUT,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 185 (7355) 7 sentyabr 2019

# Deputatlar payız sessiyasına əlidolu gedəcək

**Milli Məclisin payız sessiyası sentyabrın 30-da öz işinə başlayacaq. 15 sentyabrdan isə parlament komitələri səviyyəsində müzakirələr başlanacaq. Yay tətilindən qayıdan deputatlar payız sessiyasında vacib məsələlərlə bağlı təkliflər səsləndirməyi düşünürlər.**





## Vahid Əhmədov: "Hazırda payız sessiyasında səsləndirəcəyi təkliflər üzərində işləyirik"

## Fazil Mustafa: "Hər halda kisəmiz boş deyil, aktuallaşdıracağımız bir xeyli məsələ var"

**Deputat Vahid Əhmədov** "Yeni Müsavat"a açıqlamasında dedi ki, yay tətili dövründə əsasən nəvələri ilə bir yerdə, bağda olub: "Sonra 10 gün dostlarımla Yesentukidə dincəldim. Ümumiyyətlə, Bakıda olmuşam, işləmişəm. Qubada seçicilərimlə görüşmüşəm. Açığını deyim, ciddi istirahət eləməmişəm, işləmişəm". V.Əhmədov dedi ki, hazırda payız sessiyasında səsləndirəcəyi təkliflər üzərində işləyir.

**Deputat Fazil Mustafa** isə bildirdi ki, yay tətili ilə bağlı əslində iki istiqamətdə planları var imiş, amma istəyi alınmayıb: "Birinci mütaliə, ikincisi də idman. Mütaliə yetərincə oldu, demək olar ki, hər gün nəzərdə tutduğum ədəbiyyatları oxuya bildim. İkincisi isə bir qədər uğursuz oldu, çimərlik futbolunda ciddi zədə aldım, haradasa bir aydır oynamıram. Hələ təzə-təzə basketbolu bərpa etmişəm. Başqa yerə getmədim, Bakıda tapdığım mühiti əslində başqa yerdə tapa bilmirəm. Parlamentin açılışı oktyabrın əvvəlində olacaq, əslində payız sessiyasına xüsusi hazırlığım yoxdur. Hələ ki komitələrin hansı qanun layihələrini gündəliyə təqdim edəcəklərindən xəbərsizəm. Əlbəttə, aktual mövzular var ki, vətəndaşlar həllini gözləyirlər, onları gündəmə gətirəcəyik. Yeni gedişata uyğun Milli Məclisdə fəaliyyət taktikamızı müəyyən edəcəyik. Hər halda, kisəmiz boş deyil, aktuallaşdıracağımız bir xeyli məsələ var. Bunların başında da uşaq pulu məsələsi gəlir".

**Milli Məclisin (MM) qarşıdan gələn 2019-cu il payız sessiyasında daha iki yeni qanun layihəsinin ilkin variantlarda və ən azı komitələr səviyyəsində müzakirələrə çıxarılması gözlənilir. Etkxeber.az-ın xəbərinə görə, həmin qanun layihələri ilə bağlı parlamentin Səhiyyə komitəsi tərəfindən yaradılmış iki ayrı İşçi Qrupu fəaliyyət göstərir və onlar sözügedən sənədlər üzərində işləyirlər. Səhiyyə komitəsinin sədr müavini Musa Quliyev bu haqda saytımıza açıqlamasında bunları bildirib:**

"Həmin İşçi qruplarından biri "Pasiyentlərin və tibbi işçilərin hüquqları haqqında" qanun layihəsi üzərində işləyir. Hesab edirik ki, çox vacib və önəmli qanun layihəsidir. Ona çox ciddi ehtiyac var.

Digər İşçi Qrupu da "Əhalinin sağlamlığının qorunması haqqında" qanun layihəsi, daha doğrusu, onun gələn ildən tətbiqinə başlanılacaq icbari tibbi sığortanın şərtlərinə uyğunlaşdırılmasını nəzərdə tutan dəyişikliklər layihəsi üzərində işləyir".

"Bir neçə aydır ki, "Ali təhsil haqqında" qanun layihəsi üzərində çalışırıq. İyunda layihənin müzakirəsinə dair ilk iclası keçirdik. İclasda Elm və təhsil komitəsi ilə yanaşı, digər qurumların da iştirakı ilə İşçi qrupunu formalaşdırdıq. İşçi qrupuna Elm və təhsil komitəsinin üzvləri daxildir. Bu deputatlar ali təhsillə birbaşa bağlıdırlar, o sahədə çalışıblar. Eyni zamanda, İşçi qrupunun tərkibində Təhsil Nazirliyinin, eləcə də, digər qurumların nümayəndələri təmsil olunur. Həm ali məktəbləri, həm də vətəndaş cəmiyyətini təmsil edən şəxslər də var". Bunu isə Modern.az-a Milli Məclisin Elm və təhsil komitəsinin sədri İsa Həbibbəyli "Ali təhsil haqqında" qanun layihəsindən danışarkən deyib. Komitə sədri bildirib ki, qanun layihəsinin modeli artıq hazırdır.

"Əmək və sosial siyasət komitəsinin əlində elə bir vacib layihə var ki, neçə vaxtdır onun üzərində çalışırıq. Bu da "Turizm haqqında" qanun layihəsidir. Cənab prezidentin Mili Məclisə göndərdiyi əlavə və dəyişiklikləri müzakirə edirik. Əlavə və dəyişikliklərin də mahiyyətində əhalinin sosial rifahının yaxşılaşdırılması ideyası dayanır. Belə layihələri gözləyirik". Bunu isə **Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli** payız sessiyasına çıxarılacaq yeni qanun layihələrindən danışarkən deyib.

"Cənab prezident 2019-cu ili sosial müdafiənin gücləndirilməsi ili elan edib. Bu baxımdan biz bu tipli əlavə və dəyişiklikləri parlamentin gündəliyində gözləyirik"-deyə komitə sədri əlavə edib.

**H.Rəcəbli parlamentin payız sessiyasından danışarkən bildirib ki, payız sessiyası müddət olaraq qısa olsa da, mahiyyət etibarilə güclüdür:** "Ona görə güclüdür ki, gələn ilin büdcəsini, yaşayış minimumu rəqəmini, eləcə də, sosial büdcəni təsdiq edəcəyik. Bu il gələn ilin büdcəsini formalaşdıracaq xeyli işlər var. Minimum əmək haqqının, minimum pensiyaların artması büdcədə sosial yönümlülüyü artıracaq. Əvvəllər büdcənin 27-28 %-i sosial məqsədlərə gedirdisə, 2020-ci ildə bu rəqəm 35-37 civarında olacaq. Düşünürəm ki, büdcənin böyük hissəsi 35-37%-i sosial müdafiə və bu istiqamətli məsələlərə yönələcək. Minimum əmək haqqı 900.000 nəfəri əhatə edir. 700.000 nəfərin isə minimum pensiya həddi kəskin surətdə yüksələcək. Bizim hesablamalarımız göstərir ki, bu məsələlər üçün məbləğ 5 milyarda qədər ola bilər. Əvvəlki illərdə xərclər qrafasında bizim məsrəfimiz nə qədər idisə, bundan sonra 5 milyard manata qədər olacaq. Bu da büdcənin əsasən sosial yönümlü olmasından xəbər verir".

**Parlamentin Səhiyyə komitəsinin sədr müavini Musa Quliyev** "Report"a açıqlamasında bildirib ki, payız sessiyasında "Reproduktiv sağlamlığın qorunması haqqında" qanun layihəsi müzakirəyə çıxarılacaq: "Bu qanun layihəsi bir sıra dövlət qurumları ilə razılaşdırılıb. Yeni hazırlanan "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" qanun layihəsi də müzakirəyə təqdim ediləcək. Bununla bağlı əlaqədar qurumlardan rəy alınıb. Müzakirə edilən digər məsələlər isə yeni hazırlanan "Pasiyentlərin hüquqları haqqında" qanun layihəsi və "Əhalinin sağlamlığının qorunması haqqında" qanuna əlavə və dəyişiklik layihəsidir. Deputatların bu məsələlərlə əlavə təkliflərin olacağı istisna deyil". Sessiyada "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" qanun layihəsi də müzakirəyə çıxarılacaq.

**MM-in Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Tahir Kərimli** deyib ki, payız sessiyasına hazırlıq işləri gedir. T.Kərimli qeyd edib ki, deputatlar hazırda seçicilərin Milli Məclisə etdiyi müraciətləri araşdırır: "Sessiya çərçivəsində bir sıra qanunlara əlavə və dəyişikliklərin ediləcəyi gözlənilir".

**Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin üzvü Nizami Cəfərov** bildirib ki, sessiya ərzində bir sıra qanun layihələrinə dəyişiklik ediləcəyi gözlənilir. Deputat qeyd edib ki, yeni hazırlanan "Dini etiqad azadlığı haqqında" qanun layihəsində yas mərasimləri, dini təşkilatlarla bağlı bir sıra müddəalar yer alıb: "Qanun layihələri hazırlanarkən ölkədəki vəziyyəti nəzərə almağa çalışırıq. Azərbaycan kifayət qədər sabit ölkədir. Nəzərə almaq lazımdır, ölkəmiz də mürəkkəb dünyanın tərkib hissəsidir. Sabitlik olmazsa, iqtisadi inkişaf da olmaz. Dünyadakı proseslər yalnız hərbi yollarla - açıq müstəvidə deyil, müxtəlif yollarla da cərəyan edir. Məqsədimiz bunun qarşısını almaq və istifadə etməkdir. Qeyd edim ki, dünyada yalnız neqativ deyil, müsbət proseslər də gedir. Deməyim odur ki, biz müsbət proseslərin mərkəzində olmalıyıq. Dağıdıcılıq dünyanın özü üçün də problemdir. Yeni hazırlanan "Dini etiqad azadlığı haqqında" qanunda bunlar əksini tapıb. Qanun layihəsinin müzakirəsi cəmiyyətə, ictimai şüura daha çox təsir edir, nəinki qanun qəbul ediləndən sonra. Qanun qəbul ediləndən sonra hökm olur, tətbiqi məcburiləşdirilir. Ona görə layihənin müzakirəsinə ehtiyac var".

❑ **E.PAŞASOY, "Yeni Müsavat"**

# Gələn ay bələdiyyə seçkilərinə start veriləcək

## Mərkəzi Seçki Komissiyası hazırlıq işlərini yekunlaşdırır - kimlər namizəd ola bilməz?




**Dekabrın 27-də Azərbaycanda bələdiyyə seçkiləri keçiriləcək. Seçki Məcəlləsinə görə, bələdiyyə seçkiləri kampaniyasının başlanmasını Mərkəzi Seçki Komissiyası təyin edir. Seçki Məcəlləsinin tələblərinə müvafiq olaraq azı 60 gün əvvəl bələdiyyələrə seçkilər təyin edilməlidir. Seçki kampaniyasına oktyabrın 28-də start veriləcəyi gözlənilir.**

Bələdiyyə seçkiləri işğal altındakı rayonlara aid 7 seçki dairəsi istisna olmaqla, ümumilikdə 118 seçki dairəsini əhatə edəcək.

Mərkəzi Seçki Komissiyası seçici sayını dəqiqləşdirib və digər hazırlıq işlərini yekunlaşdırır.

Dəqiqləşdirmə prosesinin sonunda ölkə üzrə vahid seçicilər siyahısına 5212902 seçici daxil edilib ki, onların da 49,17 faizi kişi, 50,83 faizi isə qadınlardır.

2019-cu ildə bələdiyyə seçkilərinin keçirilməsi ilə bağlı dövlət büdcəsindən 53 milyon 900 min manat vəsaitin ayrılması nəzərdə tutulub. Ancaq, bu vəsait əsasən seçkilərin keçirilməsi üçün təşkilati-texniki məsələlərə xərclənməsi nəzərdə tutulur. Yeni namizədlərə və ya seçkilərdə partiya şəkilində iştirak edəcək partiyalara ayrılması üçün heç bir vəsait nəzərdə tutulmur.

Bələdiyyələrə seçkilərin qaydaları haqqında Qanunda bildirilir ki, Azərbaycan Respublikasında yerli özünüidarəni həyata keçirən bələdiyyələri Azərbaycan Respublikasının vətəndaşları bu Qanunla müəyyən edilmiş qaydada çoxmandatlı seçki əraziləri üzrə ümumi, bərabər, birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə seçirlər. Bələdiyyələrin səlahiyyət müddəti 5 ildir. Bələdiyyələrin səlahiyyətləri onların ilk iclas günü başlanır və yeni seçilən bələdiyyələrin birinci iclas günü başa çatır. Bələdiyyə üzvlərinin səlahiyyətləri yalnız bələdiyyələrin səlahiyyət müddətində qüvvədədir. 18 yaşı tamam olan və yaşı 18-dən yuxarı olan Azərbaycan vətəndaşlarının bələdiyyələrə üzv seçmək və seçilmək hüququ vardır.

İcra hakimiyyəti orqanlarında işləyən vəzifəli şəxslər, hakimlər, hüquq-mühafizə orqanlarının işçiləri, din xadimləri, hərbi qulluqçular bələdiyyə üzvü seçilə bilməzlər. İcra hakimiyyəti orqanlarında işləyən vəzifəli şəxslərin, hakimlərin, hüquq-mühafizə orqanlarının işçilərinin bələdiyyə üzvlüyünə namizədliyi qeydə alındıqdan sonra 3 gün ərzində onlar tutduqları vəzifədən azad olunmalı və bu barədə müvafiq sənədi ərazi seçki komissiyasına təqdim etməlidirlər. Bu qaydaya riayət olunmadıqda həmin şəxslərin qeydiyyatı ləğv edilir.

Məhkumluğun ödənilməsindən və ya götürülməsindən asılı olmayaraq, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 7-1 maddəsində nəzərdə tutulan ağır cinayətlərə görə məhkum olunmuş şəxslər, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrumetmə yerlərində cəza çəkənlər bələdiyyə üzvü seçilə bilməzlər.

**Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada fəaliyyət qabiliyyətsizliyi təsdiq edilmiş şəxslər bələdiyyələrə seçkilərdə iştirak edə bilməzlər.**

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

**Sentyabrın 5-də Bakıda “Şimal-2" elektrik stansiyası istismara verilib. Azərbaycan Prezidenti İlham Əliyev stansiyanın istismara verilməsi mərasimində iştirak edib.**

# “Şimal-2” elektrik stansiyasının Bakı üçün strateji əhəmiyyəti

## Deputat: “Azərbaycanın elektrik enerjisinə olan tələbatı bir daha möhkəmləndi, ölkəmizin elektrik enerjisi ixracatçısı kimi gücü artdı”



1950-ci illərdə iki mərhələdə istifadəyə verilən “Şimal” Elektrik Stansiyasının 1988-ci ildə birinci, 1998-ci ildə ikinci növbəsi tam köhnəldiyindən istismardan çıxarılmışdı. 1998-ci ildə mərhum prezident Heydər Əliyev Yaponiyaya səfəri zamanı 400 meqavatlıq “Şimal-1" Elektrik Stansiyasının tikintisi üçün ölkəmizə investisiya cəlb olunmasına nail olub. Beləliklə, 2000-ci ildə əsası qoyulan 400 meqavatlıq ”Şimal-1" stansiyası 2002-ci ildə istismara verilib. 2011-ci ildə isə prezident İlham Əliyevin iştirakı ilə ərazisi 104,9 hektar, gücü 400 meqavatlıq “Şimal-2" Elektrik Stansiyasının təməli qoyulub. Ötən ilin payızından başlayaraq ”Şimal-2" Elektrik Stansiyasının tikinti və quraşdırma prosesləri sürətləndirilərək 2019-cu ildə işlər tamamlanıb.

Ümumi qoyuluş gücü 800 MVt olan “Şimal-1" və ”Şimal-2" elektrik stansiyalarının vahid mərkəzdən idarə edilməsi, istismar prosesində əməliyyatların operativliyinin təmin olunması və ekstremal qəza vəziyyətlərində işdə pozuntuların operativ aradan qaldırılması nəzərə alınaraq ərazidə Mərkəzi İdarəetmə Binası inşa edilib.

AzərTAC xəbər verir ki, binada elektrik stansiyasının tarixini əks etdirən eksponatların sərgiləndiyi muzey də fəaliyyət göstərir. Burada iclas və konfrans zalları da yaradılıb. Yeni istifadəyə verilən idarəetmə binasında vahid dispetçer idarəetmə mərkəzi və stansiyanın mikro SCADA sistemi yaradılıb. Stansiyanın enerjisisteminin ümumi idarəetmə sisteminə inteqrasiyası üçün serverlər quraşdırılıb və optik kabel xətti çəkilib. Yeni binada stansiyaya aid olan bütün kommunikasiya əlaqələrinin vahid sxemə uyğun birləşdirilməsi təmin edilib. “Şimal-1" və ”Şimal-2" elektrik stansiyalarının birlikdə il ərzində gözlənilən istehsalı 5,7 milyard kilovat-saatdır.

Stansiyada Yaponiyanın “Mitsubishi” şirkətinin istehsalı olan 138 MVt gücündə buxar, 267 MVt gücündə qaz turbinləri, 560 MVA gücündə elektrik generatoru və onların köməkçi sistemləri quraşdırılıb. Enerji blokunda istehsal olunan elektrik enerjisi 480 MVA gücündə olan blok transformatordan qapalı tipli yarımstansiya vasitəsilə elektrik veriliş xətlərinə ötürülür. Müxtəlif gərginlik sinfinə malik olan paylayıcı qurğular arasında əlaqəni təmin etmək üçün 2 avtotransformator quraşdırılıb. Burada istehsal olunan elektrik enerjisinin ötürülməsi məqsədilə Abşeron regionunda 220 kV-luq dairəvi sxem qurulub, “Şimal” Elektrik Stansiyasının “Sumqayıt ES” və “Abşeron YS” ilə əlaqələndirilməsi üçün 65 kilometr uzunluğunda 220 kV-luq dörd hava elektrik verilişi xətti istismara verilib. Qəza rejimlərində stansiyanın vacib sistemlərinin elektrik enerjisi ilə qidalandırılması üçün qəza dizel generatoru quraşdırılaraq xüsusi sərfiyyat sxeminə qoşulub və avtomatik ehtiyatdan qoşulması təmin edilib.

Hazırda ən yüksək faydalı iş əmsalına malik olan “Şimal-1" və ”Şimal-2" elektrik stansiyaları birlikdə respublika üzrə elektrik enerjisi istehsalının 20 faizini, Bakı və Abşeron yarımadası üzrə 40-50 faizini təşkil edəcək. “Şimal” Elektrik Stansiyası enerjisistemin texniki-iqtisadi göstəricilərinin yaxşılaşdırılmasına əsaslı təsir etməklə yanaşı, il ərzində 77 milyon kubmetr təbii qazın qənaətinə və regionlardan Bakı şəhərinə verilən enerjinin miqdarının 20 faiz azalması nəticəsində elektrik enerjisinin uzaq məsafədən ötürülməsindən yaranan 199 milyon kVts elektrik enerjisi itkisinə qənaət olunmasına imkan yaradacaq. Bundan başqa, “Şimal” Elektrik Stansiyası 57,4 faiz faydalı iş əmsalına malikdir ki, bu da Cənubi Qafqaz regionunda ən yüksək faydalı iş əmsalı deməkdir. Elektrik stansiyası il ərzində 3,2 milyard kVts elektrik enerji istehsal edəcək və hər bir kVts elektrik enerjisinin buraxılışına 214,3 qram şərti yanacaq sərf ediləcək ki, bu da enerjisistemin ümumi göstəricisindən 65 qram azdır.

*Bəs, “Şimal-2" elektrik stansiyasının istismara verilməsi Bakı və ölkə üçün hansı strateji əhəmiyyəti daşıyır?*

**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədov** “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, “Şimal-2" elektrik stansiyasının istismara verilməsi böyük strateji əhəmiyyət daşıyır: ”Cənab prezident də stansiyasının istismara verilməsi mərasimində bildirdi ki, Azərbaycanda elektrik enerjisinə olan tələbat artır və əlbəttə ki, istehsal gücləri bu tələbata uyğun olmalıdır. Ona görə bu stansiyanın çox böyük əhəmiyyəti var.

Bilirsiniz ki, bir zamanlar Azərbaycanda elektrik enerjisi ilə əlaqədar ciddi problemlərlə üzləşirdik. Elektrik enerjisinin müəyyən hissəsini Rusiyadan alırdıq. Amma İlham Əliyev prezident seçiləndən sonra faktiki olaraq işıq problemi aradan qaldırıldı və artıq Azərbaycan xaricə elektrik enerjisi ixrac etməyə başladı. Bunun əsas səbəbi elektrik stansiyalarının qurulması istiqamətində aparılan işlərdir. “Şimal-2" elektrik stansiyasının yenidən qurulması və istismara verilməsi əlavə elektrik enerjisinin istifadə olunması deməkdir. Bu böyük bir layihədir və strateji əhəmiyyəti var. Keçən ilin yayında Mingəçevir Elektrik Stansiyasında çox böyük hadisə baş verdi və respublika faktiki olaraq işıqsız qaldı. Bundan sonra elektrik enerjisi sahəsində ciddi əməliyyatlar həyata keçirilməyə başladı və Şimal DRES-i faktiki olaraq yenidən quruldu. Bu da Azərbaycanın elektrik enerjisinə olan tələbatını bir daha möhkəmləndirdi. Eyni zamanda ölkəmizin elektrik enerjisi ixracatçısı kimi gücünü bir daha artırmış olacaq”.

❑ **Etibar SEYİDAĞA,**
**“Yeni Müsavat”**

# Bizdən “üstün” olan “ağıllı millət”in günü



**Xalid KAZIMLI**

**Bu yazının yazılmasını zəruri edən iki hadisə var. Heç biri Azərbaycanda baş verməyib, amma bizə aidiyyəti və bizdə müzakirəsi göz önündədir.**

O hadisələrdən biri odur ki, Ukraynada yeni prezidentin və yeni parlamentin formalaşdırdığı yeni hökumət kabinetində köhnədən qalan bütün nazirlər daha cavanları ilə əvəz edilib, kabinetin tərkibi büsbütün dəyişib, yeganə vəzifəsini qoruyan şəxs Bakı ermənisi Arsen Avakov olub.

İkinci hadisə Ermənistan millisinin İtaliya millisinə qarşı yaxşı futbol oynaması, buna baxmayaraq, 1:3 hesabla uduzmasıdır.

Bu iki hadisə arasındakı bağlantı, məzmunundan da göründüyü kimi, erməni məsələsi ilə bağlıdır. Ancaq yeganə bağlantı bu deyil.

Əsas məsələ odur ki, bəziləri bu iki hadisəni müzakirə edərkən belə bir qənaətə gəlirik ki, ermənilər bizdən daha ağıllı, daha fərasətli, daha güclü, daha səriştəli və sair və ilaxırdır.

Bəli, razılaşaq ki, ermənilər bizdən daha hiyləgərdir. Amma hiyləgərlik başqa şeydir, ağıllılıq başqa. Birinci o qədər öyünüləsi bir məziyyət deyil. Hiyləgərlərin hiyləsinin üstü əvvəl-axır açılır və onlar pis durumda qalırlar. Arsen Avakov öz vəzifəsini hiyləgərliyinə, satqınlığına görə qoruyub. O günümüzün Jozef Fuşesidir.

Əvvəlcə krala, sonra yakobinçilərə, daha sonra direktorata, xeyli müddət Napoleona, lap axırda yenidən krala işləyən, deputat, polis naziri olan Fuşe hər dəyişən rəhbərliyə uyğunlaşırdı, Avakov da elə edir. Özünə hörmət edən general onu vəzifəyə gətirən prezidenti ardınca istefaya gedərdi, kreslodan yapışıb qalmazdı. Yarım ilə, bir ilə yəqin ki, onu da vəzifəsindən götürəcəklər.

Erməni futbolçuların italiyalı həmkarlarına direşməsinə görə onları tərifləyib dağın başına qaldıran dostlar isə yaxşı olar ki, bir oyununun yox, son illərin statistikasına baxsınlar. Erməni futbolu bizdən nəinki öndədir, əksinə, daha da zəifdir. Bizim komanda (“Qarabağ”) 6-cı ildir Avropa Liqasının qrupunda oynayır, amma “Ararat” bu il də qrupa düşə bilmədi və hələ də heç bir erməni komandası öz azarkeşlərinə Avroliqa ləzzəti daddırmayıb.

Sırf ağıl, beyin idmanı olan şahmatı götürsək, qrossmeysterlərimiz erməni həmkarlarından həm çoxdurlar, həm də daha üstün reytinq balına malikdirlər.

Güləşi, cüdonu, digər əlbəyaxa idman növlərinə dair statistik göstəriciləri nəzərə alsaq, həm beynəlxalq idman yarışlarında idmançılarımızın qazandığı medallar qat-qat çoxdur, həm də təkbətək yarışlarda bizimkilər ermənilərə 9:1 hesabıyla udurlar (yəni hər 10 döyüş ustamızdan 9-u erməni həmkarına qalib gəlir).

Bəlkə hərbçilərimizin rəşadəti üzrə müqayisə aparsaq, işğal olunmuş torpaqlara görə ermənilər üstün durumda görünə bilərlər, amma müharibənin bütün gerçəkliklərini bilənlərə “rus silahı və əsgəri” faktorunu, bir də öz xəyanətkar ünsürlərimizin üzündən rayonlarımızın döyüşsüz təhvil verilməsi hadisələrini xatırlatmaq lazım gəlməyəcək.

Ermənilər bizdən ağıllı və uzaqgörən qövm olsaydılar, aralığa qan salmasaydılar, indi Azərbaycanın zəngin sərvətinə şərik olardılar, Bakının ən yaxşı yerlərində cah-cəlal içində yaşayar, ən yüksək vəzifələrdə çalışar, ən gəlirli biznes strukturlarına sahiblik edərdilər.

Ayrıca bütün Qarabağ cənnətə dönər, havasına, suyuna görə dünya miqyaslı kurort zonasına çevrilərdi. Sırf ermənilərin məkri, tamahkarlığı və ağılsızlığı üzündən Dağlıq Qarabağ da, aran Qarabağ da xarabazar gündədir. Bir neçə gün öncə “müstəqilliyi”n 28 illiyini qeyd etməklə deyil, bu qondarma “dövlət”in ömrünün ən çoxu 28 günə bitiriIməsi ehtimalı yüksəkdir və bunu ermənilər də bilirlər.

Bu necə “ağıllı, fərasətli millət”dir ki, öz taleyini tükdən asılı duruma qoyub, hətta özləri belə bu regionda sona qədər barınmayacaqlarından şübhəlidirlər. Ona görə də 30 il öncə 7 milyon olan Azərbaycan əhalisi artıb 10 milyona çatdığı halda, Ermənistan əhalisi 3 milyondan artmır ki, artmır.

**Dediyim odur ki, bizdə bəzən özümüzü aşağılamaq, düşməni şişirtmək mərəzi baş qaldırır, amma bu, yanlışdır. Demirəm ki, biz düşməni kiçik görək, aşağılayaq. Xeyr. Sadəcə, reallığı düzgün qiymətləndirmək, özümüzün də, düşmənin də mənfi-müsbətlərini olduğu kimi dəyərləndirmək gərəkdir.**



# İşıq udulan yerdə

Zamin HACI
zaminhaci@gmail.com

"Harda bir nur görür isək ona qarşı olarıq"
*(Sabir)*

**Avqustun 29-da Qambiya dövlətinin keçmiş prezidenti Davud müəllim rəhmətə gedərək bizləri və bütün dünyanı kədərə boğmuşdu, dünən isə Zimbabve-nin keçmiş prezidenti Robert Muqabe 95 yaşında, Sinqapur xəstəxanasında ölmüşdür. Acımız yenə böyükdür. Muqabe hardasa 37 il Zimbabve-ni fırlatmışdı, əfsanəvi insan idi. Təsəvvür edin, onun dostluq elədiyi adamlar SSRİ şefi Brejnevlə başlayıb indiki Rusiyanın yiyəsi Putin müəllimlə bitirdi. Muqabenin hakimiyyəti dövründə Zimbabve-də camaat acından sese milçəyi kimi qırılırdı, inflyasiya isə neçə... sekstilyon faizə qalxmışdı. (Sekstilyon arxasında 21 dənə sıfır olan ədəddir). 2017-ci ildə ölkədə... 100 trilyon dollarlıq banknotlar buraxılırdı. Nəhayət, həmin il hərbçilər çevriliş edib Muqabe müəllimi ölkədən qovdular. Onun yerinə gələn Emerson Mnanqaqva isə "Timsah" ləqəbi ilə tanınır. Yəqin onun bu ləqəbi yüksək insanpərvərliyinə, mərhəmətinə görə qazanmadığını anladınız. Sözgəlişi, dünən Emerson müəllim iki il qabaq devirdiyi Muqabenin ölümü münasibətiylə elə başsağlığı vermişdi ki, sanki öz ləqəbini doğrultmaq istəyirdi. Əsl timsah göz yaşları idi. Deyir Zimbabve xalqı qara geyinsin, acımız böyükdür. Fantastikadır. İki il qabaq aşırdıb e.**

Ancaq nə etmək olar, dünyada belə ərazilər var. Sanki qara dəlikdir, işığı udur. Bir Muqabe yıxılacaq, başqa Muqabe gələcək. Çətin işdir. Qonşumuz, qardaş xalqımız türkmənlərdəki proses kimi: Saparmurat öldü, yerinə Qurbanqulu gəldi və türkmən xalqı üçün heç nə dəyişmədi. Yeltsin öldü, Putin gəldi, onu da başqa çar əvəz edəcək. Köçəryan getdi, Sərkisyan gəldi, onu Paşinyan yıxdı, ancaq erməni xalqı üçün nə yenilik oldu? Heç zad olmadı, olması mümkün də deyil. Çünki demokratiya aşağılardan başlamalıdır. Hər bir insan azadlığını özü əldə etməlidir, sonra da bu azad adamların toplusu azad xalqı, azad dövləti formalaşdırmalıdır. Uzun sözün qısası, Muqabenin rəhmətə getməsi münasibətiylə uca millətimizə başsağlığı verib keçək öz savannalarımıza.

Bizdə, maşallah, inflyasiya problemləri yoxdur, istəyirsən bazarda kartofun kilosu iki manat yox, lap iyirmi manata qalxsın, yenə Statkom "İnflyasiya 1,5 faizi keçməyə cürət etməmişdir" deyəcəkdir. Azərbaycan dünyada yeganə ölkədir ki, bizdə inflyasiyanın dərəcəsini ölçmək üçün qiymətlərə baxmırlar. Harasa başqa yerə baxırlar, doğrusu bizim üçün sirdir. Bəlkə də AzTV-yə baxırlar, deyə bilmərik.

O cümlədən, bizdə timsahlar uçmur, lap uçsalar belə aşağıdan uçurlar. Qayda-qanunlara, adət-ənənələrimizə, milli mentalitetimizə əməl edirlər. İndiyədək bir ucqar kənddə bələdiyyə seçkisini normal keçirdə bilməmişik, ancaq görürsən bütün il boyu parlament seçkilərinin növbəsində, yoxsa növbədənkənar keçiriləcəyi müzakirə edilir. Üzeyir bəy demişkən, öncə siçan boyda işlər görməyi öyrənməliyik. Birbaşa filə keçirik, onillərlə həmin filin quyruğu ilə ağzını müəyyən edə bilmirik, axırda olur "Zimbabve". Məsələn, mənim yadıma gəlir, bizim müxalifət partiyalarından biri qabaqlar öz namizədlərini ilkin seçkilərdə müəyyən edərdi. Partiya daxilində əməlli-başlı demokratiya vardı, daha tənqid edəni dərhal qovmurdular. Bu yaxında isə həmin partiyanın paytaxtdakı rayon təşkilatlarından birinin sədrinin sosial şəbəkədə yazışmasından skrinşot paylaşmışdılar, adam cümlə qura bilmirdi. "Ziyalılar partiyası" nədən bu günlərə gəldi? Çünki biz qara millətik. İşığın udulduğu yerdəyik.

**Ya da bəziləri kimi gərək oturub xaricə teleqram vurasan: "Hyuston, bizdə problemlər var".**

---



# Erməni nazir Məmmədyarovla görüşün anonsunu verdi- Bakıdan "getmə!" çağırışları

## Ekspertlər deyirlər ki, Paşinyan Xankəndindəki bəyanatından imtina etməsə, Azərbaycan danışıqlara qatılmamalıdır

**Yaxın vaxtlarda Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarovla Ermənistan xarici işlər naziri Zohrab Mnatsakanyan arasında görüş keçiriləcək.**

**"Report" "Novosti Armeniya"ya istinadən xəbər verir ki, bunu Ermənistanın XİN başçısı Zohrab Mnatsakanyan sentyabrın 6-da İrəvanda keçirdiyi mətbuat konfransında bildirib.**

Rusiyanın Azərbaycanın xarici işlər naziri ilə Ermənistanın xarici işlər nazirini BMT Baş Assambleyasında görüşdürməyə çalışdığı, hətta bunun üçün Azərbaycan rəhbərliyinə xahiş etdiklərini keçmiş xarici işlər naziri Tofiq Zülfüqarov bir neçə gün əvvəl "Amerikanın Səsi"nə demişdi. O, bildirib ki, Ermənistanın baş naziri Paşinyanın bu ilin yayından başlayan təhdidedici siyasəti Rusiyanı ciddi şəkildə narahat etməyə bilməz: "Çünki Ermənistan rəhbərliyinin bu cür siyasəti hərbi əməliyyatların bərpasını çox real edir. Hiss olunur ki, Paşinyan hərbi əməliyyatlardan bəhanə kimi istifadə edərək qərbyönümlü siyasətini daha da fəallaşdırmaq istəyir. Ermənistan rəhbəri həm də onu qəbul etməyən Rusiya rəhbərliyinin himayəsindən uzaqlaşmaq istəyir. Paşinyanın verdiyi bəyanatlara baxmayaraq, səfər çərçivəsində Qarabağ mövzusunu müzakirələrə qatmamaq üçün elə görüntü yaratmağa çalışırlar ki, guya Azərbaycanla danışıqlar davam etdirilir. Buna görə də xarici işlər naziri Mnatsakanyan Elmar Məmmədyarovla növbəti görüşün keçirilməsində maraqlıdır. Bu görüş BMT-nin Baş Assambleyanın illik toplantısında baş tuta bilər. Bu proseslərin hamısı danışıqların öz axarı ilə davam etdirilməsini göstərmək məqsədi ilə ediləcək".

**T.Züfüqarov hesab edir ki, indiki şəraitdə görüşləri davam etdirməyin Azərbaycan üçün heç bir faydası yoxdur**: "Artıq Paşinyanın Xankəndidəki mitinqdə səsləndirdiyi bəyanatlarından sonra danışıqlar üçün heç bir əsas qalmayıb. İmitasiya xarakterli danışıqlar aparmağın Azərbaycana heç bir faydası yoxdur. Amma eyni zamanda hiss olunur ki, bu bəyanatlardan kənarda hansısa maraqlar mövcuddur. Bu maraqları Mnatsakanyan ifadə edir. O da öz çıxışında bəzi tezisləri səsləndirir. Bununla o, danışıqlara hazır olduğunu bu və ya digər şəkildə göstərmək istəyir. İstisna olunmur ki, Mnatsakanyan özünü Paşinyandan qabaq mövcud olan prinsiplər əsasında görüşlər keçirmək niyyətində olduğunu göstərməyə çalışır".

**Sabiq XİN rəhbəri vurğulayıb ki, Azərbaycan tərəfi bu görüşə qatılmalı deyil:** "Əlbəttə, Azərbaycanın imitasiya xarakterli görüşlərə qatılması Paşinyanın mövcud bəyanatlarının üstündən keçmək, qəbul etmək və görüşləri davam etmək kimi anlaşılacaq. Azərbaycan bu addımı atsa, uduzacaq. İstənilən halda Paşinyanın birləşmə çağırışından sonra bu görüşə qatılmaq olmaz. Çünki Paşinyanın səsləndirdiyi bəyanatları təkzib etməyib, onlardan imtina etməyib. İkincisi, Nikolun bəyanatlarından sonra Azərbaycan bu görüşlərə qatılmazsa, oktyabrda Putin-Paşinyan görüşündə Qarabağ mövzusunun müzakirəsinin aparılması labüd olacaq. Düzgün məntiq budur. İndiki mərhələdə Azərbaycan tərəfi olaylara ciddi siyasi qiymət verərkən, Paşinyanın mövcud bəyanatlarının danışıqları davam etdirməyi mümkünsüz etdiyini vurğulamalıdır. Bu bəyanatdan Paşinyan rəsmi olaraq imtina etməsə, Azərbaycan növbəti görüşlərə qatılmamalıdır. Bir sözlə, Azərbaycan ciddi şəkildə öz mövqeyini ortaya qoymalıdır. Bunun üçün əlimizdə hər bir siyasi əsas var. Təbliğati baxımdan da biz bu faktdan düzgün istifadə etməliyik. Bir daha deyirəm, bu görüş Azərbaycanın xeyrinə olmaz. Bunu birmənalı başa düşməliyik".

*Bəs Rusiyan danışıqların dayanmasından nədən narahatdır? Rusiya nəticəsi olmayan Qarabağ danışıqlarını nədən bu qədər istəyir?*

Bu suallara cavabı isə **AMİP-in sədr əvəzi Arzuxan Əlizadə** "Yeni Müsavat"a açıqlamasında verib. A.Əlizadə bildirdi ki, Rusiya Dağlıq Qarabağ probleminin həllini sürətləndirməkdə deyil, əksinə, Azərbaycan və Ermənistan arasında mövcud status-kvonun qorunub saxlanmasında maraqlıdır. Bununla da həm Azərbaycanı, həm də Ermənistanı problemin həllində özündən asılı vəziyyətdə saxlamağa çalışır: "Rusiya rəsmiləri dəfələrlə açıq və ya üstüörtülü şəkildə cəbhə bölgəsində aktiv hərbi əməliyyatların keçirilməsinə qarşı olduqlarını vurğulayıblar. Bu səbəbdən də Ermənistanın hazırkı iqtidarının, xüsusilə də Paşinyanın bu ilin əvvəllərindən başlayaraq Dağlıq Qarabağla əlaqədar yürütdüyü təhdidedici siyasəti Rusiyanı narahat etməyə bilməz. Ermənistan rəhbərliyinin hazırkı mövqeyi hərbi əməliyyatların bərpasını çox real edir. Rusiya tərəfinin isə yeganə istəyi budur ki, müharibə olmasın. Ona görə də Azərbaycan və Ermənistan arasında vəziyyət gərgin fazaya daxil olan kimi Rusiya yetkililəri də aktivləşərək problemin yalnız danışıqlar masası ətrafında mümkünlüyünü tərəflərə təlqin edirlər. Hesab edirəm ki, Rusiya Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevin avqustun 16-da Ermənistana, iki gün əvvəl isə Azərbaycana səfərinin pərdəarxası səbəblərindən biri də bu ola bilər. Rusiya eyni zamanda ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi danışıqlar prosesini nəzarətdə saxlayaraq istədiyi səmtə istiqamətləndirir və uzun illərdir ki, davam edən danışıqların nəticəsiz qalmasında bu ölkənin xüsusi rolu vardır. Əslində Rusiya problemin danışıqlar yolu ilə həll olunmayacağını da yaxşı bilir və bu üzdən də danışıqların davamlı, lakin nəticəsiz olmasında bütün mümkün vasitələrdən istifadə edir".

❑ Etibar SEYİDAĞA,
"Yeni Müsavat"

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 185 (7355) 7 sentyabr 2019

# Rusiyalı tarixçidən Qarabağla bağlı məkrli mövqe

**Politoloq:** "Sergey Stankeviçin dedikləri avantüradır və Ermənistanın maraqlarına xidmət edir"; Paşinyan Köçəryanla bağlı seçim etmək məcburiyyətindədir

**Rusiya prezidenti Vladimir Putinin həbsdə olan eks-prezident Robert Köçəryanı təbrik edəndən sonra onun Avrasiya İqtisadi İttifaqının Ali Şurasının iclasında iştirak etmək üçün İrəvana gəlib-gəlməyəcəyi sual altına düşüb. Məsələ burasındadır ki, Köçəryanı təbrikdən sonra Ermənistanda Rusiyaya qarşı etirazlar baş qaldırmaqdadır. Üstəlik, Nikol Paşinyan hakimiyyəti hələlik Rusiya dövlət başçısının şərtlərini yerinə yetirməyib. Belə bir durum isə Avrasiya İqtisadi İttifaqının toplantı yerinin dəyişdirilməsi, yaxud da Putinin tədbirdə iştirakdan imtinası ilə yekunlaşa bilər.**



Ancaq bu ərəfədə R.Köçəryanın həbsdən buraxılacağı ilə bağlı məlumatlar da diqqət çəkir. İddialar var ki, Paşinyan Putinin həbsxanadakı dostu ilə görüşünə şahid olmamaq üçün eks-prezidenti sayca üçüncü dəfə azad edə bilər. Hər halda, 12 sentyabr məhkəmə iclasında məsələyə aydınlıq yaranacaq. Üstəlik, Moskvanın Paşinyana verdiyi 10 günlük müddət gələn həftə yekunlaşacaq.

Ermənistan xarici işlər nazirinin müavini Şavarş Köçəryan deyib ki, 1 oktyabrda keçiriləcək iclasın gündəliyi Rusiya da daxil olmaqla bütün ölkə başçılarının konsensusu əsasında təsdiq olunub. Diplomat qeyd edib ki, Putin qonaq deyil. "Özləri belə qərar veriblər", Köçəryan bildirib.

Məlumata görə, iclasda həmçinin İran prezidenti Həsən Ruhaninin, həmçinin Sinqapurun baş naziri Li Syan Lunun iştirakı gözlənilir. Bir müddət əvvəl Tehran Ermənistanla azad iqtisadi zonanın yaradılması prosesinin sona çatdığı barədə İrəvanı məlumatlandırıb. Bu zona barədə razılaşma tezliklə qüvvəyə minəcək. Həmçinin Avrasiya İttifaqının bütün ölkələri Sinqapurla imzalanacaq sazişin üzərində işləməlidirlər. Oktyabrın 1-də isə Sinqapurla azad iqtisadi zona haqqında saziş imzalanacaq. Avrasiya İqtisadi İttifaqının Ali Şurasının iclası sentyabrın 30-dan oktyabrın 1-dək davam edəcək.

Tədbirə ev sahibliyi etməsi Ermənistan üçün həyati əhəmiyyət kəsb edir. Bu mənada Paşinyan qatı düşmənini həbsdən buraxmaq bahasına olsa belə, tədbirin keçirilməsinə çalışacaq. Məlumata görə, son günlər işğalçı ölkənin baş naziri Nikol Paşinyan gecə saatlarına qədər komandası ilə Köçəryanın həbsdən azad edilib-edilməməsi ilə bağlı qapalı görüş və müzakirələr aparır. Ermənistanın "Johovurd" gündəlik qəzetinin yazdığına görə, sentyabrın 5-də gecə bu cür qapalı formatda hökumət nümayəndələri ilə keçirilmiş növbəti görüşə, hüquq-mühafizə orqanları rəhbərləri də qatılıb. "Bizə məlumat verildi ki, Konstitusiya Məhkəməsinin Köçəryanla bağlı son qərarı xeyli müddət hüquq-mühafizə orqanlarının nümayəndələri ilə müzakirə olunub. Ermənistan ədliyyə naziri Rustam Badasyan Paşinyanı təkidlə Konstitusiya Məhkəməsinin qərarının Robert Köçəryanın həbsdən azad edilməsinə əsas verə bilməyəcəyinə inandırmağa çalışıb. Əlavə məlumata görə, sentyabrın 6-da "Mənim addımım" fraksiyasının mərkəzi komitəsinin aparatında fraksiya deputatları ilə də görüş olacaq"- erməni qəzeti belə yazır. Moderator.az-ın xəbərinə görə, bu günlərdə Ermənistan mediasında Rusiya lideri V.Putinin əsasən, Köçəryanın taleyi və İrəvana səfəri onunla görüşməsi ilə bağlı məsələləri həll etmək üçün Paşinyana sentyabrın 10-dək vaxt verməsi haqda xəbərlər yayılıb.

Çox güman ki, İrəvan toplantısında iştirak edəcəksə, V.Putin ikitərəfli danışıqlarda Qarabağ məsələsini də müzakirəyə çıxaracaq.

****

"Qarabağ münaqişəsi "üç nəslin qarşıdurmasının tipik bir hadisəsidir". Yəni baş vermiş döyüşlərin şiddətinin və qurbanların itkisi ilə bağlı ağrının gərginliyinin aradan qalxması üçün ən azı üç nəsil dəyişməlidir". Bunu isə virtualaz.org-eksklüziv açıqlamasında **Rusiyanın keçmiş prezident Boris Yeltsinin müşaviri, tarixçi və siyasətçi Sergey Stankeviç** deyib. Stankeviç bildirib ki, zamanla müzakirələrin emosionallığı azalmalıdır, ancaq nəsil dəyişikliyindən sonra da tərəflər barışıq formulunu tapmalı olacaqlar. "Üçüncü ölkələr, o cümlədən Rusiya iki münaqişə tərəfinin barışmasına və özlərinə uyğun bir razılaşmaya gəlmələrinə təminatçı kimi çıxış etməklə kömək edə bilərlər. Nifrətin nəsildən-nəslə ötürülməsi fikrimcə, pis, bəzi hallarda isə cinayətdir ", - tarixçi əmindir.

Stankeviçin fikrincə, Moskva tərəflərin barışmasında müsbət rol oynaya bilər: "Həm Bakı, həm də İrəvanla əla münasibətlərimiz var və düşünürəm ki, tərəflər sülh təşəbbüslərimizə qarşı çıxmayacaqlar".

Bəs, "Moskva zəmanət verə bilərmi ki, onun sülhməramlıları münaqişənin iştirakçısı olmayacaqlar, necə ki, bu Cənubi Osetiyada oldu" sualına cavab olaraq bildirib ki, "onda müəyyən bir insanın konkret avantürası var idi". "Düşünürəm ki, dünyada hər kəs Rusiyanın öz sülhməramlılarına qarşı təxribatlara, kimin tərəfindən edilməsindən asılı olmayaraq, heç vaxt yol verməyəcəyinə dair bir dərs aldı. Üstəlik, tərəflər razılığa gəlsələr, Türkiyə sülhməramlı əməliyyatda iştirak edə bilər, xüsusən də nəzərə alsaq ki, Moskva ilə Ankara arasındakı münasibətlər yalnız genişlənəcək. Bundan başqa, tamamilə mümkündür ki, Türkiyə NATO-nu tərk edəcək", - deyə Stankeviç vurğulayıb.

Təəssüf doğuran hal budur ki, Rusiyada bir çoxları münaqişənin həllinin "gələcək nəsillərə" saxlanmasını məqbul sayırlar. Elə aprel döyüşlərindən sonra da baş nazir D.Medvedyev münaqişənin dondurulmasını çıxış yolu saymışdı. Belə bir vəziyyət isə torpaqlarımızın ilhaqına yol açır. Budur, məlumatlar var ki, ermənilər Kəlbəcərə qaz xətti çəkir, süni məskunlaşma ilə bağlı yeni layihələrin icrasına başlayıblar. Təbii ki, bütün bunları Azərbaycan üçün etmirlər.

**Politoloq Məhəmməd Əsədullazadə** "Yeni Müsavat" a bildirdi ki, Rusiyanın Qarabağla bağlı siyasəti regionda öz strateji maraqlarını təmin etməkdir: "Bu gün Rusiya faktoru münaqişənin həllinə ciddi zərbə vurur. Rusiya siyasilərinin açıqlamaları əsasən, Moskvanın regionda qalıcılığına hesablanıb. Birinci, Qarabağ münaqişəsinin nəsil dəyişikliklərinə gətirməklə həllinin vurğulanması ilk növbədə Azərbaycanın milli maraqlarına zərbədir. Orada böyüyən ermənilər Azərbaycan faktorunu qəbul etməyəcək. Qeyd edim ki, iki xalq arasında katalizatorluq edib, münaqişəni qızışdıran FTB-yə bağlı belə siyasilərdir. Onlar bu faktoru ortaya atmaqla sanki Azərbaycanı Qarabağdan əl çəkməyə çağırırlar. Bu avantüradır və Ermənistanın maraqlarına xidmət edir".

**Rusiyanın sülhməramlılarına gəldikdə isə ekspert dedi ki, bu gün Cənubi Osetiyanı Gürcüstandan ayıran Moskvanın sülhməramlılarıdır**: "Onlar bu subyektdə olmasa, Cənubi Osetiya könüllü Gürcüstanın tərkibinə qatılar. Məhz Rusiyanın sülhməramlıları buna imkan vermir. Ümumiyyətlə, bu sülhməramlılar sülhə deyil, Moskvanın işğalı davam etdirməsinə zəmin yaradır. Rusiya daima çalışır ki, Qarabağa sülhməramlılarını yerləşdirsin. Hesab edirəm ki, Rusiya sülhməramlıları yerləşdirilsə, bu, Qarabağın Azərbaycandan qopardılması ilə nəticələnəcək".

Türkiyəyə gəldikdə, politoloq qeyd etdi ki, qardaş ölkənin Qarabağda sülhməramlılar yerləşdirilməsinə Azərbaycan daima razıdır: "Amma Türkiyənin NATO-dan tezliklə uzaqlaşması mümkün deyil. Ümumiyyətlə, heç Rusiya da Türkiyənin burada sülhməramlı yerləşdirməsinə razı olmaz. Amma iki ölkə arasında ikitərəfli strateji ortaqlıq uzunmüddətli olarsa, Qarabağ münaqişəsi yaxın perspektivdə həll edilsə, iki ölkənin sülhməramlı yerləşdirməsi mümkündür. Gərək say tərkibi iki ölkənin sülhməramlıları eyni ola".

**Politoloq Arzu Nağıyev** də bu məsələ ilə bağlı maraqlı fikirlər söylədi: "Əgər Sergey Stankeviçin çıxışındakı məqamlara diqqət yetirsək görərik ki, o, bir daha Rusiyanın münaqişənin həllində mühüm bir açar fiqur olmasını ön plana çəkmək istəyir. Məlum məsələdir ki, hələ Yeltsinin vaxtından başlanan bu siyasi bəyanatlar doğrudan da ancaq formasını dəyişərək təkrarlanır. Məlumdur ki, Qarabağ döyüşlərində həlak olanlar hər iki tərəfdən unudulmur və çətin ki, unudular. Lakin bütün müharibələr göstərir ki, sülhə nail olmaq üçün və ya qələbə çalmaq üçün bu nə qədər ağır olsa da müəyyən güzəştlər olmalıdır və bunu üçün nəsillərin dəyişməsi də önəm kəsb etmir. İkinci məqam yenə də Rusiyanın barışdırıcı rolunun qabardılmasıdır. Təbii ki, çox məsələlər Rusiyadan asılıdır. Ermənistanla eyni hərbi blokda təmsil olunur, ərazisində hərbi bazası var və s. Rusiya təsir mexanizmindən istifadə edərək sülhə nail ola bilər. Ancaq təbii ki, Azərbaycanın ərazi bütövlüyü qorunmalıdır". Rusiyanın sülhməramlı missiyasına gəldikdə isə A.Nağıyev dedi ki, bunun çox ağır nəticələri ola bilər: "Məhz buna görə də Stankevişç bunu Türkiyə ilə birgə etməyin vacibliyini deyir. Yəni Rusiya erməniləri dəstəklədiyi üçün Türkiyə vacib bir faktor olmalıdır. Burada da Türkiyənin NATO üzvü olmasını qabartmağa üstünlük verilir. Yəni bu çıxışlar dəfələrlə təkrar olunan və təəssüf ki, icra mexanizmi olmayan tezislərdir". A.Nağıyev əlavə etdi ki, Rusiyanın təşəbbüsü ilə keçiriləcək sammitdə isə bir sıra dövlətlərin də qatılması (İran, Sinqapur-red.) Ermənistana dəxli olmayan məsələdir: "Rusiya Qərblə yaşana problemlərdən sonra özünə tərəfdaş axtarışındadır və hətta üçtərəfli formatların yaradılması da regional faktorlardan əlavə də tərəfdaşların cəlb edilməsinə hesablanıb. Yəni Ermənistan bundan yararlanmaq iddiasında olsa belə, əsas hədəf Rusiyanın öz problemlərinin həlli ilə bağlıdır".

****

Belə bir durumda Qarabağ separatçıları "seçki" müzakirələri aparırlar. Erməni mediasında 8 sentyabr tarixində Azərbaycanın işğal olunmuş ərazilərində qondarma "yerli özünüidarəetmə seçkilərinin" keçiriləcəyi məlumatı yayılır. Rəsmi Bakı məsələyə reaksiya verib. "Ermənistan kütləvi informasiya vasitələrinə əsasən, ölkəmizin Ermənistan tərəfindən işğal olunmuş ərazilərində "seçkilər" donu ilə təqdim edilən növbəti şounun təşkili nəzərdə tutulur. Hər kəsə çox yaxşı bəlli olan bir reallıq var; hərbi təcavüz, işğal, etnik təmizləmə, qanunsuz əməllər halında hansı "seçki"dən danışırsansa, danış, nə bu hazırlanan tamaşa, nə də onun nəticələri beynəlxalq ictimaiyyət tərəfindən tanınmır və tanınmayacaq", bəyanatda deyilir.

Rusiya-Ermənistan gərginliyi Azərbaycan üçün öz torpaqlarını işğaldan azad etmək üçün bir fürsətdir. Ola bilər ki, belə fürsət ələ düşməsin. Təsəvvür edin, Ermənistanda Köçəryanın yanına, həbsxanaya getmək istəyən Putini "qapını arxadan bağlamaqla" hədələyirlər. Dikbaş Paşinyanın cəzalandırılması və aprel döyüşlərindən sonra mövqeləri zəifləyən Serj Sərkisyan kimi, hakimiyyətdən qovulması bu gün Rusiya üçün də çox maraqlı olardı...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 185 (7355) 7 sentyabr 2019

# 119 nəfərlik daha bir "siyasi məhbus siyahısı" açıqlandı-hüquq müdafiəçisindən sərt açıqlamalar

## Səidə Qocamanlı: "Bu siyahılar Azərbaycan hökumətinə heç bir təsir etməyəcək"

**AŞ PA-nın Azərbaycanda siyasi məhbuslar üzrə məruzəçisi Torhildur Sunna Evarsdottir sentyabrın 5-də Azərbaycana gəlib. Məruzəçi gələr-gəlməz siyasi məhbus siyahıları ilə bağlı ciddi rəqabət yaşanır. Bəzi hüquq müdafiə təşkilatları sanki siyahıdakı məhbusların sayını artırmaq üçün bir-birilə yarışırlar.**

İlk olaraq, avqustun 31-də "Azərbaycan Siyasi Məhbuslara Azadlıq" İttifaqı 117 nəfərin adı olan siyahı açıqladı. Bunu ardınca isə Vahid Siyasi Məhbus Siyahısının hazırlanması üzrə İşçi Qrup 119 məhbusun adını açıqladı.

Belə fikirlər var ki, AŞ PA məruzəçisi gələn vaxta belə siyahıların dövriyyəyə buraxılması Azərbaycan hakimiyyətinə təzyiq etmək, məruzəçinin əlinə fürsət vermək deməkdir.



İnsan Haqları üzrə Birgə İşçi Qrupunun üzvü Səidə Qocamanlı bu siyahıları hazırlayanlar yarışa çıxıblar ki, kim siyasi məhbus siyahısına daha çox məhbusun adı salınacaq: "Məruzəçi ilə görüşümüz oldu. Bizim siyasi məhbus siyahısı kifayət qədər qısadır. Bu ona görə belədir ki, biz hər zaman siyahıları təqdim edəndə reallıqdan çıxış edirik. Kimə nə edə biləcəyimizi, hansı yardımı edəcəyimizi düşünürük. Çalışırıq ki, mümkün qədər nəyəsə nail olub, insanları azad etdirək. Mart ayında olan əfvdə də eyni şeyi etdik. Biz siyahımızda o insanların adını seçdik ki, onlar doğrudan da azadlığa buraxıla bilərdilər. Biz lobbiçilik edə bildik, cənab prezidentə məktub yazdıq. Əsaslandıra bildik ki, bu insanlar azadlığa çıxa bilərlər. Nəticə o oldu ki, bizim siyahıdan 50-dən çox insan azadlığa buraxıldı. İndi də biz elə bir siyahı məruzəçiyə təqdim edəcəyik. Bunu həm də ölkə rəhbərinə göndərəcəyik. Çalışacağıq ki, siyahımızda olanlar azad edilsinlər. Siyahımızda bloggerlər, jurnalistlər, siyasi partiyaların nümayəndələri var. Onların içərisində Qarabağ qaziləri, xəstələr, daha ağır xəstə olanlar var. Elələri var ki, vərəm xəstəsidir. Bu insanların adlarını biz təqdim edəcəyik ki, AŞ PA məruzəçisi də onların azad edilməsi uğrunda bizimlə birgə fəaliyyət göstərsin. Onu da deyim ki, uzun siyahıları təqdim etməklə cəzasının az hissəsi qalanların, ağır xəstə olanların yollarını kəsirlər. Çox təəssüflər olsun ki, Avropa Şurası və bu qurumun təmsilçiləri təəccüblü qalırlar ki, bir ölkədə neçə məhbus siyahısı var. Oyun oynanıldığını artıq hər kəs yaxşı anlayır. Susaraq, lobbiçilik edərək, məktub yazaraq çalışmaq lazımdır. İnsanların, onların ailələrinin taleyini unutmaq olmaz".

Hüquq müdafiəçisi belə siyahıları əhəmiyyətsiz sayır: "Bu siyahılar Azərbaycan hökumətinə heç bir təsir etməyəcək. Bunu illərdir belə işlərlə məşğul olan hüquq müdafiəçisi kimi deyirəm. Əksinə uzun siyahılarla hamının yolu qapanır. Hətta azadlığa buraxılmalı olan insanların da qapıları bağlanır. Bu insanlar uğrunda biz işləyirik. Bu məsələni çalışırıq ki, ölkə daxilində həll edək. Məruzəçilər Avropa Şurası və digər beynəlxalq qurumlar sadəcə bizə yardımçı olurlar. Bu siyahıları verməklə nəyə nail olacaqlar? Bununla Azərbaycanı Avropa Şurasından uzaqlaşdıracaqlar? Bunu zaman göstərib ki, belə şey olmayıb. Ona görə də, belə şeylər etməklə, Avropa Şurasında Azərbaycanın adını ortalığa çıxarmaqla düzgün iş görülmür. Hər bir siyasi məhbusun adının arxasında onların taleləri durur. Bununla oynamaq olmaz. Bunu alver predimetinə çevirmək heç də onlara başucalığı gətirmir. Çalışmalıyıq ki, onlar azadlığa buraxılsınlar. Bunun üçün əlimizdən gələni edirik. Necə ki, uyğun yollarla mart ayında çoxsaylı siyasi məhbuslarımız azad olundu. Sizlərin belə siyahılar hazırlamaq öz işlərinizdir. Amma dəqiq siyahı verin ki, nəyəsə nail olasınız, məhbusların talelərinin sizləri necə narahat etdiyini göstərəsiniz. Xahiş edirik bizə yardımçı olun. Belə etməyin. AŞ PA məruzəçisi ilə görüşmək şan-şöhrət deyil. Məruzəçi ilə görüşmək iş deməkdir".

S.Qocamanlı "Gəncə işi" ilə bağlı olan məhbusların adlarının siyahılara salınmasına da təpki verdi: "Onların işləri ilə biz indi maraqlanırıq. Artıq çox adamla söhbət də etmişik. İşi gərək tam öyrənək ki, düzgün addımlar ata bilək. Bunları etmədən onların adlarını siyasi məhbus siyahısına salmaq doğru deyil. Bu günahsız olanların da azadlığa çıxma yollarını əngəlləyə bilər. Gəncə məhbuslarının hər birinin işi diqqətimizdədir. Bizim siyahıda nə qədər şəxsin yer aldığına gəlincə, hər halda nə yüzdür, nə də yüz əllidir. Bizi taleləri narahat edən insanların hər biri siyahıdadır. Ölkə daxilində onların uğrunda mübarizə aparacağıq. Bunlar siyasi partiya nümayəndələri, bloggerlər, inanclı insanlar, Nardaran hadisələrində həbs edilənlər və digərləridir. Adlar çəkmək istəmirəm. Çünki işimizə maneçilik yarana bilər".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Müxalifəti Rusiyadan uzaq salan səbəblər

**Azərbaycan müxalifəti uzun illərdir ki, ancaq Qərb dairələri ilə əməkdaşlığa üstünlük verirlər. Rəsmi strukturlarla yanaşı, daha çox Qərb dövlətlərinin müxalifət nümayəndələri ilə əməkdaşlıq edib, görüşə cəhdlər göstərirlər. Digər postsovet məkanlarından fərqli olaraq Azərbaycan müxalifəti Rusiya müxalifəti, siyasi-ictimai təsisatları ilə görüşə, əməkdaşlığa maraq göstərmir. Politoloqlar hesab edirlər ki, şimal qonşumuz kimi Rusiya ilə də əlaqələrin inkişafı lazımlıdır. Necə ki, iqtidar Rusiya ilə yüksək səviyyədə əlaqələr qurub, əməkdaşlıq edir, müxalifət də özünü regionun nəhəngi hesab edən Rusiyanın dairələri ilə milli maraqlar çərçivəsində əməkdaşlıq etməlidir.**

*Bəs müxalifət nə üçün bu cür əməkdaşlıqdan qaçır? Nə üçün illədir ki, Rusiyanı düşmən gözündə görürlər?*



**Əli Əliyev:** "Rusiyanın demokratik qüvvələri ilə də münasibətlərin qurulması zəruridir"



**Tural Abbaslı:** "Azərbaycan müxalifəti və dövləti öz maraqları haradadırsa, orada da olmalıdır"



**Xəzər Teyyublu:** "Fəal siyasi müxalifət Azərbaycanın nicat yolu, gələcəyimiz kimi həm də Qərbə inteqrasiyanı görür"

"Yeni Müsavat"a danışan **VİP sədri Əli Əliyev** hesab edir ki, burada fərqli səbəblər var: "Düşünürəm ki, bu, ilk növbədə demokratik dəyərlərə münasibətdən irəli gəlir. Rusiyanın bugünkü siyasi hakimiyyəti təəssüf ki, keçmiş postsovet ölkələri ilə bərabərhüquqlu dostluq münasibətləri deyil, şaqulu münasibətlər qurmağa üstünlük verirlər. Azərbaycan torpaqlarının işğal olunmasında Rusiyanın da müəyyən qədər rolu var. Ona görə də bəzi siyasi təşkilatlar daha çox Qərblə əməkdaşlıq etməyə üstünlük verirlər. Hesab edirəm ki, Rusiyanın demokratik qüvvələri ilə də münasibətlərin qurulması zəruridir".

**Ağ Partiya sədri Tural Abbaslı** bildirib ki, burada tarixi məsələlər də öz rolunu oynayır: "Müxalifətin Qərbə yönəlməsində xeyli faktorlar mövcuddur. Məsələn, inkişaf, tarixi, siyasi mühit faktorlarını qeyd edə bilərik. Azərbaycanda tarixdən gələn bir kompleks var ki, Rusiya hər zaman bizi işğal edən, əsarətdə saxlayan dövlət olub. Hesab edilir ki, onun yürütdüyü siyasi kursa meyl etmək, satqınlıq, dövlətə xəyanət kimi qiymətləndirilir. Bu, tarixdən gələn bir hissiyyatdır. İkincisi isə texnoloji, elmi inkişaf məsələsi də var. Çünki Qərb hər zaman texnologiya sahəsində Rusiyadan daha çox irəlidə olub. Təbii ki, insanlar inkişaf etmiş tərəfə daha çox meyllənirlər, nəinki, nisbətən inkişafdan geridə qalan dövlət olsun. Üçüncü amil isə dediyimiz kimi siyasidir. Məsələn, Qərb dövlətlərində demokratik dəyərlər, insan haqları, mətbuat azadlığı, sərbəst toplaşmaq və digər bu kimi hüquqlar daha geniş və yayğındır. Orada bu hüquqlar geniş yayılıb və insanlar da bundan istifadə edirlər. Rusiya isə daha çox avtoritar rejimə meylli bir siyasət yürüdür. Azərbaycan müxalifəti də bu siyasətin əleyhinə olduğu üçün Rusiyaya meyllənmir. Ancaq şəxsən düşüncəm budur ki, Azərbaycan müxalifəti hərtərəfli olmalıdır. Yəni, bəzi məsələlərdə Qərb və Amerika meylli siyasət yürütsə də, digər məsələlərdə də Rusiyanı, İranı və digər Azərbaycan siyasətində neqativ qəbul olunan xətti də nəzərdən keçirməlidir. Məsələn, heç kimə sirr deyil ki, Qarabağ amilində Rusiya məsələsi daha güclü faktordur. Ona görə də ən azı Qarabağ məsələsində Azərbaycan Rusiya məsələsini nəzərə almalıdır. Odur ki, Ağ Partiya olaraq bizim bir tezisimiz var: Bizim dövlət olaraq daimi hədəfimiz və istiqamətimiz yox, daimi maraqlarımız var. Ağ Partiya olaraq da dövlətin maraqları haranı şərt edirsə, o səmtə meylənmənin tərəfdarıyıq. Yəni Azərbaycan müxalifəti və dövləti öz maraqları haradadırsa, orada da olmalıdır".

**KXCP sədrinin müavini Xəzər Teyyublu** bildirib ki, müxalifətin belə davranışının səbəbi odur ki, hazırda siyasətdə olan partiyaların çoxu meydan hərəkatından çıxıblar: "Bu gün Azərbaycan müxalifətinin əsas bazası 1988-ci il meydan hərəkatından gəlmələrdir. 1989-cu ildə yaranan Xalq Cəbhəsinin şinelindən çıxan partiyalar bu gün Azərbaycan müxalifətindədir. Bu insanlar Azərbaycanın azadlığı, demokratiya uğrunda mübarizə aparıblar. Ən əsası da bu gün qeyd etdiyimiz müxalifət funksionerləri Avropaya, dünyaya inteqrasiyaya maraqlı olan şəxslərdir. O baxımdan Azərbaycandakı mövcud olan fəal siyasi müxalifət Azərbaycanın nicat yolu, gələcəyimiz kimi həm də Qərbə inteqrasiyanı görür. Müxalifətin Qərbyönümlü olması daha çox vacibdir, nəyinki, Rusiyaya meyllilik. Azərbaycan xalqı hesab edir ki, 70 il sovet totalitar rejimindən güclə azad olduqları halda, yenidən Rusiyaya meyl etmək olmaz. Müxalifət də eyni düşüncədədir. Ona görə də bu gün Rusiya ilə əməkdaşlığa deyil, Qərbə meyl etməyə üstünlük verir. Bu cür siyasi davranışı doğru hesab edirəm və mən də eyni fikirdəyəm".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 185 (7355) 7 sentyabr 2019

# "Əvvəlki futbolçular "peraşki" ilə hazırlaşırdılar, amma yaxşı oynayırdılar"

## Ağasəlim Mircavadov: "1994-cü ildən deyirəm ki, yığmada milli məşqçi olmalıdır"

**Azərbaycan millisi Avro-2020 seçmə mərhələsinin payız sınağına çıxır. Yığmamız sentyabrın 6-da Uelsin qonağı olub, (müsahibə görüşdən öncə alınıb- E.S) 9-da isə Xorvatiyanı Bakıda qəbul edəcək.**

**AFFA Məşqçilər Komitəsinin üzvü, "Şöhrət" ordenli, veteran mütəxəssis Ağasəlim Mircavadov**la söhbətimizdə Azərbaycan futbolunun bu günündən danışdıq.

Vaxtilə "Neftçi", "Şəmkir", "Qarabağ", "Xəzər-Lənkəran" klubları ilə çempion olmuş, yığmanın baş məşqçisi çalışmış, A.Mircavadovun "Yeni Müsavat"a müsahibəsini təqdim edirik:

***- Ağasəlim müəllim, qrupumuzdakı oyunlar haqda nə düşünürsüz?***

- Biz hamımız istəyirik ki, yığmamız qalib gəlsin, yaxşı çıxış eləsin. Yəni Azərbaycanda bunun tərsini arzulayan çətin ki, olsun. Amma ötən illə müqayisədə yığmamız ürəkaçan deyil. Bunu özünüz də görürsünüz. Həm oyunçu, həm oyun baxımdan... Qrupdakı rəqiblərimiz bizdən üstündürlər. Qəbul eləmək lazımdır ki, Xorvatiya, Uels, Slovakiya, Macarıstan zəif yığmalar deyil. Xorvatiya dünya ikincisi olub, digərləri Avropada ortabab komandalar sayılırlar, oyunçuları İngiltərə, Almaniya, İtaliya klublarında çıxış edirlər. Amma o demək deyil ki, taleyimizlə razılaşıb oturmalıyıq. Hər yığma ilə oynamaq, mübarizə aparmaq olar. İndi mövsüm yeni başlayıb, bizim oyunçular klublarımızdan gəliblər, 3 tur oynayıblar. Əslində, formada olmalıdırlar. Çünki birinci tur ağır olur. Ancaq növbəti turlarda ayaqları açılır. Unutmayaq ki, 4 klubumuz avro kubokların seçmə mərhələlərində oynayıblar, yəni mövsümün ilk oyununa çıxmırlar. Ona görə də millinin seçmə görüşlərdə pis və ya yaxşı çıxış etməsinə klublardakı hazırlıq təsir edəcək. Əvvəllər baş məşqçilər milli ilə 12-14 gün təlim məşq toplantısı keçirirdi, indiki baş məşqçi *(Nikola Yurçeviç - E.S.)* 5-6 gün məşq keçir. Bu da başadüşüləndir, klubların oyunları olub. Mən oyunu üstün tuturam, xalı yox. Biz nəticə haqda deyil, yaxşı oyunu fikirləşməliyik. Çünki yaxşı oyun olanda, xal da özü gəlir. İndi 2:1, yoxsa 5:0 uduzmağın fərqi yoxdur, nəticədə məğlubiyyətdir. Yığmanın oyunu olmalıdır ki, nəticəsi qələbə olsun. Mən sizə deyim ki, Robert Prosineçki *(millinin keçmiş xorvat baş məşqçisi - E.S.)* yaxşı idi, mənə elə gəlir ki, onda yığmamızla işləmək alınırdı. Ümumiyyətlə, problemlərimiz var. Bu problemlər özünü yığmada da göstərir. Bizə yaxşı mərkəz müdafiəçi, orta xətt oyunçusu və hücumçu lazımdır.

***-Sizcə, bu oyunçu kasadlığı çempionatda 8 klubun olmasından irəli gəlmir?***

- Oyunçular klublarda yetişir. Razıyam ki, 8 klub azdır. Əvvəl çox idi. Bu da var, digər problemlər də... Hamısı üst-üstə yığılır. Bizə keyfiyyətli oyunçu lazımdır. Milliyə xarici gələndə də baxırsan ki, maliyyəyə görə gəlirlər. Amma milli vətənimizin komandasıdır, Azərbaycan deməkdir, biz qələbə arzu eləməliyik.

***- Millinin bu oyunu ilə qrupda yenə axırdan birinci olacağımızı gözləyirsiniz?***

- Qrup sonuncusu olmamaq üçün sadə məntiq var - oyunu udmalısan. Qrupda bir oyun heç olmasa qazanmalıyıq. İndi işimiz ağırdır. Bilirsiniz ki, ayın 9-da Xorvatiya Bakıya gəlir, dünya kubokunun finalçısıdır. Sadəcə, öz oyunumuzu tətbiq etməliyik.

Biz Xorvatiyanın adına baxsaq, onda qorxaq olarıq, ürək lazımdır, meydanda ürəyi qoymaq lazımdır. Odur ki, uşaqlara inanaq, ümid edək ki, milli qrup oyunlarında qalib gələcək.

***- Ağasəlim müəllim, əsas fikir budur ki, millinin baş məşqçisi milli adam olmalıdır...***

- Mən bu sözü 1994-cü ildən deyirəm ki, yığmada milli məşqçilər olmalıdırlar. Ancaq nədənsə üstünlük xaricilərə verdilər. Deyim ki, Prosineçkinin işi xoşuma gəlirdi. Onun psixoloji vəziyyəti başqaydı. Mən onun məşqlərində olmuşam, baxmışam, oyunçunu yaxşı kökləyir. Zəif oyunçu onun psixoloji hərəkətindən sonra özünü fərqli hiss edir. Amma ümumilikdə yerli məşqçilər olmalıdır. Bizdə orta yaşlı məşqçilər yoxdur, bizi də qırağa qoyublar, cavan məşqçilər isə klublarda öz sözünü deyə bilmirlər.

***- Sizə elə gəlmir ki, Yurçeviç bu mövsümü yola vermək üçün gətirilib?***

- Mənim indi belə danışmağım düz çıxmaz. Hər bir məşqçiyə hörmətim var, Yurçeviçlə bağlı maraqlanmıram. Yola vermək azərbaycanlısayağı deyilir. Amma belə olmamalıdır da, yola verilməməlidir... *(gülür - E.S.)* Biz qrupda 2 və ya 3-cü olmaq istəyiriksə, daxili gücləndirməliyik, klubların sayı artmalıdır, komandalar məşqçilərin savadının artırılması üçün iş görməlidir.

Düzdür, AFFA çox böyük işlər həyata keçirir, məşqçiləri oxudur, lisenziya verir. Bütün bunlar çox əhəmiyyətlidir. Amma yaşlı məşqçilərdən istifadə edilməlidir. Çünki onların təcrübəsi başqadır. İndi bizi xoşları gələr çağırarlar, gəlməz çağırmazlar...

***- Futbol izləyənlərin çoxu deyir ki, Qurban Qurbanovdan sonra milliyə kim gətirilsə, heç bir nəticəsi olmayacaq. Siz bu fikri bölüşürsünüz?***

- Qurban Qurbanov "Qarabağ"da çox işlər görür. Son illərdə əldə etdiyi nəticələr də göz qabağındadır. Stabil komandadır, uşaqlar təcrübə toplayıblar. Amma Qurbanın işi yığmada nədənsə alınmadı. Belə uğursuzluq hər məşqçidə olur.

Amma o fikri deyənlər də, biz də gərək bədbinliyə qapılmayaq. Fikirləşməyək ki, bundan sonra yığmada heç nə düzəlməyəcək.

Bu gün qarşıdan duran əsas məsələ işgüzarlıq, daha çox çalışmaq, çatışmazlıqları aradan qaldırmaq olmalıdır. Yenə deyirəm ki, əsas iş klubların üzərindədir və çempionatda komandaların sayı artırılmalıdır, rəqabət çoxalmalıdır.



"Bizi qırağa qoyublar, cavan məşqçilər isə klublarda öz sözünü deyə bilmirlər"

***- Vaxtilə Zaur Tağızadə, Vidadi Rzayev, Mahmud Qurbanov, Vadim Vasilyev və daha kimlər varıydı. Sizcə, millinin 20 il qabaqkı heyəti daha yaxşıdır, yoxsa bu günkü?***

- Əvvəlkilər yaxşı oynayırdılar. Onlar "peraşki" ilə oyunlara hazırlaşırdılar. Vaqif Sadıqov və Əsgər Abdullayev birinci yığmada işləyirdilər, orada Samir Əliyev, Emin Quliyev, Zaur Tağızadə və başqa yaxşı uşaqlar var idi. Sonra rəhmətlik Əhməd Ələsgərov yığmanın başına gəldi, o uşaqlardan 6-7 oyunçunu yığmaya cəlb elədi. Bu gün əsas problem odur ki, yığmanın 16 və 17 yaşlılarının əvəzedici heyəti olmalıdır. Bu gün yığmada olan uşaqlar da çalışırlar, çox iş görürlər. Ancaq onlar üstün, fədakar, bilikli idilər. Onlar futbolla yaşayırdılar. Biz AFFA-nın Məşqçilər Komitəsi olaraq klublara gedirik, görürük ki, işləyirlər. Onlara daha çox öyrətmək lazımdır. Futbolçu klubda öyrənir, sən yığmada ona nə öyrədəcəksən? Yığma gec-gec toplanır, klublarda isə hər gün məşq toplantıları olur. Məsələn, "Qəbələ"nin akademiyası var. Çox yüksək səviyyədə iş qurulub. Ona görə klublar keyfiyyətli oyunçu yetişdirməlidirlər. Mənim yadımdadır, sovet vaxtı seminarlar təşkil edilirdi. Bu seminarlar ildə 4-5 dəfə keçirilirdi, biz orada çoxlu biliklər öyrənirdik. Sonra 1980-cı ildə akademiyada oxudum. Yəni, deyilməli problemlər çoxdur, amma işləmək lazımdır.

***- Son sualım, "Qarabağ"ın Avroliqanın qrupunda şanslarını necə qiymətləndirirsiniz?***

- "Qarabağ"ın Avropa təcrübəsi var. Onların öz oyun üslubu formalaşıb. Mən "Sevilya"nı çıxmaq şərti ilə "Qarabağ"ın digərlərindən üstün olduğunu düşünürəm.

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**

# Narkotik vasitələrin qanuni dövriyyəsi varmı - maraqlı faktlar

## **Hüquqşünas:** "Çoxları bilməsə də, Azərbaycanda narkotik vasitələrin qanuni dövriyyəsi mövcuddur"



Əsabəli Mustafayev

**Ölkədə tez-tez hüquq-mühafizə orqanlarının yaydığı rəsmi məlumatlarda tez-tez bu ifadələrə də rast gəlirik - "...şəxs və ya şəxslər narkotiklərin qeyri-qanuni dövriyyəsi ilə məşğul olduqlarına görə həbs edilib". Maraqlıdır, ümumiyyətlə narkotiklərin qanuni dövriyyəsi varmı və onunla kim, necə məşğul ola bilər?**

Məlum olduğu kimi qonşu dövlətlərdə, Qərb ölkələrində narkotikin bəzi növlərindən istifadə leqal olsa da, Azərbaycanda bu, belə deyil. Məsələn, bu gün ABŞ, Argentina, Avstraliya, Belçika, Braziliya, Kamboca, Kolumbiya, Kosta-Rika, Xorvatiya, Çexiya, Ekvador, Estoniya, Fransa, Hindistan, İran, Pakistan, Şimali Koreya, Uruqvay, İspaniya kimi dünyanın müxtəlif yerlərində çətənənin istehsalı və istehlakına müxtəlif ölçülərdə icazə verilir.

Bəs böyük həcmdə, istehlak miqdarından artıq narkotikin qanuni dövriyyəsi varmı? Dəqiqləşdirməmiz zamanı bəlli oldu ki, qanunlarımıza görə Azərbaycanda narkotikin qanuni dövriyyəsi mövcuddur.

"Yeni Müsavat"a danışan **hüquqşünas Əsabəli Mustafayev** bildirib ki, narkotiklərin qanuni dövriyyəsi dövlətin müstəsna səlahiyyətindədir:

"Məsələn, dərmanların hazırlanması üçün narkotiklərin qanunu gətirilməsindən istifadə olunur. Məlum olduğu kimi, bir çox psixotrop dərman vasitələrinin tərkibində narkotik vasitələrdən istifadə edilir. Bundan başqa da hansısa məhsulun hazırlanmasında narkotik vasitədən də istifadə edilə bilər. Bütün bunlar isə qanunda göstərilib. Məsələn, səhiyyə idarəsidirsə, qanunda göstərilən qaydalara əməl etməklə bu maddələrdən istifadə edirlər. Hansı ki, dövlət tərəfindən onlara səlahiyyət verilib ki, narkotik vasitələrin dövriyyəsi ilə məşğul olsunlar. Eyni zamanda istehlak miqdarı səviyyəsi də mövcuddur. Qanunla müəyyən miqdarda narkotik vasitənin istifadəsinə icazə verilir. İnsanlar var ki, narkotik təsirli dərman vasitələrindən istifadə edirlər. Buna qanun icazə verir. O şərtlə ki, həkimin resepti olsun. Onun da miqdarı mövcuddur. Bu miqdarla bağlı Nazirlər Kabinetinin xüsusi qərarı mövcuddur. Qərarda göstərilir ki, hansı psixotrop maddədə narkotik vasitənin miqdarı göstəriləndən artıqdırsa bu zaman o, istehlak miqdarından da artıq sayılır və məsuliyyət yaradır. Əgər miqdar çox deyilsə İnzibati Xətalar Məcəlləsi, çoxdursa Cinayət Məcəlləsi ilə məsuliyyət yaradır. İnsanlar bəzən deyirlər ki, narkotik vasitələrin dövriyyəsinin hamısı qeyri-qanunidir. Bilmirlər ki, qanuni dövriyyə də var. Əslində isə belə deyil. Qanuni dövriyyə mövcuddur və bu, yuxarıda qeyd etdiyimiz şərtlər daxilində həyata keçirilir. Müəyyən məhsulların hazırlanmasında istifadə olunan narkotik vasitələri dövlət digər dövlətlərdən alır. Qanun da onlara lazımı səlahiyyəti verib".

Onu da qeyd edək ki, narkotik və ağrıkəsici maddələr üç yerə bölünür. Respublika ərazisində dövriyyəsi qadağan edilən, dövriyyəsi məhdudlaşdırılan və dövriyyəsinə icazə verilən narkotik və kəskin ağrı kəsici maddələr. Birinci bölgüyə aid olan istənilən narkotik və psixotrop maddələrin, dərmanların respublika ərazisində idxalı və satışı qadağandır. Dövriyyəsi məhdudlaşdırılan maddələrin isə dövriyyəsinə Nazirlər Kabinetinin sərəncamına əsasən yalnız dövlət stasionar müəssisələrində istifadəsinə icazə verilir. Dövriyyəsi nəzərdə tutulan maddələrin isə pərakəndə satışına icazə verilir, o halda ki Səhiyyə Nazirliyinin rəyi alınsın və daxili İşlər Nazirliyi mülki icazə versin.

❑ **Əli RƏİS,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 185 (7355) 7 sentyabr 2019

# Sosial şəbəkələrin yaratdığı yuxusuzluq sindromu - psixoloqdan xəbərdarlıq

## Fərqanə Mehmanqızı: "İnsanlar gecə və axşam saatlarında sosial şəbəkədə daha çox vaxt keçirir və bu da yuxu pozğunluğuna səbəb olur"

**Əgər yata bilmirsinizsə, çoxdandır şirin yuxuya həsrətsinizsə, maqniy elementini yoxladın. Bu xəbəri saglamolun.az saytı yazıb.**

Orqanizmdə maqniy elementi 300 biokimyəvi reaksiyada iştirak edir. Onun 10 əlamətindən biri də yuxu pozğunluğudur.

Amma yeganə səbəb deyil. Bu gün insanların iş rejimi, gündəlik məişət həyatında qarşılaşdıqları, stress, yorğunluq, əsəb, daxili sıxıntılar, narahatlıq və s. hallar insanlarda yuxu sisteminin dağılmasına, yuxusuzluq sindromuna səbəb olur.

Kiçik bir soğru keçirmək kifayətdir ki, Azərbaycanda 10 adamdan 7 nəfərinin yuxu pozğunluğundan əziyyət çəkdiyinə əmin olasan.

**Psixoloq Fərqanə Mehmanqızı** "Yeni Müsavat"a bildirdi ki, yuxusuzluq sindromu həm nevroloji, həm psixoloji aspektdən araşdırılmalıdır.

**Onun sözlərinə görə, indiki zəmanədə yuxusuzluğun əsas amili vaxtın sürətlə keçməsidir**: "Əvvəl deyilirdi ki, yuxusuzluğu stress yaradır. Bu faktordan imtina etmirik. Amma bu gün stressin yaranması zamanın sürətlə keçməsindən irəli gəlir. Nəzərə almaq lazımdır ki, internet dövrüdür, əksəriyyət sosial şəbəkədədir, hər kəsin əlində planşet, mobil telefon var və insanlar həyatını sosial şəbəkəyə bağlayırlar.



Onlar sanki dördbucaq bir qutunun içindədirlər və oradan dünyaya baxırlar. Onların həyata baxışı yalnız telefondandır və bu da asılılıq yaradır və gərəksiz stressə gətirib çıxarır.

İnsanlar fiziki və psixoloji olaraq sosial şəbəkələrin əsirinə çevriliblər. Hətta telefondan istifadə qadağası olan iş yerlərində çalışan şəxslər daha aqressiya nümayiş etdirirlər. Onlar iş saatı qurtaran kimi telefonu götürürlər və ondan ayrılmırlar. Çünki özlərini real həyatda detil, orada tapırlar. Yuxu isə real həyatdır".

**Psixoloqun fikrincə, yuxu insanları internetdən ayırır**: "Diqqət edin, insanlar özünə ziyan vurub gecələr yuxusuz qalırlar, internetə qoşulurlar. Sosial şəbəkələrdə aktivliyin ən pik vaxtı axşamlar olur. İnternetə görə yuxularına haram qatırlar. Sonra şikayətlənirlər ki, yata bilmirik. Mənim yanıma gələn pasientlər arasında beləleri ilə rastlaşmışam. Deyir ki, yuxuya gedə bilmirəm. Soruşuram, niyə? Cavab verir ki, əlimdə telefonla oynayıran. Əgər insan yatağında kitab oxusa yuxusu qaçmaz, tez yatar.

Amma sosial şəbəkə yuxusuzluq yaradır. Bundan sonra aqressiya, həssaslıq, stress gəlir. Yəni əsas səbəb sosial şəbəkədir. Amma birmənalı olaraq yalnız bununla əlaqələndirmək də olmaz.

Yaşlı insanlar var ki, internetə qoşulmurlar, amma yuxu pozğunluğundan əziyyət çəkirlər. Bunun da müxtəlif səbəbləri olur".

İnternet portallarında gedən məlumatlarda isə deyilir ki, mütəmadi olaraq yuxu pozğunluğundan əziyyət çəkən insanların beyni 7 il tez qocalır.

Yuxusuzluq insanı ruhi xəstəliyə aparan ən rahat və qısa yoldur. Buna görə də yuxusuzluq sindromunu tez bir zamanda da yox etmək lazımdır.

Yuxusuz insan aqressiv olur, düzgün qərarlar qəbul edə bilmir, yaddaşı zəifləyir. Həmçinin onun nəfəs yollarında problemlər yaranır.

Yuxusuzluq orqanizmdə bir çox xəstəliklərin əmələ gəlməsinə səbəb olur. Qanda oksigen çatışmazlığı, dəyişikliklər meydana gəlir. Yuxusuzluq zamanı həmçinin ürək, ağciyər və hormonal xəstəliklər də özünü göstərir.

Dünyada hər on insandan beşi yuxusuzluğun müxtəlif növlərindən əziyyət çəkir. Alimlərin araşdırmaları nəticəsində məlum olub ki, yuxusuzluq zamanı insanda müxtəlif xəstəliklər əmələ gəlir.

Mütəmadi şəkildə 6 saatdan az yatmaq bir müddətdən sonra qandakı şəkərin miqdarını sürətlə artırır. Şəkərli diabetin yaranmasına səbəb bədəndəki insulinin hüceyrələrə nəqli zamanı yaranan pozğunluq nəticəsində qlükozanın qanda yığılması və bu zaman mədəaltı vəzin normadan artıq insulin ifraz etməsidir.

İnsulini normada saxlayansa yuxudur. Yuxusuzluq həmçinin cinsi pozğunluğa və astma xəstəliyinin yaranmasına gətirib çıxarır.

Yuxusuzluğun yaratdığı digər bir fəsadsa xərçəng xəstəliyidir. Yuxu pozğunluğuna qarşı tədbir görülməzsə, bu, ölümlə nəticələnə bilər. Alimlərin qənaətinə görə, yuxusuzluq özünüöldürmə həddinə belə gətirib çıxarır.

Yuxusuzluq gənclər arasında daha çox yayılıb. Bu hal çox təhlükəlidir. Adətən orqanizmi sağlam olan gənc yuxuya meyilli olur.

Düzgün qidalanmayan, havasız şəraitdə çox olan gənclərdə gepaksiya əlamətləri yaranır. Bu da yuxusuzluğa gətirib çıxarır.

Məktəbli uşaqlarda və gənclərdə yuxusuzluq qıcolma sindromu olmadan gizli gedən epilepsiya xəstəliyinin əlaməti ola bilər.

Yuxusuzluq halları yaşlılarda da çox olur. Bu, beyin damarlarının aterosklerozu və atrofiyasıdır. İnsan ayaqüstə yatır, yuxulu olur, amma yatağına girəndə yata bilmir. Yaşlılarda yuxusuzluğun səbəbi bir də qariciyər xəstəlikləridir.

**Əgər insan 1 həftə yuxu yata bilmirsə, o, 1 həftədən sonra tam ruhi xəstə olur. Yuxusuzluq zamanı beyində oksigen çatışmazlığı baş verir. Beyində oksigen çatışmazlığının ilkin əlaməti vaxtlı-vaxtsız əsnəməkdir. Beyində qan dövranı o qədər kasadlaşır ki, beyin maddələr mübadiləsində iştirak etmir.**

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

# "Papanin"də metro stansiyasının inşası illərdir bitmir - səbəb

## Bəxtiyar Məmmədov: "Artıq əsas işlər geridə qalıb"
## Əzim Məsimov: "Texnologiya imkan verir ki, mühəndis tədbirləri nəticəsində bu işləri qaydasında aparasan"

**Nəsimi rayonu, Ceyhun Səlimov küçəsində, "Papanin" kimi tanınan ərazidə illərdir tikilməkdə olan metrostansiyanın inşası hələ də başa çatmayıb. Stansiyanın tikintisi səbəbindən ərazidə avtomobillərin hərəkətinə maneə yaranıb. Bu yol şəhərin əsas yollarından biridir, bu baxımdan həmin küçənin uzun zamandır bağlı saxlanılması problem yaradır. Bundan əlavə əraziyə yaxın yerdə hərbi hospital yerləşir. Ekspertlər bildirirlər ki, hər hansı bir əsgəri yaralandığı, zədələndiyi, xəstələndiyi zaman bu hospitala gətirən maşın xeyli yol fırlanmalıdır. Bu isə təcili yardım üçün böyük maneə deməkdir.**



*Bəs metro stansiyasının tikintisi nə zaman yekunlaşır?*

"Yeni Müsavat"a danışan **"Bakı Metropoliteni" QSC-nin mətbuat xidmətinin rəhbəri Bəxtiyar Məmmədov** metro tikintisinin təmirdən və digər işlərdən fərqi var: "Tikintidə mərhələlər fərqli qaydada olur. Mart ayında açıqlama vermişdik ki, B-3(şərti ad) stansiyasına qədər olan tunellərə müasir qaydada yolun çəkilməsi başa çatmaq üzrədir. "Memar Əcəmi" böyük stansiyası arasında yol infrastrukturunun qurulması işləri başa çatıb. Hazırda digər infrastrukturunun qurulması istiqamətində də mərhələli şəkildə iş gedir. Qeyd edim ki, Ceyhun Səlimov küçəsi, Hərbi hospitalın qarşısında, "Papanin" adlanan ərazidə tikintisi davam edən stansiyanın açılışı 2020-ci ilin sonları üçün nəzərdə tutulub. Əsas işlər başa çatdırılıb. Digər işlər də plan üzrə aparılır. Sadəcə olaraq Bakının torpağı elədir ki, konkret açılış tarixi söyləmək olmur. Ona görə də biz 2020-ci ilin sonunu nəzərdə tutmuşuq".

Rəsmi məlumata görə, stansiyada 3 lift və 17 müasir tipli eskalator quraşdırılacaq.

Bakı Metropoliteninin hazırda 25 stansiyası, 1 elektrik deposu var. "Bakı Metropoliteni Xətlərinin Konseptual İnkişaf Sxemi"nə əsasən gələcəkdə stansiya sayının 76-ya, elektrik deposunun isə 6-ya çatdırılması nəzərdə tutulub. Perspektiv plana əsasən, ümumi uzunluğu 28,5 km olacaq mövcud Qırmızı xətt Badamdar qəsəbəsindən başlayaraq Zığ qəsəbəsinədək uzanacaq. 19 stansiyadan ibarət olacaq xəttin hazırda 13 stansiyası və 1 elektrik deposu istismardadır. Layihədə "İçərişəhər" stansiyasından sonra 4, "Həzi Aslanov" stansiyasından sonra 2 stansiyanın inşası nəzərdə tutulub. Ümumi uzunluğu 41,8 km olacaq Yaşıl xətt Xətai, Nəsimi, Yasamal, Binəqədi, Nərimanov, Nizami, Sabunçu və Suraxanı rayonlarını əhatə edəcək. Perspektiv inkişaf planına uyğun olaraq, gələcəkdə bu xətt üzrə Bakı metrosunda ilk dəfə qatarların dairəvi hərəkəti təşkil olunacaq. 23 stansiyası olacaq bu xəttin hazırda 10 stansiyası istismardadır. Xəttin bir elektrik deposu hazırda inşa olunur, daha biri isə layihələndirmə mərhələsindədir.

Perspektiv inkişaf planına uyğun olaraq, "28 May" stansiyasının layihəsini dəqiqləşdirərək yenidən qurulmasının başa çatdırılması ilə mövcud Qırmızı və Yaşıl xətlərdə qatarların sərbəst hərəkətinin təşkili nəzərdə tutulub. Uzunluğu 18,5 km olacaq yeni Bənövşəyi xətt Xocahəsən qəsəbəsindən başlayaraq Qaraçuxur qəsəbəsinədək uzanacaq. Metropolitenin perspektiv inkişaf planının birinci prioritet istiqamətinə daxil olan Bənövşəyi xəttin "Avtovağzal" və "Memar Əcəmi" stansiyaları 2016-cı il aprel ayının 19-da sərnişinlərin istifadəsinə verilib. Perspektiv inkişaf planına uyğun olaraq bu xətt üzrə 6-sı keçid olmaqla, 10 yeni stansiya inşa olunmalıdır. Hazırda Xocahəsən qəsəbəsində Bənövşəyi xəttin deposunun tikintisi davam edir.

Uzunluğu 16,3 km olacaq Mavi xətt Yeni Yasamal yaşayış sahəsindən başlayaraq Sabunçu rayonunun Bakıxanov qəsəbəsinə qədər uzanacaq. Xətt üzrə 7-si keçid olmaqla, 11 stansiya və 1 elektrik deposu tikiləcək. Uzunluğu 14,7 km olacaq Sarı xətt Binəqədi rayonundan başlayaraq Səbayel rayonunun Bayıl qəsəbəsinədək uzanan xətt olacaq. Bu xətdə 5-i keçid olmaqla, 11 stansiya və 1 elektrik deposu inşa olunacaq.

Bakının torpağı metro çəkilişləri üçün niyə çətindir?

"Yeni Müsavat"a danışan **ekspert Əzim Məsimov** bildirib ki, Bakının üstü nə qədər qəlizdirsə, altı da bir o qədər mürəkkəbdir: "Bura yarımadadır və ona görə də yeraltı su axınları mövcuddur. Elə yer var ki, həmin ərazidə yeraltı su axınları sürətlidir. Elə yer də var ki, əksinədir. Metro tikintisində də belə problemlər ortaya çıxır. Ona görə də texnologiyalar tətbiq edilir, su axınları dondurulur. Yalnız bundan sonra işlər görülür. Vaxtilə "Nizami "stansiyasının da açılışı ərəfəsində "Qanlı göl"dən su axını gələrək, tunelə dolmuşdu. Bu səbəbdən açılış 2 ilə qədər yubadıldı. Burada da elə proseslər ola bilər. Ancaq texnologiyalar da var ki, onların bütün bunların qarşısını almaq mümkündür. Texnologiya imkan verir ki, mühəndis tədbirləri nəticəsində bu işləri qaydasında aparasan. Metro tikintisi hələ ki, ləng gedir. Bunun da səbəbi yəqin ki, geoloji vəziyyətin çətinliyi ilə bağlıdır. Düşünmürəm ki, orada qeyri-peşəkar işlər aparılır. Məncə peşəkar olmayan insanlar panel, metro işlərində işləyə bilməzlər. Ona görə də düşünürəm ki, onların peşəkarlığı yüksək səviyyədədir. Ola bilər ki, texniki məsələlərin həlli çox vaxt tələb edir. Buna görə də stansiyaların tikilməsi vaxtı uzadılır. Hökumətin metro tikintisi ilə bağlı proqramı vardı və işlər də sürətlənmişdi. Ancaq sonrada bu işlər zəiflədi. Fransızlar və eləcə də başqa xarici ölkə şirkətləri Bakıda metro tikintisinə maraq göstərirdilər. İndi bu cür işləri aparan çox sürətli aqreqatlar var. Məsələn, Moskvada bu işləri çox sürətlə aparırlar. Orada görünür ki, torpaq, qum şəraiti daha əlverişlidir. Bakıda doğrudan da geoloji vəziyyət çox mürəkkəbdir. Buna uyğun olaraq da texnologiya tətbiq edilir".

❑ **Əli RAİS, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 185 (7355) 7 sentyabr 2019

# Sürücü qəzaya uğrayan maşını yolun ortasında saxlamalıdırmı...

## Bakıda tıxacların daha bir səbəbi də avtoqəzalar zamanı sürücülərin davranışlarıdır - qanun nə deyir?

**Bakı tıxacların hər gün cəngində olan bir şəhərdir. Paytaxtın elə bir günü və ya saatı yoxdur ki, hansısa prospektdə və ya magistral yolda nəqliyyatın sıxlığı, tıxaclar müşahidə olunmasın.**

Ən azı günün səhər və axşam saatlarında, pik vaxtlarda Bakı tıxaclara təslim olur. Bəzən bu tıxaclar o qədər uzanır ki, insanlar mənzil başına bir rayona gedib çatmaqdan daha gec yetişirlər.

Və illah da tıxac vaxtı şəhərin hansısa yolunda bir avtomobil qəzası ola, o zaman bu məngənədən çıxmaq müşkülə çevrilir. Bir çox hallarda isə elə qəzaların özü tıxacların yaranmasına gətirib çıxarır.

Qəza törətmiş və zərər çəkmiş tərəflərin avtomobilləri yolun tən ortasında dayanır, yol polis əməkdaşlarını, yaxud sığorta şirkətinin nümayəndəsini gözləyirlər.

Bu da xeyli vaxt alır, tıxac yaranır, hətta DYP əməkdaşı və ya sığortanın işçisi hadisə yerinə gəlib çıxa bilmir. Məsələn, bu cür hallar Bakının Ziya Bünyadov prospektində tez-tez yaşanır.

Lakin problemin başqa rakursu da var: bəzən qəza törədən sürücü zərər çəkən tərəfə təklif edir ki, bütün xərcləri öhdəsinə götürməyə hazırdır, hətta maşının əzilən yerlərinin foto və videosunu çəkib sübut kimi özündə saxlaya bilər. Bu günlərdə belə hadisə olub.

Günahkar sürücü bütün ziyanı qarşılamağa söz verib ki, avtomobilləri ərazidən çəksinlər, uzun-uzadı tıxac yaranmasın. Amma zərər çəkən razılaşmayıb və uzun müddət nəqliyyatın hərəkəti iflic olub.

*Bəs, bu məsələ necə tənzimlənməlidir? Sürücülər dövlət nümayəndəsi gələnə qədər video və foto çəkilişlə məsələni yoluna qoya bilərmi?*

**Nəqliyyat eksperti Azər Allahverənov**un "Yeni Müsavat"a bildirdiyinə görə, bu məsələ bir neçə dəfə gündəmə gəlib, təkliflər irəli sürülüb: "Belə fikirlər səslənib ki, sığorta gəlmədən zərərçəkmiş foto və video faktı Dövlət Yol Polisinə təqdim eləsin. Müvafiq dairələrdə də müzakirələr aparılıb. Amma hələ ki heç bir dəyişiklik olmayıb. Hazırda kasko sığorta növü var, onlar fotonu sübut kimi qəbul edir. Ancaq bu, hamıya şamil edilmir. Kasko sığorta istisnalar nəzərdə tutur. Ona görə də tıxac olsa belə sığorta şirkətinin nümayəndəsi hadisə yerinə gəlməlidir".

**A.Allahverənov qeyd etdi ki, DYP əməkdaşı hadisə yerinə çata, çəkilişi aparıb sığortaya təqdim edə bilər:** "Çünki fiziki şəxs deyil, dövlət rəsmisidir. Bəzi məqamlar olur ki, zərər vuran tərəf xərci boynuna götürür, ziyanı qarşılamağa söz verir. Amma bunun tərəfdarı deyiləm. Çünki təcrübə göstərir ki, centlmen razılaşması özünü doğrultmur. Ona görə də hadisə olubsa, dövləti təmsil edən nümayəndə gəlməlidir. Əslində, yaxşı olar ki, həm yol polisi, həm sığorta əməkdaşı olsun. Yeni məsələ hüquqi müstəvidə öz həllini tapmalıdır. Əks halda söz verən tərəf boyun qaçırır, iş məhkəməyə qədər gedib çıxa bilir".

**Ekspertin sözlərinə görə, Bakının əksər yollarında müşahidə kameraları var:** "Yolların böyük hissəsi kameralar altındadır. İstənilən hadisə kameraya düşür. Hər yerdə kamera olmasa da, tıxacların baş verdiyi yolların hamısında kamera var. Hətta qəsəbə arasında hadisə varsa da, orada nəqliyyatın hərəkəti intensiv deyil, qəza tıxaca səbəb olmur. Ona görə əsas yollarda baş verən qəza ilə bağlı müşahidə kameralarına müraciət etmək olar. Üstəlik, internet, texnologiyaların inkişaf etdiyi şəraitdə şəxsi telefonla videonu çəkmək olar. Amma kim zəmanət verə bilər ki, elə bu texniki tərrəqidən istifadə edən şəxs həmin foto və videonu montaj etməyəcək? Bu da şübhələrin yaranmasına gətirib çıxara, faktların saxtalaşdırılmasına səbəb ola bilər. Ümumilikdə, bu nüanslar mübahisə yaradacaq. Çünki sürücü deyə bilər ki, itdən yayınmaq üçün məcburiyyət qarşısında hadisə törədib. Amma həmin iti kamerada göstərmək mümkün olmaya bilər və yaxud video çəkiliş keyfiyyətli olmaya bilər. Ona görə DYP və ya sığorta şirkətinin orada olması vacibdir".



Avtostop.az saytında isə bu mövzuda çox maraqlı bir məqama toxunublar. Sayt yazır ki, əgər yol-nəqliyyat hadisəsi nəticəsində heç kim xəsarət almayıbsa, maddi zərər cüzidirsə, nəqliyyat vasitələrində, onların hərəkət etməsinə mane ola biləcək nasazlıq yoxdursa və yol-nəqliyyat hadisəsini törədənlər hadisənin baş verdiyi şəraiti qiymətləndirməkdə razılığa gələrlərsə, hadisənin sxemini tərtib edib imzaladıqdan sonra, hadisəni müəyyən olunmuş qaydada sənədləşdirmək üçün DYP-ə gəlməlidirlər.

Sığorta dili ilə desək, 1000 manat civarında baş verən hadisələr də, hətta Forma4-ə belə ehtiyac yoxdur. Sadəcə hadisə baş verəndə DYP-ə məlumat verib, sonra idarəyə gedin, saatlarla başqa hərəkət iştirakçılarına maneə yaratmayın. DYP-ə məlumat verdikdən sonra, heç kim sizi hadisə yerini tərk etməkdə ittiham edə bilməz.

**Amma sığorta əməkdaşları daim bir söz deyir: Sən avtomobilin yerini dəyişdirdiyinə görə sənə sığorta ödənişi düşmür. Qanuna baxmaq lazımdır:** "Yol hərəkəti haqqında" Qanun 37-ci maddə, IV bənd: başqa nəqliyyat vasitələrinin hərəkəti qeyri- mümkün olduqda, yolun hərəkət hissəsini boşaltmalıdır.

Əgər siz hadisə yerindəsinizsə və sizin smartfonunuz varsa, dərhal kameranı açıb hadisənin bütün rakurslardan şəklini çəkin və daha sonra yolu boşaldın.

Sayt qeyd edir ki, DYP inspektoru və sığortaçı bu şəkilləri qəbul etməyə borcludur. Lakin DYP ilə az halda, sığortaçı ilə isə çox böyük problem yaşaya bilərsiniz.

Deməli, hadisə zamanı siz hərəkətə mane olmamaq üçün şəkilləri çəkdikdən sonra avtomobili oradan kənarlaşdırırsınızsa və bu zaman hadisə baş verdiyi an dəymiş zərər eyni cür qalırsa, o zaman sığorta sizə heç nə deyə bilməz.

Üstəgəl hadisə zamanı DYP-nin çəkdiyi sxem, sizin lentə aldığınız foto və video avtomobili qiymətləndirməyə imkan verir.

Sayt sonda bəyan edir ki, qəza baş verəndə ağır fəsadlar yoxdursa, günahkar bəllidirsə, tıxac yaratmayın şəklinizi, videonuzu çəkib yolu boşaldın.

Ona görə, DYP-ə gedib ərizə yazdıqdan sonra günahkara yazılmış protokol, zərər çəkmiş şəxsə ödəniş üçün yetərli olacaq. Forma 4 lazım olmadığına görə, sığorta şirkəti 7 gün ərzində ödəniş etməlidir.

Bütün sənədlər təqdim edildikdən sonra, 7 gün ərzində ödəniş edilməzsə, hər günə görə 0.01 faiz dəbbə pulu hesablanır. Yolda ehtiyatlı olun və xırda qızalar zamanı yolu boş yerə iflic etməyin.

**❑ Emil SALAMOĞLU,
"Yeni Müsavat"**

# Həbsdəki dünya çempionunun vəkili danışdı

## Ceyhun Yusifov: "Zaurun bu qətldə iştirak etməsi ona atılan şər-böhtandan başqa bir şey deyil"

**Binəqədidəki qəddar qətlə görə həbsə alınan dünya çempionu Zaur Yusifovun ev dustaqlığına buraxılacağı haqda yazmışdıq. Dustağın vəkili Ceyhun Yusifov "Yeni Müsavat"la əlaqə saxlayaraq həmin yazıda yer alan fikirlərlə razılaşmadığını qeyd edib. Vəkilin sözlərinə görə, törədilən cinayət hadisəsində Zaur Yusifovun heç bir günahı yoxdur: "Hadisə zamanı Zaur Yusifovun atası tərəfləri aralayıb və qolundan bıçaq xəsarəti alıb.**

Ona görə də qanı axa-axa evə gedib. Bu zaman evdə olan Zaur Yusifov çölə çıxıb. Nəticədə həmin hadisənin baş verdiyini görüb. Zaur Yusifovun hadisənin baş verməsində heç bir formada iştirakı yoxdur. Zaur Yusifovun bu qətldə iştirak etməsi ona atılan şər-böhtandan başqa bir şey deyil. Bunu istintaq da, zərərçəkənlər də yaxşı bilirlər. Zaur Yusifova qarşı əsassız olaraq cinayət təqibi aparılır. İstintaqın da gedişatında müəyyən olunacaq ki, Zaur Yusifovun hadisənin baş verməsində, hadisə ilə heç bir əlaqəsi yoxdur. Zaur Yusifov əsassız olaraq bu gün etmədiyi cinayət görə həbsdə saxlanılır. Onun özü ilə yanaşı ailə üzvlərinə qarşı da qanunsuz cinayət təqibi davam edir. Bu gün işin obyektiv araşdırılmasının qarşısının alınması üçün belə xəbərlər yayılır".

**Ceyhun Yusifov deyir ki, müvəkkili ilə yanaşı ona qarşı da təzyiqlər var:** "Paralel olaraq mənim barəmdə də yuxarı prokurorluq vasitəsi ilə təzyiq göstərilir. Hüquqi müdafiə düzgün qurulub və bu cür gedişat istintaqı aparanlara xoş deyil. Barəmdə Vəkillər Kollegiyasına əsassız şikayətlər edirlər".



**Ceyhun Yusifov deyir ki, bu günə qədər Zaur Yusifovun ailəsinə məxsus çay evinin yandırılması faktı araşdırılmamış qalıb:** "Zaur Yusifovun atasına qarşı, qardaşına qarşı təzyiqlər davam edir, obyektləri yandırılır, ailə üzvləri təhqir olunurlar".

Vəkil işin obyektiv araşdırılmasının həqiqətin ortaya çıxaracağına əminliyini də vurğulayıb.

Xatırladaq ki, "Emin 444" və "Emin Masallinski" kimi tanınan Emin Səfərovun qətlini sifariş etməkdə ittiham olunan kikboksinq üzrə dünya çempionu Zaur Yusifovun barəsində seçilən həbs-qətimkan tədbirinin müddəti bitmək üzrədir. "Yeni Müsavat"a daxil olan məlumata görə, növbəti mərhələ üçün Zaur Yusifovun barəsində həbslə əlaqəli olmayan qətimkan tədbiri seçilə bilər. İddialara görə, o, ev dustaqlığına buraxıla bilər.

Qəddarlığına görə ölkəni silkələyən dəhşətli qətl bu il mayın 10-da törədilib. Masallı sakini, 1988-ci il təvəllüdlü Emin Səfərov 6-cı mikrorayon ərazisində yerləşən İsrafil Həşimov küçəsində öldürülüb.

**Faktla bağlı Binəqədi Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 120-ci - qəsdən adam öldürmə maddəsi ilə cinayət işi başlanıb, istintaq davam edir.**

**❑ E.MƏMMƏDƏLİYEV,
"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 185 (7355) 7 sentyabr 2019

# Zimbabvenin bir zamanlar qəhrəmanı, sonra diktatoru olmuş adam

## Robert Muqabenin həyat yolu; ölkəsini həm xilas etdi, həm də uçuruma yuvarladı...

**Zimbabvenin devrilmiş diktatoru Robert Muqabe öldü. 95 yaşlı Muqabe Sinqapurda müalicə aldığı klinikada dünyasını dəyişib. Bir zamanlar adı diktaturanın, hakimiyyət hərisliyinin simvoluna çevrilmiş Muqabe iki il əvvəl 30 il ərzində (1987-2017-ci illər - K.R.) idarə etdiyi Zimbabvedə 2017-ci ildə baş verən hərbi çevriliş nəticəsində postunu itirmişdi.**

Demək olar ki, bütün diktatorlar kimi, Muqabe də bir zamanlar ölkəsinin qəhrəmanı olmuşdu. Ölkəsinin azadlığı uğrunda mübarizə aparmış, həbs olunmuşdu. Amma sonradan hakimiyyət onu dəyişdi və 93 yaşında ordu qiyam qaldırıb Muqabeni devirənə qədər Zimbabveni idarə etdi.

Robert Qabriel Muqabe 1924-cü il fevralın 21-də Zimbabvedə, daha doğrusu o zamankı Rodeziya müstəmləkəsində Kutama bölgəsində anadan olub. Muqabe hazırkı Zimbabve əhalisinin 75 faizini təşkil edən Zezuri tayfalarındandır. Atası kənddə dülgər kimi çalışıb. Muqabe özü isə katolik məktəbində təhsil alıb və 1942-ci ildə 18 yaşında müəllim kimi fəaliyyətə başlayıb. Ancaq 1950-ci ildə Muqabe müəllimliyi buraxaraq Cənubi Afrika Respublikasına gedir və bir çox qaradərili liderin yetişdiyi Fort Hare Universitetinə qəbul olur. Bir ildən sonra isə siyasi fəaliyyətə qoşulur. 1955-ci ildə Universiteti bitirərək əvvəlcə Şimali Rodeziya, sonra isə Qanaya gedərək burada müəllim kimi fəaliyyət göstərir.



Muqabe 1960-cı ildə Coşua Nkomonun qurduğu Milli Demokrat Partiyasına qatılır və seçki uğurunda mübarizəyə qoşulur. 1961-ci ildə qara dərililərin hüquqlarını məhdudlaşdıran referendumu boykot aksiyasına rəhbərlik edir və Zimbabve Afrika Xalq Birliyi Partiyasının baş katibi seçilir. 1962-ci ildə həbs olunaraq bir müddət həbsdə saxlanılır. Azad olunduqdan sonra isə Tanzaniyaya qaçır. 1963-cü ildə isə silahlı mübarizəni dəstəkləyən Zimbabve Afrika Milli Birliyi (ZANU) təşkilatını qurur. 1964-cü ildə Muqabe yenidən həbs olunur və bu dəfə uzun illər həbsdə qalır. Hətta həbsxanada London Universitetini oxuyur.

1980-ci ildə Zimbabve müstəqil olur. Elə həmin il keçirilən seçkilərdə ZANU 100 yerlik parlamentdə 57 mandat alaraq qələbə qazanır. Muqabe isə bu seçkilərin nəticəsində baş nazir olaraq hakimiyyətə gəlir.

Bu zaman Muqabe dünyanın rəğbətini qazanan addım atır, ölkəni tərk etmək istəyən ağdərililərə müraciət edərək onları ölkəyə qaytarır və keçmişə görə mühakimənin qarşısını alır. Hakimiyyətinin ilk illərində ciddi uğurlar əldə dən Muqabe uşaq ölümləri, aclığın qarşısını alır. Eyni zamanda səhiyyə, təhsil, kənd təsərrüfatı sahəsində ciddi uğurlara nail olur. Onun hakimiyyətinin ilk illərində uşaq ölümləri hər 1000 yeni doğulan uşaqda 86-dan 49-a enir. 1980-89-cu illərdə iqtisadi inkişaf illik 4,47 faiz olur.

Ancaq 80-ci illərin ortalarında siyasi partiyalar arasında münaqişə tezliklə silahlı toqquşmalara çevrilir və bu zaman minlərlə insan ölür. Ancaq 1985-ci ildə Zimbabvedə sülh əldə olunur və buna görə Muqabe yenə dünyada böyük dəstək görür. 1987-ci ildə prezident Kanaan Banana hakimiyyətdən gedir və Muqabe ölkə prezidenti olur. Bundan sonra Muqabe baş nazir postunu da ləğv edərək ölkənin təkbaşına idarə etməyə başlayır. 1990, 1996, 2002, 2008 və 2013-cü ildə keçirilən seçkilərdə Muqabe ardıcıl olaraq qalib gəlir və Zimbabvenin prezidenti postunu öz əlində saxlayır.

Bu vəziyyət ölkənin iqtisadi vəziyyətinə də ciddi təsir edir, inflyasiya böyüyür. 2007-ci ildə Zimbabve dünyada ən böyük inflyasiya olan ölkəyə çevrilir. Eyni zamanda ölkədə siyasi təzyiqləri, diktatura rejimini möhkəmləndirməsi Muqabeyə qarşı beynəlxalq təzyiqləri artırır. 2008-ci ildə Avropa Birliyi Robert Muqabenin Avropa ölkələrinə daxil olmasını yasaqlayan qanun qəbul edir.

Ancaq buna baxmayaraq Muqabe 2015-ci ildə Konfutsi beynəlxalq sülh mükafatı alır və ardınca Afrika Birliyinin sədri seçilir. Robert Muqabenin ən böyük dəstəkçilərindən biri isə Afrikada böyük sərmayələr yatıran Çin olub. Çin dövləti Muqabeyə 2015-ci ildə "Çinin Nobel mükafatı" adlan "Konfutsi Sülh Mükafatı" verib. Zimbabvenin ixracatında əsas pay Çinə məxsusdur.

Lakin bütün hakimiyyətlərin sonu olur. 93 yaşlı qoca Muqabenin "taxtı" 2017-ci ildə laxladı. Hakimiyyət daxilində Muqabenin 53 yaşlı həyat yoldaşı və vitse-prezidentin daxil olduğu qruplaşma arasında yaranan mübarizə dərinləşdi. Muqabenin özündən sonra arvadını hakimiyyətə gətirməsi planı komandası daxilində etiraz doğurdu. 2017-ci il noyabrın 19-da hərbçilər 30 ildir ölkəni idarə edən Muqabeni istefaya göndərdi.

Hərbçilər ölkənin paytaxta ordu yeridib və mərkəzi televiziyasını ələ keçirib. Zirehli texnikalar isə paytaxt Harare şəhəri ətrafına yerləşdirilib. Zimbabve ordusu baş qərargah rəisi Konstantino Çivenqo 90 nəfər yüksək rütbəli zabitlə birlikdə açıqlama verib.

Baş qərargah rəisi deyib ki, Zimbabvenin müstəqillik mübarizəsində iştirak edən şəxslərin zorla vəzifədən uzaqlaşdırılmasına imkan verməyəcəklər. Hadisədən bir gün əvvəl Zimbabve prezidenti Robert Muqabe onun xələfi olması gözlənilən Emerson Mnanqaqvanı vəzifədən azad edib. Elə həmin vaxt prezidentin bu vəzifəyə xanımını təyin edəcəyi haqda məlumatlar yayılıb. Bir gün keçməmiş ordu hərəkətə gəlib. Daha sonra Emerson Mnanqaqva yenidən hakimiyyətə qaytarılıb. Muqabenin istefa məktubu isə parlamentdə oxunub. Bununla da Zimbabvedə 30 il davam edən Muqabe erasına son qoyulub.

**Əksər diktatorlar kimi Muqabe də bir zamanlar xalqının qəhrəmanı olub. Hüsnü Mübarək, Zeynəlabidin bin Əli kimi Muqabe də Zimbabvenin azadlığı, müstəqilliyi uğrunda mübarizə aparıb, həbsxanaya salınıb. Və sonda qalib gəlib. Ancaq iqtidara gəldikdən sonra hakimiyyət onu yoldan çıxarıb. Nəticədə bir zamanlar xalqının qəhrəmanı diktatora çevrilib və hərbi çevrilişlə devrilib. Bu isə Muqabe kimi şəxslər üçün yaxşı sonluq deyil. Çünki ortada ən azı Nelson Mandela təcrübəsi var.**

❑ **Kənan RÖVSƏNOĞLU,**
**"Yeni Müsavat"**

# Binəqədidəki qanqstersayağı qətllə bağlı yeni xəbər

## Məşhur riyazıyyatçının ailəsi istintaqın obyektiv aparılmasını istəyir, vəkil müstəntiqə faktlar təqdim edib

**Binəqədi rayonunda Mübariz Budaqlının odlu silahdan açılan atəşlə qətlə yetirilməsi ilə bağlı istintaq davam edir. Bu il iyunun ilk günlərində baş verən qanlı olay geniş rezonans doğurub. İlk günlər Mübariz Budaqlının kriminal avtoritet olması xəbərləri yayılsa da, sonradan onun kriminaldan uzaq biri olduğu üzə çıxıb. Bununla da Rəsulzadə qəsəbəsində avtomobildə güllələnən Mübariz Budaqlının qətlinin kriminal dairələr arasındakı münaqişənin təzahürü ola biləcəyi ehtimalı aradan qalxıb. Bilinib ki, odlu silahdan açılan atəşlə öldürülən Mübariz Budaqlı məşhur riyaziyyatçının oğludur. Ziyalı ailəsində anadan olub. 1998-ci ildə Bakı Dövlət Universitetinin Beynəlxalq Hüquq fakültəsini bitirib. Bundan sonra özəl sektora üz tutub. Sonradan işləri alınmayıb, şərikləri ilə arasında anlaşılmazlıq yaranıb, barəsində dələduzluq maddəsi ilə axtarış başlanıb. Elə adının kriminala bağlanması da barəsində axtarış işi ilə əlaqəli olub.**

Mübariz Budaqlı barəsindəki iş haqda xaricdə olarkən xəbər tutub. Bilib ki, onu hətta İnterpol xətti ilə axtarışa veriblər. Bakıya qayıdaraq məsələnin araşdırılması üçün istintaqla əməkdaşlıq edib. Bu da sonradan cinayət işinin rayon məhkəməsində baxılmasına yol açıb. Barəsində yol verdiyi xətalara görə yüngül cəza kəsilib.

Odlu silahla öldürülməsini də başqa bir anlaşılmazlığın nəticəsi kimi də qəbul etmək olar.

Yaxınları deyir ki, Mübariz Budaqlı dost dediyi şəxslərin qurduğu oyunlara qurban gedib. Ona Rusiyadan zəng edən dostlarından biri Tərtərdən olan və Bakıda yaşayan tanışları ilə barışmaq istədiyini bildirib. Mübariz Budaqlıdan xahiş edib ki, onları barışdırsın. Mübariz Budaqlı da tərəfləri barışdırmaq üçün gələcək qatili Taleh Cəlalovu arayıb. Onu barış üçün Taleh Cəlalovun qapısına göndərən dostunun ikili oyun oynamasından məlumatsız olub. Belə ki, Mübariz Budaqlıya "bizi barışdır" deyən dostu Taleh Cəlalova "adam göndərirəm, gəlib sənin dərsini verəcək" deyibmiş. Mübariz Budaqlı məsələdən bixəbər olduğuna görə rahat şəkildə Taleh Cəlalovun qapısına gedib, o, evdə olmadığından geri qayıdıb. Mübariz Budaqlı ilə Taleh Cəlalovun qohumluq əlaqələri də var. Mübariz Budaqlı Taleh Cəlalovun qapısından geri qayıdanda ona zəng gəlib, yerini xəbər alıblar. Binəqədi ərazisində olduğunu deyən Mübariz Budaqlı ünvanına ağır söyüşlər eşidib. Qarşılıqlı söyüşmə olub. Bundan sonrası isə kriminal süjetli filmi xatırladır. Mübariz Budaqlının olduğu avtomobili Binəqədi rayonu ərazində təqib ediblər. İlkin məlumatlarda 1 avtomobildən söhbət getdiyi bildirilirdi. Belə xəbərlər var ki, Mübariz Budaqlının olduğu maşını təqib edən 1 yox, 3 avtomobil olub. Təqib edən "BMW"dən Mübariz Budaqlının olduğu "Mercedes"ə atəş açılıb. Sürücünün yanında oturan şəxs güllə yarasından ölüb, sürücü canını qurtarıb. Sonrakı araşdırmalar zamanı məlum olub ki, təqibçilərin sürücünü öldürmək niyyətləri olmayıb. Faktla bağlı ilkin olaraq Binəqədi Rayon Prokurorluğunda cinayət işi başlanıb. İstintaqın qənaətinə görə, hadisə baş verən gün Tərtər rayon sakini Vüsal Hüseynovun idarə etdiyi "BMW-745" markalı avtomobilə Bakı sakini Nazim Qədirovun idarə etdiyi "Mercedes" markalı avtomobil təqib edilib. Bu zaman həmin avtomobilin sərnişini - Tərtər rayon sakini, əvvəllər məhkum olunmuş Taleh Cəlalov odlu silahdan digər nəqliyyat vasitəsi istiqamətində atəş açıb. Olay zamanı əvvəllər məhkum olunmuş Mübariz Budaqlı qətlə yetirilib. Cinayəti törədən Taleh Cəlalov və Vüsal Hüseynov tutulublar. T.Cəlalovdan lüləsi kəsilmiş "İJ-16" markalı tüfəng götürülüb.



Belə iddialar da var ki, Mübariz Budaqlı ilə T.Cəlalov arasında uzunmüddətli münaqişə olub. Ədavət 2011-ci ildə meydana gəlib. Belə ki, M.Budaqlı və digər 2 nəfər T.Cəlalovun bir ailə üzvü haqda şayiələr yayıb. Söz-söhbətləri eşidən T.Cəlalov digər iki nəfəri bıçaqlayıb və buna görə müəyyən müddət həbs cəzası çəkib. Hadisə baş verən gün isə T.Cəlalov M. Budaqli ilə avtomobil təmiri sexində təsadüfən rastlaşdığını bildirib. Onu avtomobili ilə təqib edib və məlum hadisəni törədib.

Mərhumun ailəsinin vəkili Ceyhun Yusifov deyir ki, Mübariz Budaqlının qətlində iştirak edən şəxslərin tam dairəsi müəyyən edilməyib. Bu səbəbdən istintaqın gedişatı Mübariz Budaqlının yaxınlarını qane etmir.

**Vəkil deyir ki, işdə olan bir çox qaranlıq məsələlərlə bağlı istintaqa məlumat verilib:** "Ümid edirik ki, obyektiv araşdırma aparılacaq. Mübariz Budaqlı ziyalı ailənin övladıdır. Onun adının kriminal kimi hallandırılması doğru deyil. Ailəsi baş verən faciənin sarsıntısının təsirindən çıxa bilməyib. İstintaqın obyektiv aparılacağına, cinayətdə iştirak edən hər bir kəsin cəzaya çatdırılacağına inanırıq".

**Faktla bağlı ilkin olaraq Binəqədi Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 120-ci *(qəsdən adam öldürmə)* maddəsi ilə cinayət işi başlanıb. Sonradan iş materialları Binəqədi Rayon Prokurorluğundan Bakı Şəhər Prokurorluğuna ötürülüb. Hazırda istintaq davam edir.**

❑ **E.HÜSEYNOV,**
**"Yeni Müsavat"**

Yeni MÜSAVAT
N 185 (7355) 7 sentyabr 2019

**Hicri 1441-ci ilin başlanğıcı - Məhərrəm ayının 1-i miladi təqvimlə 2019-cu il sentyabrın 1-nə təsadüf etdiyindən, Aşura günü bu il sentyabrın 10-da keçiriləcək. Qeyd edək ki, Məhərrəmin onuncu günü olan Aşura hicri təqvimi ilə 61-ci ildən şəhadət və hüzn günü kimi yad edilir. Aşura hadisəsində Müaviyə oğlu Yezidin göstərişi ilə Həzrət Peyğəmbərin (s) nəvəsi və səhabəsi İmam Hüseyn (ə), imamın digər səhabələri, Əhli-Beyt və tərəfdarları Kərbəla çölündə şəhid edilmiş, ailələri əsir alınmışdı. Bu hadisədən sonra İmamın (ə) haqq-ədalət naminə şəhadəti bəşəriyyət və insanlıq üçün mənəvi kamillik, dirçəliş nümunəsinə çevrildi.**

# Məscidlərdə Aşuraya hazırlıqlar və qanvermə aksiyaları başladı

## Hacı İlqar İbrahimoğlu: "İslam akademiyaları, böyük müctəhidlər baş yarmağın haram olduğunu bəyan ediblər"




Azərbaycanda da hər il Məhərrəmlik əyyamında əhalinin dindar kəsimi İslamın müqəddəs şəhidlərinə əza saxlayır, məscidlərə axın edir, ibadətlə məşğul olub ehsanlar paylayırlar.

Qafqaz Müsəlmanları İdarəsi də müsəlmanlara tövsiyə edir ki, məhərrəmlik mərasimləri İmam Hüseynin (ə) şəninə uyğun və amallarına yaraşan tərzdə qeyd edilməlidir. Mövcud qanunvericiliyə əsasən, təziyə məclisləri, Aşura məscidlərdə, ibadət ocaqlarında və onlara aid ərazilərdə təşkil olunmalı, ictimai asayişə mane olmamalıdır. Dini mərasim və ayinlər yalnız QMİ-nin rəsmi şəkildə təyin etdiyi din xadimləri tərəfindən idarə edilməlidir. Din xadimləri İmam Hüseyn (ə) mübarizəsinin və Kərbəla faciəsinin mahiyyətini düzgün çatdırmalı, şəhidlik fəlsəfəsinin açıqlanmasına, vətən təəssübü və milli mənafelərimizin təbliğinə ciddi çalışmalıdırlar. QMİ ibadət məkanlarından kənar ərazilərdə kütləvi yürüşlərə çıxmaq, özünə və ətrafdakılara xəsarət yetirə biləcək alətləri, başqa ölkələrin bayraq və digər dövlət rəmzlərini mərasimlərə gətirmək yolverilməz olduğunu açıqlayıb.

Əzadarlıq mərasimlərində dinimizin təyin etdiyi əxlaqi meyarlara riayət olunmalıdır. Qurşağadək soyunub zəncir vurmaqla bədənə xəsarət yetirmək və baş yarmaqla qan çıxarmaq İslam qanunlarına ziddir, İmamın (ə) və Kərbəla şəhidlərinin xatirəsinə hörmətsizlikdir.

Aşura gününün əməlləri ilə bağlı "Yeni Müsavat"a danışan **ilahiyyatçı-filosof Hacı İlqar İbrahimoğlu** bildirdi ki, hazırda bütün İslam dünyasından Əhli-beyt sevərlər artıq Məhərrəm ayının ilki 10 günlüyünün əzadarlığını yaşayırlar. Bu əzadarlıq günlərinin pik nöqtəsi Tasua və Aşura günləridir. Bütün bu əzadarlıq məclislərində, xüsusən də Tasua və Aşura günlərində əzadarlıq yaşamanın bir neçə çalarının olması bəyənilәndir. Mövzunun maarifçilik, fəlsəfi və intellektual hissəsinə mütləq diqqət olunmalıdır. Tasua və Aşura yaşadılan günlərdə, ümumən Məhərrəmlik əyyamında əzadarlığın 3 istiqamətdə yaşanması çox önəmlidir. İlk növbədə fəlsəfəsi dərk edilməlidir ki, nə oldu və niyə oldu. Necə oldu, toplum nələrə diqqət etmədi ki, İslam ümməti bu həddə çatdı, cinayət törətdi. Ümumilikdə Aşura məktəbinin fəlsəfəsi və missiyası öyrənilməli, bunlar insanlara çatdırılmalıdır".

**İlahiyyatçı qeyd etdi ki, digər mühüm məsələ əzadarlıq məclislərində emosional-estetik zövqün tərbiyəsidir:** "Bu faciə baş verən zaman yaşanan o ağrılı müsibətlərin, çətinliklərin obrazlı, bədii şəkildə çatdırılmasıdır ki, bunlar Azərbaycan mərsiyələrində, rövzələrdə, nohələrdə, folklorumuzda mövcuddur. Burada da İmam Hüseyn (ə) məktəbinin mahiyyəti, bu məktəbin insan yetişdirmək, ali dəyərləri aşılmaq, inkişaf etdirmək müstəvisində əhəmiyyəti nəzərə alınmalı, təbliğ edilməlidir".

**Kərbəla hadisələrini bir məktəb adlandıran Hacı İlqar İbrahimoğlu burada hər bir nəsilə örnək olan səhnələrin yaşandığını diqqətə çatdırdı:** "Üçüncü yönü praktik məsələlərdir, istər uşaq tərbiyəsində, istər insan yetişdirmədə, istər əxlaqi təkamüldə bizim bu məktəbdən götürə biləcəyimiz dərslərdir. İzzət, ləyaqət, imtahanlarda gözəllik görmək xarakteri var bu məktəbdə. O hadisələrdə yaşanan bütün obrazların, yaşlılar üçün Həbib ibni Məzahirdən yeniyetmələr üçün Həzrəti Qasimə qədər bütün səhnələrdə nümunələr var".

**İlahiyyatçı vurğuladı ki, ümumilikdə Azərbaycan toplumunda baş yarma kimi bir hal yoxdur, bu mövzu bizdə aktual deyil:** "İslam akademiyaları, böyük müctəhidlər baş yarmağın haram olduğunu bəyan ediblər. Vətənimizdə də belə bir hal müşahidə olunmur".

**Qanvermə aksiyasına gəlincə, İ.İbrahimoğlu bu ənənənin təkcə Aşura ərəfəsində deyil, ilboyu yaşadılmasının vacibliyini vurğuladı:** "Onillər öncə hələ belə bir mədəniyyət cəmiyyətdə olmadığı dövrdə, biz qanvermə mədəniyyətini toplumа gətirmək istədiyimiz zaman bunun həm Aşura günündə, həm də başqa vaxtlarda olmasını və bir növ həyat tərzi olaraq həyata keçirilməsini tövsiyə etmişdik. Ümumilikdə çox savab işdir, xüsusilə talassemiya xəstələri üçün faydalıdır. O zaman biz bu proqramı Allahın gözəl adları "Əsmaül- hüsna" adı ilə İbaşlatmışdıq. İnsanlar bu nəcib bir mədəniyyət əməli olan qanvermə aksiyalarında iştirak edirdilər. O zaman bunu Aşura günüdə başlatmışdıq. Ancaq bu qətiyyən o demək deyil ki, sadəcə qan verməklə artıq əzadarlıq etmiş oluruq, Aşuranın bütün əməlləri kompleks şəklində birgə yaşanmalıdır. Tarixən bu günlərdə xalqımız ehsan məclisləri də keçirib, xeyirxah işlər görüb. Buna öz qanını bağışlamaq kimi bir gözəl əməl də əlavə olunsa, daha yaxşı olar. Həm qanvermə aksiyası, həm də digər gözəl əməllər təkcə Aşura günü və ya Ramazan ayı ilə məhdudlaşmamalı, ilboyu həyata keçirilməlidir. Sözsüz ki, Məhərrəm və Səfər əyyamı, xüsusən də Tasua və Aşura günləri Qarabağın azadlığı kontekstində, şəhidlik məktəbinin inkişaf etdirilməsi baxımından toplumumuz üçün əhəmiyyətlidir. Şəhid qanı bir toplumun oksigenidir. Toplumun inkişafı şəhid ruhiyyəsinin dərkindən keçir. Ümid edirik ki, Aşura məktəbindən nümunə götürən xalqımız Qarabağı da azad edəcək. Məhərrəm və Səfər əyyamında əzadar olan hər kəs bunu niyə etdiyini bilməli, Allahın razılığını düşünməlidir".

**"Əjdərbəy" məscidinin axundu Hacı İlham Səlimov** isə "Yeni Müsavat"a açıqlamasında maarifləndirmə işlərinin bu sahədə müsbət nəticə verdiyini bildirdi: "Artıq əvvəlki illərdən fərqli olaraq insanlar bu sahədə maariflənibler. Sovet hökumətinin dağılmasından sonra bir boşluq yarandı. Bəzi insanlar bundan istifadə edib, baş yarmaq, zəncir vurmaq kimi ənənələri gətirdilər. Ancaq son illər bunlar yığışdırılıb. "Əjdərbəy" məscidində hər gecə əzadarlıq məclisləri olur, insanlar gəlir Həzrəti İmam Hüseynə (ə) əza saxlayırlar, klassik şairlərin mərsiyələrini dinləyir. Ötən gün Mirzə Ələkbər Sabirin mərsiyəsi oxundu, insanlar bundan faydalandı. Biz bu məclislərdə Xocalı hadisələri ilə bağlı da danışırıq, orada insanların necə şəhid olmasından danışırıq. Artıq azyaşlıların, anlaqsız uşaqların məscidlərə gətirilməməsi ilə bağlı da maarifləndirmə aparırıq. Yeniyetmələr məscidə gələrsə, onlar İmam Hüseyn ağanı bir vətənpərvərlik, şəhidlik nümunəsi kimi təbliğ edirik".

Qeyd edək ki, QMİ-nin təşəbbüsü ilə gerçəkləşən və təziyə günlərində ehtiyacı olan xəstələr üçün təşkil edilən İmam Hüseyn (ə) xatirinə könüllü qanvermə aksiyaları cəmiyyətin təqdirini qazanıb. Respublika Səhiyyə Nazirliyi QMİ-nin başlatdığı bu kampaniyaya dəstək əlaməti olaraq məscidlərlə yanaşı, ibadət məkanlarına yaxın ərazilərdə yerləşən tibb məntəqələrində (xəstəxana və poliklinikalarda) də qanvermə aksiyalarının həyata keçirilməsini təmin edəcək.

Aşura günü ilə bağlı Yeni Azərbaycan Partiyasının qərargahında qanvermə aksiyasına başlanılıb. Aksiyada iştirak edən partiyanın icra katibinin müavini Siyavuş Novruzov bildirib ki, Məhərrəm ayında insanlar özünə zəncir vurmaqdansa, qanvermə aksiyasında iştirak etsələr, daha yaxşı olar. Çünki bəzi insanlar müəyyən xəstəliklərdən əziyyət çəkir, onların qana ehtiyacı var. Qan verməklə biz o insanlara kömək etmiş olarıq. Hakim Yeni Azərbaycan Partiyası hər ilə belə aksiya keçirir". S.Novruzov müxalifəti də qanvermə aksiyasında iştirak etməyə dəvət edib.

❑ **Nərgiz LİFTİYEVA,**
**"Yeni Müsavat"**

# Ankara və Vaşinqton "kürd zolağı" bazarlığı

## ABŞ hakimiyyəti həm Türkiyəni, həm də kürdləri itirmək istəmir



**ABŞ ordusu baş qərargah rəisi Cozef Danford Suriyanın şimalında yaradılacaq "təhlükəsiz zona" barədə açıqlama verib. O deyib ki, bu bölgənin yalnız Türkiyənin nəzarətində olması ABŞ və Türkiyənin birgə maraqlarına xidmət etməyəcək.**

ABŞ Xarici Əlaqələr Şurasında çıxış edən general bildirib ki, Türkiyənin Suriya ilə sərhədi ilə əlaqəli narahatlıqları var. O, hazırda Türkiyə ilə davamlı dialoq aparıldığını, Suriyada Türkiyə-ABŞ birgə əməliyyat mərkəzinin qurulması ilə bağlı anlaşma əldə olunduğunu xatırladıb. Danford deyib ki, Vaşinqton Türkiyənin narahatlığını aradan qaldıra bilər. Ancaq o, "təhlükəsiz zona"nın Ankaranın nəzarətində olmasının iki tərəfin maraqlarına uyğun olmayacağını əlavə edib.

Baş qərargah rəisi növbəti dəfə xatırladıb ki, ABŞ İŞİD-ə qarşı mübarizədə "Suriya Demokratik Qüvvələri"nə *(kürdlər - K.R.)* dəstək verir: "Hazırda Suriyada İŞİD-in qalıqlarına qarşı təsirli mübarizə aparmaq üçün koalisiyanın dəstəyinə ehtiyac var. Terrorçulardan təmizlənən bölgələrdə təhlükəsizliyin təmin olunması günü yerli qüvvələrin hazırlanması lazımdır".

Xatırladaq ki, avqustun ikinci yarısında Türkiyənin milli müdafiə naziri Hulusi Akar ABŞ müdafiə naziri Mark Esper arasında telefon danışığından sonra Türkiyə Milli Müdafiə Nazirliyi "Suriyada təhlükəsiz zonanın yaradılması planının birinci mərhələsinin başlanması ilə bağlı razılaşma əldə olunduğunu" bəyan edib. Daha sonra isə ABŞ və Türkiyə ordusunun iki generalı vertolyotla əməliyyat bölgəsi üzərindən uçuş həyata keçirərək əraziyə baxıblar.

ABŞ Müdafiə Nazirliyi isə ABŞ və Türkiyənin razılaşdırılmış planın mərhələli və koordinasiyalı şəkildə tətbiq ediləcəyini açıqlayıb. Ancaq həmin vaxt təhlükəsiz zona haqqında detallar, hansı əraziləri əhatə edəcəyi ilə bağlı əlavə məlumat verilməyib. Bu açıqlamadan az sonra Türkiyə və ABŞ ordusunun iki generalı vertolyotla əraziyə baxış keçirib.

Bundan bir neçə gün sonra isə YPG silahlıları və ağır hərbi texnikanın Suriya-Türkiyə sərhədindən geri çəkməyə başladığı haqda xəbərlər yayılıb. Bu, Türkiyə və ABŞ arasında uzun zamandır davam edən müzakirələrin nəticə verdiyi və planın işləməyə başlaması kimi qiymətləndirilib. "Reuters" Agentliyi YPG-nin Tel Abyad və Ras əl-Ayn məntəqələrindən çəkildiyi haqda xəbər yayıb. Agentliyin xəbərində qeyd olunur ki, kürd mənbələri geri çəkilmələrini "dialoq yolu ilə həll yolu tapılmasına tərəfdar olmaları" ilə izah ediblər.

Hələlik kürdlər yalnız iki məntəqədən çəkilib. Ümumilikdə isə dəhlizin hansı böyüklükdə olacağı bəlli deyil. Türkiyənin təklif etdiyi 35-40 kilometr, amerikalıların təklif etdiyi 32 kilometr, yoxsa kürdlərin təklif etdiyi 5 kilometr olacağı dəqiq məlum deyil. Ancaq bir şey var ki, Türkiyənin təklif etdiyi 35-40 kilometrlik zolaq razılaşdırılsa, bu o deməkdir ki, kürdlər tutduqları ərazilərin yarıya qədərini itirməli olacaqlar. Kürdlərin, eləcə də Vaşinqtonun bununla razılaşacağı inandırıcı deyil. Ancaq istənilən halda bu razılaşma Suriya ətrafında hərbi-siyasi proseslərin daha da hərəkətləndiyini göstərir.

Danfordun açıqlaması iki əsas məqamı ilə diqqət çəkir . Birincisi, amerikalılar "təhlükəsiz zona"nı Türkiyəyə vermək, türklərin sərhəd zolağına təkbaşına nəzarət etməsinə imkan vermək fikrində deyil. İkincisi isə ABŞ hələ də SDQ, yəni Suriya kürdlərinə dəstək verir və bu dəstək davam edəcək.

**Məsələ ondadır ki, söhbət 500 kilometrə yaxın uzunluğu olan və İraq sərhədindən başlayaraq Cerablusa qədər olan böyük ərazidən gedir. Əgər Türkiyə tələb etdiyi kimi 35-40 kilometr dərinliyə qədər ərazini nəzarətə götürsə, bu o deməkdir ki, kürdlərin muxtariyyət qurması mümkünsüz olur, ya da ən azı əldə etdikləri ərazinin böyük bir qismini, strateji məntəqələri itirirlər. Bu isə əlbəttə ki, Vaşinqtonun strateji kürd planlarına uyğun deyil. Bu səbəbdən də Pentaqon Türkiyəyə sərhəddə "təhlükəsiz zolağı" verməyə razılaşsa da, onun birgə nəzarət altında olmasını istəyir. Eyni zamanda ABŞ tərəfi 35 kilometrlik zonanın ayrılmasında maraqlı deyil, bu məsafənin daha kiçik olmasını istəyir. Lakin eyni zamanda Vaşinqton Ankaranın kürd məsələsindəki həssaslığını qəbul edərək, daha dərin münaqişə olmaması üçün kürdlər və Türkiyə arasında ayırıcı xəttin olması fikrini dəstəkləyir. Bu məsələdə isə Ankara və Vaşinqton arasında hələ də həll olunmamış məsələlər qalır.**

❑ **Kənan RÖVŞƏNOĞLU,**
**"Yeni Müsavat"**

# YENİ MÜSAVAT

Son səhifə

N 185 (7355) 7 sentyabr 2019


## Bunları bilirsizmi?

* Gündə bir paket cips yemək, ildə beş litr maye yağ içmənizə əvəzdir.
* Everestə hər 10 dırmaşmadan birində ölüm var.
* Bir bitki toxumu 200 il boyunca saxlana bilir.
* HIV virusu ilk dəfə 1930-cu ildə kəşf edilib.
* Fil balası xortumuyla anasının quyruğuna yapışaraq gəzər. Sürü içindəki dişi fillər doğumlarını bir-birlərinə görə nizamlayıb sırayla dünyaya bala gətirirlər.
* Dünyanın ən qoxulu məscidi Təbriz şəhərindədir.

# Dünyanın ən zərərli içkisi



Mütəxəssislər dünyadakı ən qeyri-sağlam içkini kəşf ediblər. Bu, kalorisi və doymuş yağ miqdarı baxımdan ən zərərli içkidir. Mütəxəssislər xüsusən də içərisində şokoladlı dondurma qoyulan “milkshake”nin qaraciyər düşməni olduğunu açıqlayıb. Tərkibində qoruyucu maddə olsa da, bu içkilər şişmanlığa səbəb olur. Bundan başqa, sözügedən içkinin həvəskarlarına onu evdə hazırlamaq və həftədə cəmi 2-3 stəkan içmək məsləhət görülür. Çünki bayırdan alınan “milkshake”lərin tərkibində zərərli maddələr üstünlük təşkil edir.



## Qadın 73 yaşında əkiz doğdu, əri iflic oldu

Hindistanın cənubundakı Andhra Prades bölgəsində 73 yaşındakı bir qadın əkiz körpə dünyaya gətirib. 82 yaşındakı ata doğumdan bir gün sonra iflic keçirərək, xəstəxanaya aparılıb. Ana və qızlarının sağlamlıq vəziyyətinin yaxşı olduğu açıqlanıb.

Mangayamma Yaramati adlı qadın əri ilə birlikdə hər zaman uşaq sahibi olmaq istədiklərini, amma illərlə hamilə qala bilmədiyini söyləyib. Əri Sitarama Rajarao isə arvadı hamilə qalanda hədsiz dərəcədə xoşbəxt olub. “Kənddə mənə "uşaqsız qadın" deyə ad qoymuşdular" deyən yaşlı xanım müalicədən iki ay sonra hamilə qalıb.

Mangayamma Yaramati isə deyib ki, ana olmadığı üçün onu kənddə hər zaman iqnor ediblər. Onun sözlərinə görə, çox həkimlərin yanına gedəndən sonra nəhayət, fərqli müalicə üsulunu tətbiq ediblər. 2016-cı ildə yenə Hindistanda Daljinder Kaur adlı yetmiş yaşlarında bir qadın oğlan uşağı dünyaya gətirmişdi.

## Pulu zibilliyə atdı



Tümendə ailə təsadüfən milyonlarla rublu zibilliyə atıb. Bu barədə “Bizim şəhər” portalı məlumat yayıb. Tümenlilər analarının mənzilini satıblar, daha sonra isə bu alqı-satqıdan əldə etdikləri vəsaiti paketə qoyublar. Son olaraq pul dolu paketlə zibil paketini qarışıq salaraq, onu atıblar. Pullar daha sonra zibil zavoduna çatıb. Ailə zavoda gəlib və əməkdaşlara öz problemləri ilə bağlı danışıb. Şəhər sakinləri öz zibil paketlərini tapmaq üçün 12 ton zibilin arasında eşələnməyə məcbur qalıblar. Bu barədə jurnalistlərə sexin rəisi Viktor Zaqidulin məlumat verib. Son nəticədə pullar tapılıb.

2018-ci ildə isə Kanada sakini 9 ay ərzində ilk dəfə öz iş masasını düzənləməyə çalışıb və orda uduş qazanan lotereya bileti tapıb. Bu bilet ona 998.7 min Kanada dolları qazandırıb.



## Elektron siqaretə görə daha bir nəfər öldü

Amerikada elektron siqaretə bağlı olduğu təxmin edilən ağciyər xəstəliyindən daha bir nəfər dünyasını dəyişib. Oreqon ştatında iyul ayında öldüyü açıqlanan bu şəxsin rəsmi olaraq narkotik maddə satılan bir dükanda elektron siqaret çəkəndən sonra halı pisləşərək xəstəxanaya aparılıb.

Keçən ay da İllinois ştatında bir kişi buna bənzər bir şəkildə dünyasını dəyişmişdi. Yetkililər ölkə miqyasında elektron siqaretdən qaynaqlandığı düşünülən və iyun ayının sonunda görülməyə başlanan “sirli xəstəliklə” bağlı 22 ştatda 200-ə qədər hadisənin araşdırıldığını deyir.

## Diş çöpü boğazında qaldı, öldü



Diş çöpü Portuqaliyanın Koimbr şəhər sakininin ölümünə səbəb olub. Bu barədə “Daily Mail” nəşri xəbər verib. 50 yaşlı qadın iki dəfə boğazındakı xoşagəlməz hislə bağlı xəstəxanaya müraciət edib. Onun fikrincə, vaxtilə buterbrod yeyəndə boğazında nəsə qalıb. Nə larinqoskopiya, nə rentgendə hər hansı şübhəli məqam görülməyib. Ona soyuqdəymədən antibiotik yazıb və evə yazıblar.

Həkimə gedəndən bir gün sonra qadını ölü tapılıb. O, vanna otağında başında yaralarla uzanıb. Ölümün ilk səbəbi olaraq qətl kimi göstərilib. Amma daha sonra bu versiya qüvvədən düşüb. Daha sonra araşdırma nəticəsində qadının mədəsində 3.5 santimetr uzunluğunda diş çöpü çıxıb. Qadın huşunu itirəndən sonra yerə yıxılıb və başı yerə dəyib. Bu, qadının bədənində aşkarlanan yaraların araşdırması zamanı üzə çıxıb.

“Forensic and Legal Medicine” jurnalının müəllifləri qeyd edirlər ki, onlara bu səbəblə bağlı dünyasını dəyişmə halları məlum deyil.

Yanvar ayında isə xəbər yayıldı ki, Britaniyanın Belfast şəhər sakini iki həftə boyunca boğazında plastik qablaşdırmalı ağrıkəsici ilə yaşayıb. Mütəxəssislər bir neçə dəfə qadını müayinə etsələr də şübhəli heç nə tapmamışdılar.

## Çox yaşamağın 10 yolu budur



Alimlər ayrı-ayrı araşdırmalar çərçivəsində insan həyatını uzatmaqla bağlı nəticələrə gəlib. Bunlar “ömrü uzatmağın 10 yolu” adı altında toplanıb. Sözügedən yollardan biri insanın tez-tez ac qalmasıdır. Dünyanın ən uzun yaşayan insanların yaşadığı Okinavada xalq tam doymadan yeməkdən əlini çəkir. İkinci yol dil öyrənməkdir. Dil öyrənmək daha çox insanla ünsiyyət və müsbət enerji qazanmaq anlamına gəlir. Dağlarda yaşamaq, genetik müalicə, varlanmaq, bir inanca sahib olmaq, çox işləyib, stressə girmək, dərmandan düzgün istifadə, orqan transplantasiyası, dünyada yaxşı işlər görmək də yaxşı yaşamağın qaydaları sırasındadır.

Səhifəni hazırladı: SELCAN


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 3.050